İRFAN

№ 90 May 2014 İctimai fikir jurnalı 3 AZN



SƏCDƏ ET, YAXINLAŞ!

Redaktordan

Əziz Oxucu!

Həyatımızda bir daha bizə yeni fürsətlər verən və dini ədəbiyyatımızda "Üç Aylar" kimi ifadə olunan mübarək mövsümü yaşamağın sevincini hiss edirik. Həzrət Peyğəmbərin üç mübarək ayın gəlişi ilə dualarında "Allahım, Rəcəb və Şaban aylarını bizə bərəkətli et və bizi Ramazana qovuşdur",- ifadələrini artırdığını bilirik. O da məlumdur ki, İslam aləmində xüsusi yeri olan merac hadisəsi məhz bu üç aylardan birincisi – Rəcəb ayında baş vermişdir. O merac ki, Peyğəmbər (s.ə.s) Allaha ən yaxın olmuş və heç kimin nail olmadığı şərəfə nail olmuşdur. Hədisi-şəriflərdə buyurulduğu kimi möminin Allaha ən yaxın anı da səcdə anıdır. Etdiyimiz səcdələr hər bir möminin Rəbbi ilə baş-başa qaldığı merac anı kimidir bir növ.

Jurnalımızın bu sayını mübarək "üç aylar" mövsümündə namaza və səcdəyə həsr etdik. *"Səcdə et, yaxınlaş", "Meraca bərabər namaz"* başlıqlı yazılarla səcdələrimizin nə qədər əhəmiyyətli olduğunu bir daha oxuyacaqsınız. *"Namaz aşiqi Peyğəmbər və biz"* məqaləsi ibadətdə Ondan hansı nümunələri götürəcəyimizi göstərir. *"Namazın sosial faydaları"*, *"Sağlam həyat üçün namaz"* kimi yazılarda isə namazın bizə qazandırdıqları ilə tanış olacaqsınız. Bu sayımızda ana mövzu ilə bağlı *Dr. Ahmed Hamdi Yıldırım*la çox gözəl bir müsahibəmiz oldu, jurnal səhifələrində oxuyacaqsınız. Ölkəmizdə səfərdə olan Türkiyənin tanınmış elm xadimi, psixoloq *Prof. Dr. Nevzat Tarhan*dan redaksiyamızı ziyarəti əsnasında reportaj aldıq, onu da sizlərlə paylaşırıq. Möhtərəm könül insanı *Osman Nuri Topbaş*ın qələmindən Cəfəri-Sadiq silsiləsi davam edir. Bir sözlə, səhifələrimizi sevərək oxuyacaqsınız.

Bir məsələni də nəzərinizə çatdırmaq istərdik. Oxucularımızın tanıdığı və sevərək yazılarını oxuduğu, eyni zamanda jurnalımızın məsul katibi vəzifəsində çalışan *Elşən Rzayev* qardaşımız başqa sahədə fəaliyyətə başladığı üçün jurnalımızdan ayrılmışdır. Ona yeni iş sahəsində müvəffəqiyyətlər arzulayırıq. Bu neçə ildə bizimlə birlikdə xidmətlərindən ötrü təşəkkür edirik.

İRFAN
May/2014/№:90
ictimai fikir jurnalı
Dövlət Reyestr №: 1763

Təsisçi:
İpəkyolu MMC

Baş redaktor:
Nurlan MƏMMƏDZADƏ

Məsləhətçi:
Dr. Abbas QURBANOV

Kompüter dizaynı:
Ülvi MƏMMƏDOV

Copyright 2013 © All Rights Reserved

Created and supported by "irfan"

Foto:
«İRFAN»

Redaksiya heyəti:
Akademik
Vasim MƏMMƏDƏLİYEV
Prof.Dr. Şahin XƏLİLLİ
Dr.Siracəddin HACI
Dr.Alpay ƏHMƏDOV
Seyid Camal ƏZİMBƏYLİ
Eldəniz SALMANOV
Ramiz MƏMMƏDOV
Səadət MÜRŞÜDOVA
Arif HEYDƏROĞLU
Akif HÜSEYNOV
Fuad QULİYEV

Ünvan:
Bakı şəhəri,
Cəfərov Qardaşları küç. 16
Tel: (+994 12) 492 32 23,
493 02 93

www.irfandergisi.com
E-mail
irfandergisi@yahoo.com

Abunə və reklam işləri:
Tel: 051 412-22-82

Təkliflərniz üçün bu nömrəyə müraciət edə bilərsiniz

Jurnalın materiallarından istifadə edərkən istinad zəruridir. Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

İllik abunə qiyməti:
Ölkədaxili 35 AZN
Xarici ölkələr üçün 60 Avro

4

SƏCDƏ ET, YAXINLAŞ!

NURLAN MƏMMƏDZADƏ



6

NAMAZ AŞİQİ PEYĞƏMBƏR VƏ BİZ

RÜFƏT ŞİRİNOV

28

HAQQ DOSTLARINDAN HİKMƏTLƏR CƏFƏRİ-SADİQ (Q.S) -4-

OSMAN NURİ TOPBAŞ

38

PROF. DR. NEVZAT TARHAN İLƏ MÜSAHİBƏ

8 Namazın sosial faydaları
İlham SOVQATOV

10 Meraca bərabər namaz
Anar RÜSTƏMOV

12 Sağlam həyat üçün NAMAZ
Kamran BABAYEV

14 Şeytan və Namaz
Müşfiq XƏLİLOV

16 Dr. Ahmet Hamdi Yıldırım ilə müsahibə

20 İrfan-doxsan və üç aylar
Adem ŞAHİN

22 Merac
Nüreddin RÜSTƏMOV

24 Namazın sünnələrində fərqlilik
Dr. Əhməd NİYAZOV

26 Bir Ayə
Fuad QULİYEV

27 Bir Hədis
Səfa MURADOV

34 Hər şey qəlbdən başlayır
Mübariz ƏLİOĞLU

36 İlahi dəvət azan
Saleh ŞİRİNOV

42 Qırmızı işıqlar
Eldar KƏRİMOV

44 Milli və mənəvi sərvətimiz
Aqil ƏLİYEV

46 Div Ata
Alpay Əhməd

48 Duamız olmasa
Ramazan QORADAYEV

50 Quran gündəliyi
Kamran MƏMMƏDOV

51 Əbru - suda açan çiçək
Məleykə ABDULLAYEVA

52 Xəbər

55 Həyat dəftərindən
Ülvi Məmmədov

Sorma hər kişinin əslin izzətindən bəlidir / Söhbəti irfan görənlər xidmətindən bəlidir. Nəsimi

BƏRƏKƏTLİ MÖVSÜM MÜBARƏK ÜÇ AY

Yaradana yaxın olmaq üçün yaşayırıq. Həm dünyada, həm axirətdə. Əslində Yaradan bizə bizdən daha yaxındır. Məsələ bizim Ona yaxın olmamağımızda, yaxud Onun yaxınlığını ağlımızla bildiyimiz halda qəlbimizlə bunu hiss edə bilməyişimizdədir. Halbuki ağıl inanmaz. Qəlbin qapısında gözləyər. İnanan qəlbdir.

Üç aylar deyilən mübarək zaman dilimi bizim üçün qəlbi səviyyə qazanma mövsümüdür. İstehlak məhkumu olub, istiqamətini itirən və nəyə rəğbət edəcəyini unudan başları və qəlbləri **Rəqaib** qarşılar üç ayların qapısında. "Ətrafına bax!" deyər: "Haqdan başqa meyl etməyə, arzulanmağa, məftun olunmağa layiq nə var?" Sanki göydən endirilən və göyə doğru yüksəldən, nurdan ibarət ip kimi Rəqaibin dəvəti ilə bütün könüllərin rəğbəti Haqqa olar. Məscidlər dolar. Qurani-Kərim oxunar. Rəsuli-Kibriyanın adı anılar və ona salavat gətirilər. Rəhmana yaxın olmaq üçün səcdələr edilər, rəhmət umular. Ruhlar unutduqları qibləni təkrar xatırlar və birləşər. Sanki istiqamətini və varlıq qayəsini xatırladan silkinmədir Rəqaib.

Rəcəb ayının ilk qəndili qəlbləri beləcə aydınladar. Evlərdə mənəvi iqlim hakim olar. Rəcəbin "Allahın ayı" olduğunu və Rəsulullahın Ramazandan sonra ən çox bu ayda oruc tutduğunu bilən möminlər oruca davam edərlər. Ruhlar incələr. Var olmağın və varlığın xırdalıqlarına hakim olmağa başlar.

Bəndə qəlbdən istədiyi zaman göylərin qapısı açılar. Artıq **merac** zamanıdır. Hz. Peyğəmbərin zamanın dayandırılması ilə Məkkədən Qüdsə, oradan da Haqqın hüzuruna getdiyi müqəddəs səfər günüdür. Möminin ürəyi fərəhlənər. Mömin bilir ki, Yaradanın hər şeyə gücü çatar. Səccadəsinə qapanar və göz yaşı ilə Allahın hüzuruna durar. Hər bir göz yaşı keçmişin ləkələrini silib təmizlər. Bol tövbə edilər. Kirlərdən arınan qəlbə bu məna iqlimində minlərlə toxum əkilər. Ruh sanki meraca çıxar. Bir çox aləm dolaşar.

Artıq **Şaban** ayı gəlmişdir. Oruc, namaz, Quran tilavəti ilə göylərin süfrəsindən qidalanmağa başlayan möminlər bu ibadətlərlə qəlbə əkdikləri toxumları böyüdərlər. Nəhayət, **Bərat**a nail olarlar. Bu ay Rəhbəri-bəşər olan Hz. Peyğəmbərin ayıdır. Bol salavat gətirilər. Şəfaət istənər.

Ardından ümmətin ayı olan **Ramazan** gələr. Əvvəli rəhmət, ortası məğfirət, sonu cəhənnəmdən qurtuluş olan Ramazan ayı. Bərəkət və sevinc bürüyər qəlbləri və qapıları. Sanki Rəcəbdə əkilən, Şabanda böyüdülən toxumlar rəhmət olub aram-aram yer üzünə yağar. Biçim mövsümünün sevinci bürüyər qəlbləri.

İbrahim BAZ

Nurlan MƏMMƏDZADƏ
nmemmedzade@mail.ru

SƏCDƏ ET, YAXINLAŞ!

Bizi yaradan Uca Mövlamız Qurani-Kərimdə buyurur: **"...Biz ona (insana) şah damarından da yaxınıq!"** (Qaf, 16). Hər halımızı görən, bizi eşidən, hətta söyləmədiyimiz halda qəlbimizdən keçirdiklərimizi belə duyaraq cavab verən Rəbbimiz bizim də Ona yaxın olmağımızı istəyir. Bəşər övladını peyğəmbərlər və ilahi kitablarla şərəfləndirməsinin başlıca səbəbi də məhz budur. İnsanın Allaha yaxınlığını artıran ibadətlərin başında heç şübhəsiz ki, namaz ibadəti gəlir. Həzrət Peyğəmbər namaz üçün **"gözümün nuru"** ifadəsini işlətmiş və son nəfəsini verərkən də ümmətinə namaza həssas yanaşmalarını tövsiyə etmişdir. Namazın ən şirin anı isə bəndənin bütün səmimiyyəti ilə heçliyini ortaya qoyduğu **səcdə** anıdır.

Səcdə insanın Rəbbini tanımasıdır. Ona boyun əyib əmrlərinə itaətin bir təzahürüdür. Allah-Təala iman gətirənlərdən hər gün beş dəfə namaz qılmağı tələb edir. Namazda ən çox edilən hərəkətsə səcdədir. Hər rükətdə iki dəfə səcdə edirik. Həqiqi səcdələrlə nəfs boyunduruğundan xilas olaraq ilahi təzimdə

hürriyyətə qovuşuruq əslində. Səcdə; "Allahım, Sənin hüzurunda mən bir heçəm, Sənin əzəmətin qarşısında kiçik bir yumaqdan fərqli deyiləm. Sən kibriya sifətinə malik Uca Rəbbim, mənsə Sənin aciz qulunam",- deyə bilməkdir.

Həzrət Peyğəmbər (s.ə.s) insanın Allaha ən yaxın anının səcdə olduğunu belə xəbər verir: *"Qulun Rəbbinə ən yaxın olduğu an səcdədir. Elə isə səcdədə duanı artırın"* (Müslim). Bu hədisi-şərif bir mənada da Allahdan uzaq qalan insanlara Ona yaxınlaşma yolunu göstərir. Çünki insanın həqiqi şərəfi Rəbbinə yaxınlığı nisbətindədir. Əshabi-kiramdan Rəbia ibn Kəb əl-Əsləmi belə rəvayət edir:

"Bir gün Rəsulullah (s.ə.s) ilə gecələmişdik. Ona dəstəmaz alacağı suyu və ehtiyac duyduğu digər əşyaları gətirdim. Mənə belə buyurdu:

- Ürəyindən nə keçirsə, mənə söylə! Mən:

- Ey Allahın Rəsulu, izin ver, bir az fikirləşim, sonra deyim,- söyləyərək möhlət istədim. Öz-özümə fikirləşdim və dünya həyatının keçici olduğunu, bu dünyada Rəbbimin ruzimi verəcəyini düşünərək Həzrət Peyğəmbərdən axirətlə bağlı bir şey istəməyə qərar verdim. Sonra Rəsulullahın hüzuruna çıxdım, məndən nə qərara gəldiyimi soruşduqda belə dedim:

- Ey Allahın Rəsulu, cəhənnəmdən xilas olmam üçün mənə şəfaət etməyini istəyirəm. Rəsulullah (s.ə.s):

- Ey Rəbia, bunu sənə kim öyrətdi,- deyə soruşdu. Belə cavab verdim:

- Səni Haqq ilə göndərən Allaha and olsun ki, heç kim öyrətmədi. Sən "ürəyindən keçəni istə" dediyin zaman Allahın Peyğəmbəri olduğunu, Onun qatındakı dərəcəni düşünərək "dünya həyatı fanidir, yaradan özü bu dünyadakı ruzimi verər, yaxşısı budur ki, mən Rəsulullahdan axirətimi istəyim",- deyə bu qərara gəldim. Rəsulullah (s.ə.s) bir az sükut etdikdən sonra belə buyurdu:

- Bu dediyini qəbul edirəm, ancaq sən də çox səcdə edərək mənə kömək etməlisən!" (Əhməd b. Hənbəl, Təbərani)

Həqiqi səcdələrlə nəfs boyunduruğundan xilas olaraq ilahi təzimdə hürriyyətə qovuşuruq əslində. Səcdə; "Allahım, Sənin hüzurunda mən bir heçəm, Sənin əzəmətin qarşısında kiçik bir yumaqdan fərqli deyiləm. Sən kibriya sifətinə malik Uca Rəbbim, mənsə Sənin aciz qulunam",- deyə bilməkdir.

Rəsulullah (s.ə.s) bu hədisi-şərifdə Allaha yaxınlaşmağın və cənnətin yolunun səcdədən keçdiyini açıq şəkildə bildirmişdir. Qurani-Kərimdə də insanın səcdə ilə Allaha yaxınlaşa biləcəyi belə bəyan edilir: **"Sən ancaq (Rəbbinə) səcdə et və (Ona) yaxınlaş!"** (əl-Ələq, 19)

İslam mədəniyyətində "üç aylar" adlandırılan və 365 günlük bir il ərzində xüsusi yeri olan mübarək mövsümün astanasındayıq. Məhz belə bir gözəl mövsümdə səcdələrimizi artıraraq Rəbbimizə bir az daha yaxınlaşmağa cəhd etməliyik. Çünki səcdə Onunla olmaq, Onu tanıyaraq səmimiyyətlə qapısının kandarına baş qoymaqdır. Səcdə etmək əslində Allahın yaratdığı dünyada qoymuş olduğu nizam-intizama könüllü olaraq riayət etməkdir. Bütün dünyadakıların Ona boyun əyməsini və bir növ yekdilliklə səcdəyə qapanmasını Haqq-Təala belə xəbər verir: **"Göylərdə və yerdə kim varsa, (özləri də), kölgələri də səhər-axşam istər-istəməz Allaha səcdə edər!"** (ər-Rad, 15)

Rüfət ŞİRİNOV
rufet_80@hotmail.com

NAMAZ AŞİQİ PEYĞƏMBƏR VƏ BİZ

"Namaz qılan yaşlını sevirəm,
ancaq namaz qılan gəncə aşiqəm"
(Hz. Ömər r.a)

Namaz Cənnətdən yer üzünə göndərilən və Bəni-Adəmi təkrar səmaya çıxaran bir meracdır (Allaha yüksəlmədir). Namaz günahlardan təmizlənmə və yüksəlmə aşırımıdır. İnsan oğlu Allahın hüzuruna onunla yüksəlir. Ən gözəl şəkildə əda edilən namaz, saleh və xoşbəxt yuvanın qıfılını açan sehrli bir açardır. Namazsız din nöqsandır. Namazsız müsəlman sütunları olmayan bina kimidir. Çünki namaz dinin dirəyi, müsəlmanlığın özəyidir. Deməli, namaz olmadan səadət, xoşbəxtlik, hüzur və mənəviyyat nöqsandır. Namaz müsəlman olmanın gərəyidir. Çünki insan ibadət üçün yaradılıb. Çünki mən müsəlmanam deyən hər bir kəs Həzrət Muhammədin (s.ə.s) ümmətidir. Ümmət olmağın şərti namaz sevdalısı olmaqdır. Həyatını namaz əsasında tənzimləmək deməkdir. Çünki biz belə bir peyğəmbərin ümmətiyik. O, həyatının hər anını namaza görə tənzimləmiş, bir sözlə, namazla nəfəs alıb, namazla nəfəs vermişdir. Deməli, biz müsəlmanlara da onun namaz həyatı və namaz həssaslığı vazkeçilməz nümunədir. Namazın müəyyən ritullara həbs edildiyi günümüzdə hər bir müsəlman namazını yenidən nəzərdən keçirməlidir. Namazımıza Həzrət Peyğəmbərin onun əshabının həyəcanını qatmalıyıq. Həyatının son anında belə səhabələrinin köməyi ilə camaatla namaza iştirak etməsi onun son nəfəsində belə namazı düşündüyü və hər fürsətdə namazı əda etdiyini göstərir. Bəs biz son ölüm xəstəliyimizdə nəyi düşünəcəyik, görəsən?

Peyğəmbərimiz (s.ə.s) həyatının hər pilləsini misilsiz ibadəti ilə bəzəmişdir. O, gündüzlər dövlət, siyasət və din işləri ilə məşğul olur, gecələrini də ibadətlə keçirirdi. Əbu Hüreyrə (r.a) nəql edir: "Rəsulullah gecələr ayaqları şişənə qədər namaz qılardı. Ona: "Allah sənin keçmiş və gələcək bütün günahlarını əfv edib. Niyə özünə bu qədər əziyyət verirsən?" – sualı verilmiş, O da: "Allaha çox şükür edən qul olmayımmı?" (Buxari, Müslim) – deyə buyurmuşdu". Biz müsəlmanlar gecə səhərə qədər, ayaqları şişənə qədər namaz qılan Peyğəmbərin ümmətiyik. Onun (s.ə.s) məqsədi namazla Allaha daha da yaxınlaşmaq və onunla bərabər olmaqdı.

Həzrət Aişə belə rəvayət edir: Rəsulullah (s.ə.s) bizimlə söhbət edər, biz də onunla söhbət edər, dərdləşərdik. Ancaq

namaz vaxtı girincə sanki bizi tanımazdı. Bütün varlığı ilə Allaha yönələrdi. Hətta (s.ə.s), namaz qılarkən o qədər namazla həmhal olurdu ki, daxili dünyası belə ibadət eşqi və həyəcanı ilə qaynayırdı. Həzrət Aişədən gələn bir başqa rəvayətdə də belə buyurulur: Həzrət Peyğəmbər namaza durduğu zaman sinəsindən qazan qaynaması kimi səs gələrdi. (Əbu Davud)

Əsri-səadətdə doğulan ulduzlar olan, Peyğəmbərin (s.ə.s) səhabələri hamısı namaz qəhrəmanları idi. Çünki onların müəllimi peyğəmbər idi. Onlar elə namaz aşiqləri idilər ki, Bədir müharibəsində belə Rəsulullahın (s.ə.s) imamlığında növbələşərək namaz qılmışdılar. Onlar nəinki namazı tərk etməmiş, hətta onu camaatla əda etməyə can atmışlar.

Həzrət Əli (r.a) namaza durduğu zaman rəngi saralıb-solardı. Öz vücudu daxil, hər şeydən sıyrılardı. Bir müharibədə ayağına batan oxu öz arzusu ilə namaz əsnasında çıxarılmışdı və heç bir ağrı hiss etməmiş və bunun fərqində olmamışdı. Ona "Ya Əmirəl-Möminin! Namaz vaxtı çatınca nə üçün üzünüzün rəngi dəyişir və əsməyə başlayırsınız." –deyə soruşulduqda belə cavab vermişdi: " Yerin və göyün qaldıra bilmədiyi, dağların daşımaqdan imtina etdiyi əmanəti əda etmə vaxtı gəlmişdir. Onu qüsursuz şəkildə yerinə yetirə biləcəyəmmi, bilmirəm." Nə ülvi bir qorxu və sevgi. Namazın və digər ibadətlərin fərqində olmağın nəticəsidir bu anlayış.

Həzrət Peyğəmbərin namaz sevdası və həssaslığı nəvələrinin də həyatında əsas meyarlardan biri idi. Həzrət Həsənin (r.a) rəngi dəstəmaz alma əsnasında dəyişərdi. Onu bu halda görənlər "Ey Həsən! Dəstəmaz alarkən nə üçün rəngin saralıb-solur?" –deyə soruşduqda bu cavabı verərdi: "Yeganə qüdrət sahibi əziz və cəlil olan Allahın hüzuruna çıxma vaxtı yaxınlışıbdır. Ona görə". Əlbəttə belə misalları səhifələrlə sıralamaq olar.

Ey bizlər! Bizim namazlarımız və namaz sevgimiz bu nümunələrin harasında yer alır. Axirətdə ilk sorğuya çəkiləcək əməlimiz olan namazlarımızın cavabını verməyə nə qədər hazırıq? Gecələrimizin nə qədərini namaza ayırırıq? Heç namaz qılarkən ayaqlarımız şişirmi? İşimiz daha önəmlidir, yoxsa namazımız? Bu sualların cavabı hər kəsin daxilində gizlidir. Bu sualların cavabı bizi narahat edir, yoxsa sevindirir.

Son sözümüz Qurani-Kərimdəki xəbərdarlıq olsun və gəlin düşünək, namazlarımızı bir daha nəzərdən keçirək: "**Vay halına o namaz qılanların ki, Onlar öz namazlarından qafildirlər (səhlənkarlıqları üzündən namazlarını vaxtlı-vaxtında qılmazlar); Onlar (namazlarında) riyakarlıq edər.** (əl-Maun, 4-5-6)

İlham SOVQATOV
ilhamsovqatov@mail.ru

NAMAZIN SOSİAL FAYDALARI

Amerikalı bir nəfər müsəlman ərəbə deyir:

- Müsəlmanlar necə də natəmizdirlər.

Ərəb ondan soruşur:

- Sən gündə üzünü neçə dəfə yuyursan?

Amerikalı:

- Gündə iki dəfə. Səhər və axşam yuyuram,- deyə cavab verir.

Müsəlman isə belə deyir:

- Mən gündə ayaqlarımı beş dəfə yuyuram. Deməli, mənim ayaqlarım sənin üzündən təmizdir.

Bu kiçik dialoq namazın insana nə qədər faydalı olduğunu bir daha sübut edir. Namaz təkcə insanların fərdi həyatlarına təsir etməklə qalmır, ictimai-sosial yöndən də bir çox faydaları mövcuddur. Namazın faydalarını sadalamaqla bitirmək olmaz. İslam dinindəki fərziyyətini nəzərə almadan sosial həyatda hansı faydaların olduğunu müşahidə edəndə namazın misilsiz xeyrinin, cəmiyyət üçün nə qədər əhəmiyyətli bir amil olduğunun şahidi oluruq. Bu gün insanlara ağır gələn namaz əksinə həyatı yüngülləşdirən bir ibadətdir. Bu gün insanların uzaq qaldığı və ya tənbəl-tənbəl yanaşdığımız namaz bizə elə hüzur verir ki, bu nə bir məqaləyə, nə də bir kitaba sığışar. İctimai yöndən müşahidə aparanda namaz qılanın aşağıdakı vəsfləri ortaya çıxır. Həqiqi namaz qılanlar belə olur:

Namaz qılan adam insanlar arasında etibar sahibi olur. Namaz qılan adamın təmizliyə riayəti həm şəxsi həyatında, həm də cəmiyyət içində böyük əhəmiyyətə səbəb olur. Namaz qılan adamın üst-başı təmiz olur. Hər gün beş dəfə dəstəmaz və təmizliyə riayət etməsi insanlar tərəfindən rəğbətlə qarşılanır. Təmizlik cəmiyyət üçün ən öndə gələn prinsiplərdəndir.

Namaz qılan adamın sözü düz, əməli saleh olur. İnsanlar tərəfindən hörmət edilir, ona rəğbət bəslənir. Günahlardan uzaq, təmiz həyat yaşamağa üstünlük verir. Ən əsası Allahdan qorxur. Riyakarlıqdan, ikiüzlülükdən uzaq olur. Həqiqi namaz qılanın həm daxili, həm zahiri birdir. Namazını məsciddə insanlar görsün deyə qılmaz. İnsanlar nümunə götürsün deyə qılır. Camaata tez-tez qatılır. Onlarla həmhal

olur. Cəmiyyətə faydalı bir vətəndaş olmağı hədəfə alır.

Namaz qılan adam təkcə özünü düşünmür. Qonşusu ac, özü tox yatmır. Bişirdiyi yeməklərin qoxusu ilə qonşusuna əziyyət etmir. Ocağında bişdiyi təamlardan qonşusuna da ikram edir. Qonşusunu televiziyanın və başqa cihazların səsi ilə narahat etmir. Mal-qaranı, qoyun-quzusunu, toyuq-cücəsini qonşusunun bağına salmır. Qonşusunun həyətindən icazəsiz bir şey götürmür. Qonşusu qapısına gəldiyi zaman əliboş geri çevirmir. Ən əsası da qapısının önünə zibil atmır. Torpağını zəbt etmir.

Namaz qılan adamın sözündə yalan olmur. Yalan danışmaq onun əməlinə tərs düşür. Hər zaman hər yerdə düzü və haqqı deyir. Haqqı müdafiə edir, haqqı və səbri tövsiyə edir. Haqsızlığa məruz qaldığı zaman belə yenə haqsızlığa əl atmır. Əleyhinə belə olsa, yalan danışmır.

Namaz qılan adam mərhəmətli olur. Qəlbində kin-küdürət, paxıllıq, həsəd olmur. İnsanlara sevgi nəzərilə baxır. Onların dərdlərinə, sevinclərinə şərik olur. Qohum-əqrəba münasibətlərinə riayət edir. Xəstələri ziyarət edir. Əlindən gəldiyi qədər möhtaclara, yetimlərə, kimsəsizlərə əl uzadır. Üç gündən artıq heç kimlə küsülü qalmır. Heç vaxt haqsız yerə mübahisələr, fitnə çıxaracaq əməllərlə insanları narahat etmir.

Namaz qılan adam heç kimin arxasından qeybət etmir. Dedi-qodu, söz aparıb-gətirmək kimi cəmiyyətin arasına xaos salan əməllərdən uzaq durur. İnsanlara lağ edib onların eybini ortaya çıxartmır. Sözünün üstündə durur. Əmanətə xəyanət etmir. Münafiqlik edib cəmiyyətin rifahını pozmur.

Namaz qılan adam ata-ana haqqına riayət edir. Onlara əziyyət etmir. Onların bir sözünü iki eləmir. Daim onlara itaət edib onların xidmətində dayanır. Onlara sağlığında dəyər verir.

Namaz qılan adam vətənini, torpağını, dövlətini sevən olur. Vətən üçün, torpaq üçün vuruşur, şəhidlik dərəcəsinə qovuşmaq üçün can atır. Əmin-amanlığın, asayişin tərəfdarı olur.

Namaz qılan adam heç kimə əziyyət etmir. Heç kəsə zülm edərək insanların ahına bais olmur. Yetimin malına əl qoymur. Faiz verib faiz almır. Uşaqlarının boğazından haram tikə keçirmir.

Namaz qılan adam rüşvət vermir, rüşvət almır. Vəzifə, məqam düşkünü olmur. Mövqeyindən, vəzifəsindən ötrü kiməsə yaltaqlanmır. Öz halal zəhməti ilə çörək qazanır. Qazancına haram qatmır.

Namaz qılan bir ticarətçi heç bir zaman tərəzidə, ölçüdə naqis çəkmir. Alanda artıq, satanda əskik ölçmür. Malının pisini altda, yaxşısını üzdə qoyub insanları aldatmır. Malı satılsın deyə, malının keyfiyyətli olduğunu isbat etsin deyə yalandan and içib insanları öz yalanlarına inandırmır.

Namaz qılan adam heç kimin namusuna dil uzatmır. Bilmədiyi məsələ barəsində boş-boş danışmır. Heç kimə iftira, böhtan atmır. Başqaları haqqında həmişə hüsnüzənn sahibi olur.

Namaz qılan adam haqsızlıqla qarşılaşdığı zaman əli ilə (yəni gücü və qüdrətinə görə) aradan götürür. Buna gücü çatmasa dil ilə nəsihət edir. Buna da gücü çatmasa qəlbində nifrət edir. Daima cəmiyyətdə nümunəvi şəxsiyyət olur.

Namaz qılanın əxlaqı gözəl olur. Tərbiyəli, nizam-intizamlı olur. Övladlarına gözəl tərbiyə verir. Heç bir zaman əxlaqsızlığa, ədəbsizliyə yol vermir.

Bəli, dəyərli qardaşlarımız! Bütün bunlar bir namaz qılan adamda olması gərəkən xüsusiyyətlərdir. İnsanların nəzərində namaz qılan belə olur. Həqiqətən də cəmiyyət üçün bu cür namaz qılanlar lazımdır. Sosial həyatın inkişafında bu cür namaz qılanların sayı nə qədər artarsa, o qədər faydası çox olar.

Anar RÜSTƏMOV

MERACA BƏRABƏR NAMAZ

"***Bəzi ayələrimizi (qüdrətimizə dəlalət edən qəribəlikləri və əcaiblikləri) göstərmək üçün bəndəsini (Peyğəmbər əleyhissəlamı) bir gecə (Məkkədəki) Məscidülhərəmdən ətrafını mübarək etdiyimiz (bərəkət verdiyimiz) Məscidüləqsaya (Beytülmüqəddəsə) aparan Allah pak və müqəddəsdir. O, doğrudan da, (hər şeyi) eşidəndir, görəndir!***" (əl-İsra, 17/1)

Mənsubu olduğumuz İslamın yüzlərlə əmr və qadağası vardır. Bu əmr və qadağaları ya Qurani-Kərimdən, ya da İslam Peyğəmbərinin hədislərindən öyrənirik. Rəsuli-Əkrəm ona nazil olan ilahi vəhyi səhabələrinə və bütün bəşəriyyətə təbliğ etmişdir. Demək ki, biz Hz. Peyğəmbərə lövhi-məhfuzdan endirildikdən sonra insanlara dünya həyatında bildirilən əmr və qadağalara riayət edirik. Ancaq iki şey Peyğəmbərə dünya həyatında deyil, məhz meracda verilmişdir. Belə ki, Allahın Rəsulu "Bəqərə" surəsinin 285-286-cı ayələrini və namazın fərz olduğunu öyrənməsi üçün meraca – Allahın hüzuruna, Sidrətül-müntəhaya aparılmış, Cəbrayıl əleyhissəlamın belə daha irəli getməsinə icazə verilməyən məkana qədəm basmışdır. Quranın bütün ayələri dünya həyatında ikən Peyğəmbərə nazil olmuş, yalnız sözügedən iki ayəni "alması" və namaz əmri üçün meraca çıxarılmışdır.

Əgər Peyğəmbərimiz: "Mən bu gecə meraca çıxarıldım, Rəbbimin məqamına yaxınlaşdım, onunla danışdım və Allah ümmətimə orada mənə namazı əmr etdi", - deyirsə, bir möminin Peyğəmbərin söylədikləri haqda düşünməsi, namazla digər ibadətlər arasındakı fərqi qavramağa çalışması gərəkdir. Axı oruc və həcc kimi ibadətlər Peyğəmbərə Mədinədə ikən əmr edildiyi halda: "Ya peyğəmbər! Namaz sənin ümmətinə fərz qılındı!" - əmrinin bildirilməsi üçün sonuncu elçi Allahın hüzuruna çağrıldı. Peyğəmbərə orada cənnət və cəhənnəm göstərilərək: "Ümmətinin aqibəti buradır", - deyildi, həmçinin, o, ruhlar aləmində özündən əvvəlki peyğəmbərlərlə görüşdü. Allahın rəsuluna və ümmətinə belə demək mümkünsə, böyük bir mərasimdən sonra gündəlik beş vaxt namaz əmr edildi.

Allahın Rəsulu merac hadisəsinin namazın əmr edilməsi ilə nəticələnməsindən bəhs edərkən: "Mən meraca çıxarıldım. Meracdan qayıdarkən isə ümmətimə namaz fərz qılındı. Deməli, ümmətimin meracı namazdır", - buyurmuşdur.

Peyğəmbərimiz bizim şərh və izah edə bilməyəcəyimiz şəkildə Allahın hüzuruna aparıldı və Uca Yaradan sonuncu Elçisi ilə danışdı. Həmin danışığın mətnini biz hər namazda təşəhhüd kimi oxuyuruq. Peyğəmbər Sidrətül-müntəhaya əmisi Əbu Talib, zövcəsi Xədicə vəfat etdikdən, böyük maddi və mənəvi sıxıntılarla üzləşdikdən, səhabələrinin böyük əksəriyyətini hicrətə göndərməli olduqdan və Məkkə artıq onun üçün dar bir qəfəsə çevrildikdən dərhal sonra çıxarıldı. Uca Yaradan Öz peyğəmbərini təsəlli edərək geri göndərdi. Bəli, merac budur. Daha sonra ümmətinin meracı sayılacaq namazı verdikdə ilk müsəlmanlar həm də sıxıntıdan namaz sayəsində qurtula biləcəyini dərk etdilər. Axı Hz. Peyğəmbər ümmətinin meracının namaz olduğunu buyurmuşdu. Dolayısı ilə namaz bəndənin Rəbbi ilə birbaşa görüşməsidir və buna görə də sözün tam mənası ilə meracdır.

Namaz meracdır. Möminin bunu unutmaması, namaza bu prizmadan baxması üçün Quranın bütün ayələri Məkkə və Mədinədə nazil olduğu halda namaz Peyğəmbərə meracda ikən əmr olundu. Bu səbəbdən, Peyğəmbərin sünnəsinə tabe olan, gündə beş vaxt xüşu ilə namaz qılan müsəlman merac ab-havasını tənəffüs edə bilər. Buna müvəffəq olan mömin Peyğəmbərin hisslərinə oxşar hisslər keçicərəkdir.

Bu səbəbdən, namaz qılmağa hazırlaşarkən – dəstəmaz alarkən, qibləyə yönələrkən, səccadəni açarkən: "Adi bir ibadəti yerinə yetirirəm", - kimi primitiv düşüncədən xilas olmalıyıq. Namaz üç şüarın arxasında yaşamalıdır:

1. Hər namaz bir meracdır. Səcdəyə getmək Allahla baş-başa qalmaq deməkdir. Namaz Peyğəmbərin meracdan qayıdarkən dərdlərindən sıyrılması kimi möminin dərdlərinin azaldığı bir ibadətdir. Bu mənada namaz bir məlhəmdir.

2. Hər namaz hökmən cənnətin qapısını bir qədər də aralayan açardır. Çünki Allah qiyamət günü mömin qullarını hüzuruna qəbul etdikdə soruşacağı ilk şey namazdır. Namaz imtahanından üzüağ çıxan kəsin digər əməllərindən imtahanını asanlıqla verəcəyi müjdələnmişdir. Merac keyfiyyətli namaz insanı digər haram işlərdən uzaqlaşdırar. Qar nə qədər yağarsa yağsın, günəşin qarşısında əriyib getdiyi kimi, bir nur və günəş olan namaz da günahları əridib yox edər. Məhz buna görə mömin qıldığı hər namazın merac və cənnətin açarı olduğunu düşünərək, qibləyə yönəlməlidir.

Namaz meracdır. Möminin bunu unutmaması, namaza bu prizmadan baxması üçün Quranın bütün ayələri Məkkə və Mədinədə nazil olduğu halda namaz Peyğəmbərə meracda ikən əmr olundu. Bu səbəbdən, Peyğəmbərin sünnəsinə tabe olan, gündə beş vaxt xüşu ilə namaz qılan müsəlman merac ab-havasını tənəffüs edə bilər. Buna müvəffəq olan mömin Peyğəmbərin hisslərinə oxşar hisslər keçicərəkdir.

3. Hər namaz möminin son namazıdır. Mömin hər namazını sonuncu namazı olduğu düşüncəsi ilə qılmalıdır. Digər tərəfdən, vaxtında qılınmayan namazı savabı, fəziləti və məsuliyyəti baxımından qəza namazı əsla əvəz edə bilməz. Vaxtı çıxdıqdan sonra qılınan namaz qiyamət günü möminin qarşısına Uhud dağından daha ağır yük kimi gətirilər.

Düşünən və bəsirətli mömin qılmadığı hər namazı ilə əslində meracdan uzaqlaşdığını, Rəbbi ilə danışmağa getmədiyinin fərqinə varar. Namazdan qabaq təmizlik, dəstəmaz və qibləyə yönəlmək asandır. Çətin olan iş namaz şüurunu dərk etməkdir. "Meracımdır!" - deyə qibləyə yönələn dönən insanın namazı sonsuz üfüqdə üzən kosmik gəmiyə bənzəyər. Xüşu ilə namaz qılmaq səmaya nərdivansız yönəlmək deməkdir. Mömin ərköyünləşməyən, arxayınlığa qapılmayan, namaz eşqi bitib-tükənməyən insandır. 70 il namaz qılsa belə namaz qılmağa başladığı ilk günkü həyəcanını qoruyub saxlaya bilən insandır meracı arzulayan mömin. Uca Yaradan Öz kitabının ilk səhifəsində möminin tərifini verərkən: **"O kəslər ki, qeybə inanır, namaz qılır"**, (əl-Bəqərə, 3) - deyə buyurur. Bəli, mömin namaz qılan insandır.

Kamran BABAYEV*

SAĞLAM HƏYAT ÜÇÜN NAMAZ

Son zamanlar cəmiyyət üçün tibbi sosial problem olan zərərli vərdişlər və sosial dezadaptasiya nəticəsində gənc nəslin sağlamlığında pisləşməyə doğru meyil qeyd olunur ki, bu da onlarda funksional imkanların, dəyərli yaradıcılıq fəaliyyətinin azalması, hərbi xidmətə yararsızların və əlillərin sayının artmasına səbəb olur. Sosial dezadaptasiya gənclər arasında bir sıra xəstəliklərin – narkomaniya, toksikomaniya, QİÇS, dəri-zöhrəvi və s. xəstəliklərin yayılmasına şərait yaradır.

Zərərli vərdişlər nəticəsində yaranan xroniki intoksikasiya müxtəlif xəstəliklərin və zədələnmələrin inkişafının və vaxtındanqabaq əlilliyin, ölümün ən əsas səbəblərindən biri olur.

Məlumdur ki, tədricən formalaşdırılmış yüksək etiqad, dini ayinlərə doğru, düzgün riayət, orqanizmin qeyri-spesifik rezistentliyinin yüksəldici faktoru olmuşdur. Yəni orqanizmin müxtəlif zədələyici amillərin təsirinə qarşı müqavimətinin artırılması - reaktivliyin inkişaf etdirilməsi baxımından dini ayinlərin rolunun qiymətləndirilməsi aktuallıq kəsb edir.

Tədqiqat işinin əsas məqsədinə müvafiq olaraq, bu mənəvi təfəkkürə bağlı həyat tərzi keçirənlərin sağlamlıq göstəricilərinin gözlənilən səviyyədə qənaətbəxş olması ehtimalı ilə respondentlər-dini ayinlərə riayət edənlərlə etməyənlər arasında müqayisəli təhlilin aparılması ictimai sağlamlıq indeksini (İSİ) – sağlam və qeyri-sağlam həyat tərzi faktorlarının xüsusi çəkisini müəyyənləşdirməyə əsas verir.

ÜST (Ümumdünya Səhiyyə Təşkilatı) eksprtlərinin həyat tərzinin risk amilləri sırasına daxil etdikləri zərərli vərdişlər əhalinin sağlamlığına mənfi təsir göstərir. Anket cavablarında dini ayinlərin zərərli vərdişlərdən çəkinməyə təsirinin əks olunması bu amillər arasında asılılığın öyrənilməsini tələb edir (Cədvəl).

Dini ayinlərin icrası ilə zərərli vərdişlərdən çəkinmə arasında əlaqə

Zərərli vərdişlərdən çəkinmə	Dini ayinlərə riayətin tamlığı							
	Bəli		Hissəvi		Xeyr		Cəmi	
	Müt	P±m	Müt	P±m	Müt	P±m	Müt	%
Spirtli içkilər	32	12,5±2,1	19	16,1±3,4	1	8,3±8,0	52	13,5
Siqaret və spirtli içkilər	27	10,5±1,9	9	7,6±2,4	3	25±12,5	39	10,1
Təsadüfi cinsi əlaqə	15	5,9±1,5	5	4,2±1,9	0	0,0±0,0	20	5,2
Narkotik vasitələr	2	0,8±0,6	0	0,0±0,0	1	8,3±8,0	3	0,7
Hamısı	150	58,6±3,1	54	45,8±4,6	2	16,7±10,8	206	53,4
Heç biri	30	11,7±2,0	31	26,3±4,1	5	41,7±14,2	66	17,1
Cəmi %-lə	256	66,3±2,4	118	30,6±2,3	12	3,1±0,8	386	

Cədvəldə dini ayinlərə riayət etmə vəziyyətini qeyd edən 725 nəfərdən (97,1%) 386-sı (53,3%) zərərli vərdişlərdən çəkinmə vəziyyətini əks etdirmişdir. Zərərli vərdişlərdən çəkinənlər arasında dini ayinlərə tam riayət edənlər – 256 nəfər (66,3±2,4%), hissəvi riayət edənlər 118 nəfər (30,6±2,3%) və riayət etməyənlər 12 nəfər (3,1±0,8%) olmuşdur. Cədvəldən göründüyü kimi, zərərli vərdişlərdən çəkinməyə dini ayinlərə riayət etmə intensivliyinin nəzərəçarpacaq təsiri var.

Namaza başladıqdan sonra hansı zərərli vərdişlərdən çəkinmisiniz sualına respondentlərin cavabları belə olmuşdur: Namaza tam riayət edənlər (n=353) arasında spirtli içkilərdən çəkinənlərin payı (13,6±1,8), siqaret və spirtli içkilərdən çəkinmə (9,3±1,5), təsadüfi cinsi əlaqələrdən (5,9±1,3), narkotik vasitələrdən (0,6±0,4), hamısından (55,8±2,6) və digər zərərli meyllərdən çəkinmə (14,7±1,9) olmuşdur.

Namazı icra etməyənlərin hansı zərərli vərdişlərdən asılılığı öyrənilərkən sorğu cavablarından aşağıdakı nəticə çıxmışdır.

Belə ki, 21 nəfər (13,5±2,7) siqaretə, 10 nəfər (6,5±2,0) spirtli içkilərə, 5 nəfər (3,2±1,4) qeyri-qanuni cinsi münasibətlərə, 1 nəfər (0,6±0,6) narkotik vasitələrə, 100 nəfər (64,5±3,8) qeyd olunan zərərli vərdişlərin hamısına, 18 nəfər (11,6±2,6) digər zərərli vasitələrə aludə olduğunu göstərmişlər.

Mütləq rəqəmlərin (hər iki qrupda-namaz qılanlarla qılmayanlar) müqayisəsindən görünür ki, ayin olaraq namazın zərərli vərdişlərdən uzaqlaşdırmaqla sağlam həyat tərzi formalaşdırmada təsiri böyükdür. Bu da Quranda əks olunan ifadənin məntiqi doğruluğunu özündə əks etdirir:

"Həqiqətən, namaz (insanı) çirkin və yaramaz işlərdən çəkindirir" (əl-Ənkəbut, 45).

Yüksək iradə tələb edən namazın icrası ilə eyni zamanda həyat tərzində risk amili sayılan **hipodinamiyanın**, yəni aşağı fiziki aktivliyin profilaktik olaraq qarşısının alınmasını ehtimal etmək olar.

İnsanın fiziki aktivliyi (FA) mürəkkəb biososial hadisə olmaqla sağlamlıqla əlaqədar davranış kimi qeyd edilir.

Geniş anlayış kimi fiziki aktivlik – yalnız idmanla məşğuliyyət deyildir. Demək olar ki, əhalinin az bir qismi idmanla məşğul olur. Yəni bu fəaliyyət heç də bütün kütləni əhatə etmir. İdmançılar da məşqləri, yarışları gündəlik deyil, müəyyən zamanda icra edirlər. Halbuki fiziki aktivlik orqanizmin gündəlik tələbatıdır. Belə ki, orqanizmdə toplanmış qida enerjisinin sərfinin (piylənmənin qarşısının alınmasının) ən səmərəli, qənaətli üsulu əhalinin fiziki aktivliyinin artırılmasıdır. Digər tərəfdən texniki tərəqqi müasir insanın fiziki aktivliyini məhdudlaşdırmaqla "sivilizasiya xəstəlikləri"ni yaratmışdır.

Orta dərəcəli fiziki aktivliyin vaxtındanəvvəl ölüm riskini, həmçinin ürəyin işemiya xəstəliyinin və insultun, arterial hipertoniyanın, depressiyanın və II tip şəkərli diabetin inkişaf riskini azaltdığı qeyd olunur.

Həftədə 150 dəqiqədən 300 dəqiqəyədək (5 saat) davam edən məşğələ sağlamlıq üçün fayda verir: yoğun bağırsağın və süd vəzisinin inkişaf riskini, həmçinin artıq bədən çəkisinin yaranma riskini azaldır. Namazda müəyyən fiziki hərəkətlərin olması, gün ərzində icra edilən bu ayinin tərkib elementləri nəzərə alındıqda, təxminən yuxarıda idman üçün nəzərdə tutualn eyni həftəlik rəqəmi almaq mümkündür.

---

* ATU, İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası, tibb üzrə fəlsəfə doktoru

Müşfiq XƏLİLOV
muslimxalil@box.az



ŞEYTAN VƏ NAMAZ

Allaha ibadət etmək Yaradana olan sevgi və hörmətin ən yüksək dərəcəsidir. İslama görə, insana verilən ömür Allaha ibadət etmək üçün bir sərmayədir. Lakin şeytan müxtəlif yollarla insanları aldadır, namazı və digər ibadətləri ona tərk etdirməyə çalışır. O, hiylələri ilə möminləri həm Allah dərgahında qazancaqlarından məhrum etməyə, həm də Rəbbinə üsyana çağırır. Qurani-Kərimdə buyurulur: **"Ey iman gətirənlər! Şərab da (içki də), qumar da, bütlər də, fal oxları da Şeytan əməlindən olan murdar bir şeydir. Bunlardan çəkinin ki, bəlkə, nicat tapasınız! Şübhəsiz ki, Şeytan içki və qumarla aranıza ədavət və kin salmaqdan və namaz qılmaqdan ayırmaq istər. Artıq bu işə son qoyacaqsınızmı?". (əl-Maidə, 90-91)**

Ayədən də aydın olduğu kimi, şeytan insanı namazdan ayırmaq istəyər. Bunun üçün o, namaz qılan adamı daima izləyər, qəlbinə şüphə salaraq onu tutub saxlayar. Onu namazı vaxtında qılmaq fəzilətindən məhrum etməyə çalışar. Namazdan əvvəl oxunan azan və iqamə zamanı isə oradan müvəqqəti uzaqlaşar. Bunlar bitdikdən sonra yenidən insana yaxınlaşıb namazda ikən onun qəlbinə müxtəlif vəsvəsələr salmaqla yoldan çıxarmağa cəhd göstərər.

Allah Elçisinin (s.ə.s) həyatında bununla bağlı bəzi hadisələr baş vermiş və onlar hədislərlə dövrümüzədək gəlib çatmışdır. Məsələn, İbn Abbasdan (r.a) nəql edilmiş bir hədisə görə, şeytan bir gün Allahın izni ilə Rəsulullahın (s.ə.s) yanına gəlmiş və ona mömin namazda ikən hansı hiylələri işlətdiyini belə anlatmışdır: "Ey Muhammməd! İnsan namaz qılarkən onu tələsdirər, sağa-sola baxmasına çalışaram. Dediklərimi edərsə, üzünü oxşar, alnından öpərəm. Bundan sonra ona: "Sən namaza yaraşmaz bir iş gördün",- deyərək əhvalını pozaram. Ey

Muhammməd! Sən də yaxşı bilirsən ki, hər kim namazda tələsər, sağa-sola çox baxar və başqa şeyləri düşünərsə, namazdan qafil olar, Allah da onun namazını qəbul etməz.

Namaz camaatla qılınan zaman ona imamdan əvvəl rükuya və səcdəyə getməsini əmr edərəm. İmamdan əvvəl rükudan və səcdədən qaldırar, barmaqlarını şaqqıldatmasına çalışaram. Əgər o, namazda belə edərsə, Allahı deyil, məhz məni təsbih etmiş olar. Sonra adama "onu yadına sal, bunu xatırla",- deyərək səcdələrin və rükuların sayını unutduraram. Sonra burnuna üfürərəm, o də əllini ağzına tutmadan əsnəyərsə, ağzından içəri daxil olaram. Həmin şəxs də bizə itaət edər" (Buxari, Salət, 354).

Şeytan insanın ən qəddar, ən təhlükəli və ən qorxulu düşmənidir. O elə gizli düşməndir ki, insan həmişə onun hiyləsinə düşür. Allah-Təala Qurani Kərimdə bir çox ayələrdə açıq-aydın bildirib ki, şeytan insanın ən böyük düşmənidir. Bir ayədə belə buyurulur:

"Həqiqətən, Şeytan sizin düşmənizdir, onu (özünüzə) düşmən tutun. O özünə uyanları cəhənnəm əhli olmağa çağırır" (Fatir, 6).

Ayədə Allah-Təalanın aydın şəkildə "şeytanı özünüzə düşmən tutun!" əmrini görürük. Başqa bir ayədə belə buyurulur: **"Ey iman gətirənlər! Şeytanın yolunu tutub getməyin! Kim Şeytanın getdiyi yolla getsə, o, (insanlara) çirkin, pis işlər görməyi (zina etməyi, yalan danışmağı, başqalarına böhtan atmağı) əmr edər"** (ən-Nur, 21).

Şeytan çox hiyləgərdir və o, insanları zəif nöqtələrindən yapışaraq yoldan çıxarır. O, xüsusilə də müsəlmanlarla çox ehtiyatlı davranır və tədricən onu çaşdırmağa başlayır. Şeytan heç bir zaman müsəlmanı birbaşa küfrə sarı çağırmaz. O bilir ki, İslamdan küfrə getmək heç də asan deyil. Şeytan imanı güclü olan şəxsi belə günah işlər görməyə sövq etmir. O, imanlı şəxslə çox incə və ehtiyatlı hərəkət edir. O, mömin şəxsi daha çox halal, günah olmayan və eyni zamanda savabı da olmayan işlərə cəlb edir. Bu yolla o, mömini yavaş-yavaş ibadət və itaətlərə qarşı soyudur. Mömin şəxs mübah (savabı olmayan halal) şeylərdən çox istifadə etdikcə, artıq sünnəyə az riayət etməyə başlayır. Təbii haldır ki, sünnətə az riayət etdikdə, bəzi fərzlərə əməl etməkdə insan zəiflik göstərir.

"Ey Muhammməd! İnsan namaz qılarkən onu tələsdirər, sağa-sola baxmasına çalışaram. Dediklərimi edərsə, üzünü oxşar, alnından öpərəm. Bundan sonra ona: "Sən namaza yaraşmaz bir iş gördün",- deyərək əhvalını pozaram. Ey Muhammməd! Sən də yaxşı bilirsən ki, hər kim namazda tələsər, sağa-sola çox baxar və başqa şeyləri düşünərsə, namazdan qafil olar, Allah da onun namazını qəbul etməz.
Namaz camaatla qılınan zaman ona imamdan əvvəl rükuya və səcdəyə getməsini əmr edərəm. İmamdan əvvəl rükudan və səcdədən qaldırar, barmaqlarını şaqqıldatmasına çalışaram. Əgər o, namazda belə edərsə, Allahı deyil, məhz məni təsbih etmiş olar. Sonra adama "onu yadına sal, bunu xatırla",- deyərək səcdələrin və rükuların sayını unutduraram. Sonra burnuna üfürərəm, o də əllini ağzına tutmadan əsnəyərsə, ağzından içəri daxil olaram. Həmin şəxs də bizə itaət edər" (Buxari, Salət, 354).

Bütün bunlarla bərabər şeytanın hiyləsi zəifdir. O, ancaq iradəsi və imanı zəif insanlar üzərində təsirlidir. İxlaslı möminlər üzərində şeytanın heç bir təsiri yoxdur. Uca Allah buyurur:

"Həqiqətən, iman gətirib yalnız öz Rəbbinə təvəkkül edənlərin üzərində Şeytanın heç bir hökmü yoxdur! Şeytanın hökmü yalnız ona itaət edib Allaha şərik qoşanlar üzərindədir!" (ən-Nəhl, 99-100)

Dr. Ahmet Hamdi Yıldırım:

NAMAZSIZ VƏ MƏSCİDSİZ CƏMİYYƏTDƏ ASAYİŞ DƏ OLMAZ!

Ahmet Hamdi Yıldırım kimdir?

Dr. Ahmet Hamdi Yıldırım 1971-ci ildə İstanbulda doğulmuşdur. 1982-ci ildə orta məktəbi bitirdikdən sonra "Hayırseverler" Quran kursunda hafizlik etmişdir. 1990-94-cü illərdə Misir Şəriət və Qanun fakültəsi İslam şəriəti, Hənəfi məzhəbi şöbəsində tədris almış və oradan məzun olmuşdur. 1994-cü ildə Türkiyəyə qayıdan Dr. A. H. Yıldırım Sakarya Universitetinin İlahiyyat fakültəsində İslam Hüququ üzrə magistr təhsilinə başlamışdır. 1997-ci ildə "İslam Hüququnda Məhbusun İnsani Haqları" adlı elmi işini müdafiə edərək magistraturanı bitirmişdir. 2004-cü ildə Marmara Universitetinin İlahiyyat Fakültəsində İslam Hüququ fənni üzrə "İslam Hüququnda Xəstə Haqları" çalışması ilə doktor ünvanını almışdır. 1994-cü ildən bəri 20 ildir ki, Aziz Mahmud Hudayi Vəqfinin Elmi Araşdırmalar Mərkəzində həm xidmət göstərir, həm də elmi çalışmalarını davam etdirir. Ailəlidir, üç övladı var.

- Bildiyimiz kimi, namaz dinimizdə önəmli yer tutur. Bir cəmiyyət üçün namaz nə qədər əhəmiyyət kəsb edir?

- Hz. Peyğəmbərimiz (s.ə.s) namazı dinin dirəyi olaraq tərif edir. Bundan əlavə din cəmiyyət üçün nə qədər əhəmiyyətlidirsə, onun ayrılmaz parçası olan namaz da çox əhəmiyyət daşıyır. Namazın olmadığı cəmiyyətdə birlik, bərabərlik, hüzur və əmin-amanlıq olmaz.

Çünki Allah-Təala Qurani-Kərimdə: "**Həqiqətən, namaz (insanı) çirkin və pis əməllərdən çəkindirər**" (Ənkəbut, 45)- deyə buyurur. Demək ki, cəmiyyətin rifaha qovuşması, cinayətdən uzaq, hüzurun, sakitliyin və əmin-amanlığın olması üçün namaz vacibdir. Namaz qılan bir cəmiyyət çirkinliyin, pis əməllərin və günahların olmadığı bir cəmiyyətdir. Ancaq namazın da namaz kimi qılınması lazımdır. Bu gün həm namaz qılıb, həm də -Allah qorusun- pis əməllərlə məşğul olanlara baxaraq, bu necə namazdır deyib namazı tənqid etmək qeyri-mümkündür. Belə namaz Quranda bəhs olunan namaz deyil.

İslam cəmiyyəti namaza görə formalaşan bir cəmiyyətdir. Bizim şəhər memarlığımızda şəhərin mərkəzində, qəlbində məscid vardır. Məscidin ətrafında şəhər salınır və yenə əcdadımızdan gördüyümüzə görə, məktəb, mədrəsə, kitabxana, xəstəxana, bazar kimi mədəniyyətin ayrılmaz ünsürləri daima məscidin ətrafında inşa edilirdi. Hz. Ömər (r.ə) Kufə şəhərinin planını çəkərkən mərkəzə məscidi qoymuş və məscidlə paralel kəsişən küçələr hazırlamışdır. Deməli, namaz və namazın əda edildiyi məscidlər bizim üçün həyatın bir parçasıdır, cəmiyyətin ayrılmaz hissəsidir. Namazın, məscidin olmadığı cəmiyyətdə əmin-amanlığın, asayişin hakim olması qeyri-mümkündür.

- Yeri gəlmişkən, bəhs etdiyiniz cəmiyyətin formalaşması üçün camaatla namazın əhəmiyyəti nə dərəcədədir?

- Dinimiz namazı camaatla qılmağı əmr edir. Namazı camaatla qılmaq üç məzhəbə görə fərz, Hənəfi məzhəbinə görə isə fərzə yaxın sünnədir. Və fiqh metodologiyası kitablarımıza baxdığımız zaman "**Ədayi-kamil**" deyə namazın camaatla qılınması qeyd edilir. Camaatla qılınmayan namaz naqis, əskik hesab edilir. Bundan əlavə, namazın kamil mənada olması ancaq camaatla mümkündür. Əgər məscidə gedə bilmiriksə, məktəbdə, iş yerində, bazarda, evdə mütləq camaatla qılmağa səy göstərmək lazımdır. Çünki bu din camaatla, toplu şəkildə yaşanan bir dindir. Cəmiyyətin dinə olan ehtiyacı dinin cəmiyyətə olan ehtiyacından daha çoxdur. Digər bir xüsus, həftədə bir dəfə qıldığımız cümə namazıdır. Cümə namazı müsəlman birliyinin ayrılmaz hissəsidir. Həftədə bir dəfə xalqın problemlərinin müzakirə edildiyi bir namazdır. Bu baxımdan da namaz cəmiyyət üçün sığorta hökmündədir. Məscid də həmçinin elədir. Məscidi və namazı olmayan bir cəmiyyətin sığortası yoxdur deməkdir.

İslam cəmiyyəti namaza görə formalaşan bir cəmiyyətdir. Bizim şəhər memarlığımızda şəhərin mərkəzində, qəlbində məscid vardır. Məscidin ətrafında şəhər salınır və yenə əcdadımızdan gördüyümüzə görə, məktəb, mədrəsə, kitabxana, xəstəxana, bazar kimi mədəniyyətin ayrılmaz ünsürləri daima məscidin ətrafında inşa edilirdi.

- Namazlarımızın Peyğəmbərimizin namazına oxşaması üçün hansı xüsuslara diqqət etməliyik?

- Önəmli məsələdir. Peyğəmbərimiz (s.ə.s): "*Mən necə namaz qılıramsa, siz də elə namaz qılın*",- deyə buyurur. Demək ki, Peyğəmbərimiz (s.ə.s) bizdən namazlarımızı onun namazına oxşatmağımızı istəyir. Bu oşxama sadəcə şəkildən ibarət olmamalıdır. Eyni zamanda ehtiva yönündən də Peyğəmbərimizin namazına oxşatmaq lazımdır. Burada əsas şeyi

unutmamaq lazımdır ki, bir müsəlman Peyğəmbərimiz kimi nə zaman namaz qıla bilər? Həyatını onun həyatına görə tənzim edəndən sonra o namazın dadını, ləzzətini, o namazın verəcəyi həzzini axtarar. Yəni tələm-tələsik, diqqətsizcə əda edilən bir namazdan xüşu və hüzur gözlənilməz. Peyğəmbərimiz: "*Gözümün nuru namazdır*" - deyə buyurmuşdur. Yəni "həyatda dad aldığım, həzz aldığım, məni rahatladan şey namazdır" buyurur. Və yenə canı sıxılanda namaza tələsdiyini görürük. Səhabələr rəvayət edirlər ki, Peyğəmbərimiz (s.ə.s) sıxılanda namaza durardı. Niyə? Çünki namaz dünya tələşından sıyrılma və axirət həyatı ilə həmhal olma halıdır. Buna görə də Peyğəmbərimizin namazına çatmaq üçün Quranla həmhal olmaq lazımdır. Hz. Aişənin (r.a) dediyi kimi, Onun əxlaqı Qurandı. Ayrıca həyatı namaza görə nizamlamaq lazımdır.

- Bəziləri namazla bağlı sırf zahiri hökmlərə ciddi riayət edir və işin batinini unudur. Bəziləri isə "əsas olan Allahın hüzuruna durmaqdır" deyib namazla bağlı fiqhi hökmlərə laqeyd yanaşır. Bir müsəlmanın bu xüsusda bağlı qalacağı ölçü necə olmalıdır?

- Bizim zahirdə də, batində də rəhbərimiz Peyğəmbərimizdir (s.ə.s). Bundan əlavə, O bizə nəyi əmr etmişsə, bu zahir-batin fərqi qoymadan yerinə yetirməliyik. Bir dəfə səhabələrdən biri gəlib namaz qılır. Onun namazı Peyğəmbərimizin diqqətindən yayınmır və onun zahirdəki əskik əməllərini göstərərək namazı yenidən qılmasını tapşırır. Çünki zahir batinin güzgüsüdür. Daxili xarab olanın çölü də xarabdır. Bir adamın daxili pisdirsə, zahiri də pisdir. Zahiri yaxşıdırsa, daxili də yaxşıdır. Siz bir nəfərin xüşu və hüzur ilə namaz qılıb-qılmadığını onun zahiri namaz qılınışından başa düşərsiniz. Müfəssir Mövdudi deyir: "*Fiqh namazda dəstəmazı incələyər. Qibləyə dönüb-dönməməyinə baxar. Ancaq sənin daxili aləminin Allaha dönüb-dönmədiyinə təsəvvüf baxar*". Namazdan sonra biz əllərimizi qaldırıb Allaha dua edirik: "Ya Rəbbi, bu namazı axirətdə köhnə əski kimi üzümüzə çırpma". Bəlkə zahirən dəstəmaz almışıq, paltarımızda bir pislik yoxdur, ancaq qəlbimizdə nöqsan ola bilər. Bundan əlavə, namazın zahiri şərtləri mükəmməl yerinə yetiriləcək, həm də batini şərtləri dediyimiz qəlb tamamilə Allaha yönələcək. Başqa şeyləri qəlbdən keçirmədən, Allahın hüzurunda olduğumuzun fərqinə vararaq qılınan namaz namaz olar və bu namaz insanı hər cür pis əməllərdən çəkindirər.

- İnsanların həyat tərzinin dəyişməsi ilə namaza olan diqqət də azaldı. Nədənsə insanlar işlərinin çoxluğunu dilə gətirərək namaza vaxt qalmadığını deyirlər. Bəllidir ki, namaz ağır gəlir. Bir müsəlman namazın ağır gəlməməsi üçün nələrə diqqət etməlidir? Yaxud da onun həyatında namazın ayrılmaz bir hissəyə çevrilməsinə hansı yollarla nail olmalıdır?

- Əvvəlcə, bir müsəlman dünyaya nə üçün gəldiyinin şüurunda olmalıdır. Yəni kəlmeyi-şəhadətdə "əşhədu ən lə ilahə illəllah və əşhədu ənnə Muhammədən əbduhu və rəsuluhu"- deyirik. Yəni Peyğəmbərimizin ilk vəsfi "əbduhu"dur. O, ilk olaraq Allahın quludur. Rəsul olmaq ikinci gələn xüsusiyyətidir. Biz bu kainata Allahın qulu olaraq gəlmişik. Allahın bəndəsi olaraq bu kainatda varıq. Buna görə də bir kölənin, bir qulun boynuna düşən ağasının rizasına nail olmaqdır. Nə etsəm, Allah məndən razı olar? Allah məndən nə istəyir? - deyə buna diqqət etməliyik. Biz təəssüf ki, cildi dağılmış kitab kimiyik. Xoşbəxtlik Allaha qul olmaqdadır. Allaha qul olmaq deyincə bəziləri "mən azadam" deyə qiyamət qoparmasın. Anadolunun məşhur müfəssiri Elmalılı Hamdi deyir: "Kamali-hürriyyət kamali-ubudiyyətlə mümkündür". Yəni bir adam heç kimin

qulu olmadan tam azad olmaq istəyirsə, Allaha qul olacaq. Yoxsa bir qadının, malın, sərvətin, məqamın köləsi olacaqdır. Qul ola-ola gedəcəkdir. Amma azadə olmaq istəyirsə, onda Allaha qul olacaq. Allahın rizasını əldə etmək üçün səy göstərəcək. Onun rizası yanında hər şeyin rizası yox hökmündədir. Bir müsəlman dünyada varlıq səbəbini, Allaha qul olmağı dərk edibsə, məsələ həll edilmişdir. Onun başqa bir şeylə məşğul olmasına ehtiyac yoxdur. İbn Xaldun deyirdi: "Siyasət insanların axirət həyatlarını qurtarmaq üçün dünya həyatlarını tənzim etməsidir". Bizim ən başlıca məqsədimiz Allahın rizasıdır. "Mən belə etsəm, ziyana düşərəm"- deyə qorxmaq lazım deyil. Əlbəttə, dünyada ziyana düşərsən, ancaq axirətdə kar əldə edərsən. Amma dünyada kar əldə etmiş kimi Görünsəmdə, axirətdə ziyana düşə bilərsən.

Bəzən təəssüflər olsun ki, cahillik səbəbilə deyirlər ki, biz elm cihadı edirik. Bəs namaz? Allah namaz üçün hər şeyi əmr edir. Sənin namazın olmadıqdan sonra sənin cihadının nə qiyməti var? Tarixdə bir hadisə rəvayət edilir. Hz. Ömər bir ordu göndərir, ancaq silahlar gecikir. Hz. Ömər də "Niyə silahlar gecikir?" deyə soruşanda komandir cavab verir: "Silahlar nə isə, əsgərlərin misvakı qurtarıb. Sünnəni yaşaya bilmirlər". Dərhal silah yerinə misvak sövq edilir. Nəyə görə? Önəmli olan sənin Peyğəmbərin sünnəsini yaşaya bilməndir. Onun sünnəsini, onun dinini yaşatmadıqdan sonra ərazi fəth etməyin, torpaq genişləndirməyin nə qiyməti var? Hər halımız Allaha ibadət və Allahın rizasına görə formalaşmalıdır. Belə olsa, namaz insana rahat gələr və namazdan ayrılmaq istəmərik.

- "Maun" surəsində "Vay o namaz qılanların halına" deyə buyurulur. Bir müsəlman bu ayədə bəhs olan "namaz qılanlar"dan olmamaq üçün nələrə diqqət etməlidir?

- Namaz həqiqi mənada namaz olacaq.

Biz bu kainata Allahın qulu olaraq gəlmişik. Allahın bəndəsi olaraq bu kainatda varıq. Ona görə də bir kölənin, bir qulun boynuna düşən ağasının rizasına nail olmaqdır. Nə etsəm, Allah məndən razı olar? Allah məndən nə istəyir?

Allah-Təala namazla bağlı "**iqamətus-saləh**" deyə buyurur. **Ədais-saləh** demir. Namazı iqamə etmək lazımdır. Yəni sən namazı qılacaqsan, namaz səni qiyama qaldıracaq. Namaz sənə ruh, kamillik verəcək. Əsnəyərək, tələm-tələsik qılınan, min cür fikirlərin zehindən keçdiyi bir namaz məqbul bir namaz deyil. Yoxsa qıldığımız namaz insanın əleyhinə bir vəbal olacaq. Çünki sən padşahın hüzuruna çıxmasan, niyə padşahın hüzuruna çıxmadın deməzlər. Ancaq padşahın hüzuruna çıxıb orada tərbiyəsizlik etsən onun hesabını səndən soruşarlar. Əlbəttə, buradan namaz qılmasaq da olar kimi bir məna çıxarmamaq lazımdır.

Biz həqiqi mənada namaz qıla bilirikmi? Qıla bilmirik. Ancaq Allaha dua edirik ki, Ya Rəbbi, bu gün şəklən qıldığımız namazı bir gün həqiqətən də bizə qıldır. Bu gün şəklini əda edə bilirik, sabah ruhunu da əda etməyi bizə nəsib et və bizi həqiqi namaz qılanlardan et. Gəlin, söhbətimizi İbrahim peyğəmbərin duası ilə bitirək: "**Ey Rəbbim! Məni də, nəslimdən olanları da (vaxtlı-vaxtında, lazımınca) namaz qılan et. Ey Rəbbimiz! Duamı qəbul buyur!**" (İbrahim, 40).

- Dəyərli vaxtınızı bizə ayırdığınız üçün sizə dərin təşəkkürümüzü bildiririk.

- Mən də təşəkkür edirəm, Allah razı olsun!

Adem ŞAHİN
amehao@hotmail.com

İRFAN-DOXSAN VƏ ÜÇ AYLAR

İstər həftəlik olsun, istərsə də aylıq, jurnal dünyasında hər say bir yaşdır. İrfan doxsan yaşındadır. Doxsana çatdı, Hz. Nuhun ömrü olan 950-yə nə qaldı ki ?!

Nuh (ə.s) 950 il, İrfan jurnalı da 90 sayıdır həyat verəcək şeylərə dəvət edir. Ənfal surəsinin 24-cü ayəsində **"Ey iman gətirənlər! Peyğəmbər sizi, sizləri dirildəcək bir şeyə (imana, haqqa) dəvət etdiyi zaman Allahın və Onun Peyğəmbərinin dəvətini qəbul edin"**,- buyurularaq bütün möminlərə əmr olunur. Buradan bir məna da çıxarda bilərik: Allah və Rəsulunun dəvət etdiyi hər işdə həyat var. Namaz, oruc, Quran, zikr, zəkat, qohumları ziyarət, təbəssüm…

Həyat verən şeylərə yanaşmayan insan ömrünü gözləri olduğu halda görmədən, qulaqları olduğu halda eşitmədən və ağlı olduğu halda düşünmədən tamamlayar. Şairin dediyi kimi *"Əksəri nəqşində qaldı, görmədi nəqqaşını…"* Onlar göy üzünü quyunun içindən seyr edərlər.

Ruhən səfilləşən, stress və depresiyya içində yaşayan "müasir" insanlar xəstəliklərindən xəbərsiz zombi kimi yaşayırlar. Həyatı mətbəx-ayaqyolu və yataq otağı üçbucağında, iztirabla keçirirlər. Əziyyət çəkən insan oxumağa, düşünməyə, müşahidə etməyə, ibadətə vaxt və enerji tapa bilmir. Ən zəkalı insanın beyninin yalnız dörd faizini işlədə bildiyini deyirlər. Beynin bütün imkanlarından istifadə edilmədiyi halda nə üçün mədə 100, 200, 300 faiz nisbətində doldurulur?

Narkotikadan istifadənin səviyyəsini araşdırmaq məqsədilə Nyu-York, London, Paris kimi böyük şəhərlərin kanalizasiya tullantılarında aparılan analizlərin nəticəsinə görə depressiya əleyhinə qəbul edilən dərmanlara rast gəlirlər. Bəzi mütəxəssis-psixoloqlar stres əsri adlandırılan əsrimiz üçün yarızarafat, yariciddi şəhərlərin su qovşağına anti-stress dərmanlar atılmasını təklif edirlər.

İmam Qəzaliyə görə cəhalət və qəflət iki bədbinlik səbəbidir. Cəhalət elmlə,

qəflətsə irfanla müalicə olunur. Cəhalət dedikdə oxuyub-yazmaq və ümumi intellekt əskikliyi başa düşülməməlidir. Cəhalət Allah və Rəsulundan bixəbər olmaqdır. Qəflət isə Allah və Rəsulunun həyat verən şeylərə dəvətinə laqeyd qalmaqdır. Qəflət kainata uzağı və sərhədləri görə bilməyən milçək kimi baxmaqdır. Çünki milçək uzunqulağın sidik gölməçəsindəki saman çöpünü nəhəng gəmi kimi görür. Çöpün üstünə qonaraq "bu okean, bu gəmi, bu da kapitan",- deyər. milçəyə görə içində üzdüyü həmin gölməçə hüdudsuzdur. İnsanın görməsi gözünə görədir. Dünya həyatını axirətdən üstün tutmaq milçəyin okeanda kapitanlıq iddiasından fərqlənmir. İbrahim surəsinin 3-cü ayəsində dünya

İrfan jurnalı "baş verəcək hər şey yaxındır" düsturu ilə Allah və Rəsulunun dirilişə çağırdığı ölçülərə dəvət edir. Nuh peyğəmbər kimi 950 il yaşamağı, ölüb-dirilməyi və axirəti özünə yaxın görür. "Zəmanə Xızırlarının irfanına hər zamankından daha çox ehtiyacımız var",- deyə yazmağa davam edir.

həyatını axirətdən üstün tutanlar, dünya həyatını axirətdən çox sevənlər azğınlıq içində olmaqla xarakterizə edilirlər. Ayədə diqqət ediləcək xüsus odur ki, azğınlıqda ittiham edilənlər axirəti inkar etmirlər. Onlar axirətin varlığını qəbul edirlər, lakin dünyanı axirətdən üstün tuturlar. İrfan dünyanı axirətdən üstün tutmama halıdır. İrfansızlıq ən böyük pərişanlıq səbəbidir.

"Həyat yolu nə qədər uzundur?" sualına *"başdaşında doğum və ölüm tarixi arasına çəkilən kiçik xətt qədər"*,- deyə cavab verilir. Rəcəb, Şaban və Ramazan ayları o kiçik xətt üzərindəki bir nöqtə kimidir. Zünnun Misri həzrətləri belə buyurmuşdur: "Rəcəb əkin ayıdır, Şaban suvarma, Ramazansa biçim mövsümüdür". Axirətin tarlası olan dünyada əkin dünən, suvarma bu gün, biçin isə sabah Haqqın hüzurunda olacaq. Axirətin tarlası olan dünyada əkib-becərməmək, tarlanı boş saxlamaq qınaq və peşmanlıq səbəbidir.

"Yeni il gününə necə girsən, bütün ilin o cür keçəcək" sözü boş-boşuna söylənmiş yalan iftiradır. Namaz qılan bir adama dostu "gəl on gün namaz qıl, bir daha tərk etməzsən",- deyir. Namaz qılmayan dostsa "sən də mənim kimi on gün namaz qılma, bir daha namaza başlaya bilməzsən",- deyə cavab verir. Rəcəb, Şaban, Ramazan aylarındakı ibadət həssaslığı və halal-harama diqqət ilin digər aylarını da mayalayacaqdır. Vərdişlərin mayalama gücü var. Səmərəli keçirilən üç ayın digər doqquz aya mayalayıcı təsiri inkarolunmazdır.

Dünən, bu gün və sabah məxluqat üçündür. Xaliq üçün dünən, bu gün və sabah yoxdurş *"Qələm yazmış, mürəkkəb qurumuşdur"* (Buxari). Qələm yazdığı, mürəkkəb quruduğu üçün "olan olmuşdur, olacaq olan da olmuşdur". İrfan jurnalı "baş verəcək hər şey yaxındır" düsturu ilə Allah və Rəsulunun dirilişə çağırdığı ölçülərə dəvət edir. Nuh peyğəmbər kimi 950 il yaşamağı, ölüb-dirilməyi və axirəti özünə yaxın görür. "Zəmanə Xızırlarının irfanına hər zamankından daha çox ehtiyacımız var",- deyə yazmağa davam edir. Dücanə Cündioğlu tənqid edilsə də, "Musanın şəriətindən çox Xızırın irfanına möhtacıq" iddiasındadır.

İslam hüququ (şəriət) dünyanın hər tərəfindəki Quran kurslarında, mədrəsələrdə, ilahiyyat fakültələrində öyrədilir, amma Xızırın irfanı, Yəsəvinin hikməti haradadır? Hansı coğrafiyada, neçə mübarək qapıda?

Quranın bildirdiyinə görə Xızır (ə.s) iki dənizin birləşdiyi yerdədir. Zəmanəmizdə də Xızır (ə.s)-ın iki dənizin birləşdiyi yerdə olduğuna inanıram. İki dənizin birləşdiyi, iki dənizə qonşuluq edən neçə şəhər var? Xızır irfansız, Xızırsız və irfansız da Novruz olmaz. Xızırsız və irfansız novruz dağlar, daşlar və bitkilər üçündür. İrfan, Yüz və Novruz sayında görüşmək duasıyla…

Nürəddin RÜSTƏMOV
nureddin.rustemov@box.az

MERAC

Bəşəriyyətə öz gəlişi ilə nur çaçan, insanlığın şərəf və şanını Allahın dərgahına qədər ucaldan yeganə bir insan var ki, o da Hz. Muhammədddir (s.ə.s). Əgər O bu dünyada doğulmasaydı, insanlıq zülmətin içində boğularaq cahalətin qurbanına çevriləcəkdi. O yeganə insan idi ki, Onun gəlişi hər şeyi dəyişdi. Sevmək nədir bilməyən insanlar sevgini, haqsızlıqdan sızlayan qəlblər isə mərhəməti ondan öyrəndilər. Çünki Allah Rəsulunun nuru hər tərəfə öz şəfəqlərini saçırdı. Amma biz Onu görmədik, adını eşitdik, həyatını oxuduq. Ən ülvi sevgimizlə Onu görmədən sevdik. Təbəssümümüzü Onun o gözəl təbəssümünə, yerişimizi Onun yerişinə, ibadətimizi Onun ibadətinə, səxavətimizi də Onun səxavətinə bənzədərək daim Ona oxşatmağa çalışdıq. Allahın bəşəriyyətə göndərdiyi sonuncu Elçisi daim bizləri doğru yola yönəldən bir rəhbər oldu.

Allah Rəsulunun həyatını oxuyub, incələdiyimiz zaman həyatın hər bir səhifəsində möcüzələrlə rastlaşırıq. Bu möcüzələrdən biri də Merac hadisəsidir.

Tarix boyu yer üzündə Hz. Muhammədddən (s.ə.s) sonra ikinci bir insan hələ bu məqama yüksəlməyib. O merac hadisəsidir ki, Hz. Muhammməd (s.ə.s) həmin gün yüksəkliyi qət edərək bir anda Allahla üzüzə gəldi. O günü təsəvvür etmək olduqca çətindir. Çünki həyəcanla dolu o gün Rəsulullahın özünü də heyrətə gətirmişdi. Həmin gün Rəsulullah heç özü də bilmirdi ki, O, Allahın dərgahına yüksələcək. Hər şey bir anda baş verdi. Gecənin qaranlığı səmanı bürümüşdü, hər yan sükut içərisində idi. Ətrafında oyaq insan yox idi və hər kəs çoxdan yatmışdı. O dəqiqələrdə vəhy mələyi Cəbrayıl (ə.s) yer üzünə enib Muhammədə (s.ə.s) dedi: "Bu gecə səni böyük bir səfər gözləyir, Allahın istəyi budur ki, bu gecə sən hələ bu günə qədər heç kəsin görmədiyi mənzərəni göstərsin". Bu, Allahın istəyi olduğu üçün Rəsulullah o an hazır idi Cəbrayıl (ə.s.) ilə birlikdə o yerə getməyə. Quran ayəsində buyurulduğu kimi:

"Bəzi ayələrimizi (qüdrətimizə dəlalət edən qəribəlikləri və əcaiblikləri) göstərmək üçün bəndəsini (Peyğəmbər əleyhissəlamı) bir gecə (Məkkədəki) Məscidülhəramdan ətrafını mübarək etdiyimiz (bərəkət verdiyimiz) Məscidüləqsaya (Beytülmüqəddəsə) aparan Allah pak və müqəddəsdir. O, doğrudan da, (hər şeyi) eşidəndir, görəndir!" (İsra, 1).

Buxari və Müslimin rəvayətsndə də keçən, əshabi-kiramdan Əbu Zərin söylədiklərinə görə, merac hadisəsi bu cür baş vermişdir:

"Həzrət Peyğəmbər əmisi Əbu Talibin qızı Ümmü Haninin evində ikən və ya

Hərəmi-Şərifdə olduğu zaman Cəbrayıl (ə.s.) mələklərlə bərabər yer üzünə enərək Muhammədin (s.ə.s) yanına gəlib onun sinəsini zəm-zəm suyu ilə yuyaraq Onu göyə yüksəltmişdilər. İslam tarixindəki şərhi-sadr və ya sinə açma adlandırılan hadisə də budur. Ondan sonra Cəbrayıl (ə.s.) Muhammədi (s.ə.s) Buraqa adlı xüsusi miniyə mindirərək Məscidi-Əqsaya gətirmişdir. "Rəsulullah Cəbrayıl (ə.s.) ilə birlikdə səmanın birnci qatına çatdığı zaman Cəbrayıl:

- Açın,- dedi.

İçəridən bir səs:

- Sən kimsən?- deyə soruşdu.

- Mən Cəbrayılam.

- Yanında başqa biri varmı?

- Muhəmməd (s.ə.s) var.

- Muhəmməd göndərildimi?

- Bəli, göndərildi.

"Allah Rəsulu sağında və solunda bir xeyli kölgə dayanan bir adam gördü. O adam sağına baxdığı zaman gülümsəyir, soluna baxdığı zaman ağlayırdı. O, Rəsulullahı görən kimi həmin bu şəxs Rəsulullaha:

- Salam, saleh peyğəmbər, xoş gəldin,- dedi. Həzrət Peyğəmbər Cəbrayıldan onun kim olduğunu soruşdu. Cəbrayıl (ə.s.)Adəm (ə.s.) olduğunu söylədi. Ətrafındakı kölgələr Adəmin zürriyətləri idi. Sağındakılar fəzilət sahibi olanlar və cənnətə layiq görülənlər idi, solundakılar isə cəhənnəmə girəcək insanlar idilər. Ona görə də Həzrət Adəm sağına baxanda gülür, soluna baxdığı zaman isə ağlayırdı.

Cəbrayılın (ə.s.) rəhbərliyi ilə Muhammməd (s.ə.s) səmada yoluna davam etdi. İkinci səmaya çatdılar. Orada da eyni suallar soruşuldu, yenə də eyni cavablar verildi. Bu qayda ilə hər səmada bir Peyğəmbərə rast gələrək səkkizinci səmaya çatdılar. Orada Həzrət İbrahim ilə rastlaşdılar.

"Bəzi ayələrimizi (qüdrətimizə dəlalət edən qəribəlikləri və əcaiblikləri) göstərmək üçün bəndəsini (Peyğəmbər əleyhissəlamı) bir gecə (Məkkədəki) Məscidülhəramdan ətrafını mübarək etdiyimiz (bərəkət verdiyimiz) Məscidüləqsaya (Beytülmüqəddəsə) aparan Allah pak və müqəddəsdir. O, doğrudan da, (hər şeyi) eşidəndir, görəndir!" (İsra, 1).

Ondan sonra daha irəliyə doğru getdilər. Neçə-neçə pərdələri aşaraq əsas məqama yetişdilər. Orada Rəsulullah arada vasitəçi mələk olmadan Allahla üz-üzə gəldi. Allah Ona və bütün müsəlmanlara beş vaxt namazı fərz buyurdu.

Bu hadisədən sonra Peyğəmbər (s.ə.s) Kəbəyə gəlir və orada rastlaşdığı adamlara isra və merac hadisəsini danışmağa başlayır. Bunu eşidənləri heyrət bürüyür; bu necə ola bilərdi? Bir adam, həm də gecənin zülmət qaranlığında Məkkədən necə çıxar? Həm də Məscidil-Əqsaya gələ və buradan da səmalar aləminə sirli bir səyahət edib yenidən Məkkəyə necə qayıda bilər? Bütün bunlar bir bəşər kimi heç bir insanın öhdəsindən gələ bilməyəcəyi bir vəziyyət idi. Müşrüklər qətiyyətlə ona inanmaq istəmirdilər. Lakin Rəsulullahın onlara söylədikləri düz çıxdı. Getdiyi yollarda nə görmüşdüsə, hamısı onun söylədiyi kimi idi. Merac hadisəsi olmamışdan qabaq da Peyğəmbərimizin heç vaxt yalan danışmadığını müşriklər bilirdi. Çünki O Muhammədül-Əmin idi. Amma buna baxmayaraq günümüzdəki insanlardan "Cənnəti, cəhənnəmi gedib görənmi var?" deyənlər olur. Bəli, var. Kimdir? Həyatında heç yalan danışmayan Muhəmməd (s.ə.s).

Dr. Əhməd NİYAZOV

NAMAZIN SÜNNƏLƏRİNDƏ FƏRQLİLİK



Digər ibadətlərdə olduğu kimi namaz hökmlərində də bəzi fərqliliklər var. Təkbir əsnasında əllərin səviyyəsinin iki cür olması, qiyamda əllərin vəziyyətinin üç cür olması, təhiyyatın oxunuşu, oturuşda ayaqların halı və sair sünnələrin iki və daha çox şəkli var. Ən əsası odur ki, namaza dair bu müxtəlif sünnələr hər biri müsəlmanlar tərəfindən eyni vaxtda yerinə yetirilmiş olur. Həzrət Peyğəmbərin namaza dair bu fərqli sünnələri məzhəblər vasitəsilə eyni vaxtda işlənmiş olur. Məsələn, əllərin bağlanmasına dair (üç-dörd bağlanma şəkli) bir neçə rəvayətlə nəql edilmişdir ki, möminlər onların hər birini eyni vaxtda tətbiq edirlər.

Məlumdur ki, hər bir müctəhid bu rəvayətlərdən birinə istinad etmiş və ən ixlaslı ibadət halı kimi namazda bu cür tətbiq edilməsini münasib bilmişdir. Ancaq digərlərinə qarşı da hörmətlə yanaşaraq, onların -digər rəvayətlərin- də sünnə əməl olduğunu qəbul etmişdir.

Qeyd edək ki, özünün istinad etdiyi hədis xaricində digərlərini rədd edən məzhəbçilik mövqeyinə dində yer yoxdur. Çünki bilərək hədis uydurmaq nə qədər günahdırsa, qərəzlə bir hədisi inkar etmək də günahdır.

Əgər müctəhid ictihad səlahiyyətinə sahibdirsə onun hər bir məsələ haqqında verdiyi hökm digər anlayışın əksinə görünsə belə əsli etibarilə dinə uyğundur. Necə ki səhabələr eyni əməli fərqli yerinə yetirdikləri barədə soruşanda Allah Rəsulu hər ikisini də müjdələmişdir. Hədislərin müxtəlifliyi və ya səhabələrdən gələn rəvayətlərin zahir-batin cəhəti müxtəlif hökmlər doğurmuşdur. Namaz əhkamında bu daha çox görülür. Qeyd edəcəyimiz bir neçə hədis var ki, bunlardan çıxan hökmlər elmihallarda namazın tərkib hissəsi kimi göstərilmiş, ancaq dəlili birbaşa verilmədiyi üçün haqqındakı hökmlər də zənnə məruz qalmışdır. Əslində səhabələr tərəfindən rəvayət edilən bu hədislər eyni zamanda üləmanın istinad etdiyi və onlara istinadən elmihallardakı həmin hökmün qaynaqlarıdır. Onlardan bir neçəsi belədir:

1) Vail ibn Hucrdən (r.a.) rəvayət edilir ki, **Allah Rəsulu (s.ə.s.) namazın başında iki əlini qaldırıb təkbir alarkən əllərini qulaq yumşaqlarına dəyəcək qədər qaldırdığını gördüm**. (Buxari, Aməl fis-Səlat, 316; Məvaqit, 24; Müslüm, Səlat, 25; Məsacid 225;

Əbu Davud,Səlat 115.)

2) Həzrət Əli (r.a.) rəvayət edərək demişdir ki: "**Sağ əlin sol əl üstündə göbəyin altında bağlanması sünnədir**" (Əbu Davud, Səlat, 118; Əhməd bin Hənbəl, Müsnəd, 1/110.)

3) Ənəs (r.a)ın belə dediyi nəql edilir: "**Rəsulullah (s.ə.s), Hz. Əbu Bəkir, Hz. Ömər və Hz. Osmanla birlikdə namaz qıldım. Onlardan heç birini bəsmələ çəkən eşitmədim**» (Əhməd b. Hənbəl, Müsnəd, III/ 264, 273, 275, 278).

4) Cabir bin Abdullah (r.a.) Həzrət Peyğəmbərin belə dediyini rəvayət etmişdir: "**Kim imama tabe olarsa, imamın qiraəti onun qiraətidir**" (İbn Macə, İqamə 13.) Abdullah ibn Ömərdən soruşdular ki, imamın arxasındakılar oxumalıdır, ya yox? Cavab verdi ki: "**Sizdən biri imamın arxasında qılırsa, imamın oxuması ona kifayətdir. Ancaq tək qılırsa oxusun.**" (İmam Malik, Muvatta, 1/93.)

5) Alqamə Abdullah ibn Məsud (r.a) dan rəvayət edərək dedi ki, o bizə: "**Sizə Allah Rəsulunun namazını qıldırım mı?" dedi və əllərini ilk qaldırışından sonra qaldırmadı**. (Əbu Davud, Səlat, 119; Tirmizi, Salət, 191.)

6) Rəvayət edildiyinə görə Abdullah bin Məsud (r.a) belə demişdir: "**İmam dörd şeyi gizli oxuyar:** a) **İstiazə;** b) **Bəsmələ;** c) **Amin;** d) **Rabbəna ləkəlhamd**. (Müstədrək, 1/204; Səraxsi, əl-Məbsut, I/48; Təbyinu`l-Haqaiq, II/58; İbn Hümam, Fethu`l-Qadir, I/204.)

7) Vail ibn Hucr (r.a)dan rəvayət edilir ki: "**Allah Rəsulunu səcdəyə gedərkən əllərdən qabaq dizlərini yerə qoyduğunu, duranda isə dizlərdən qabaq əllərini qaldırdığını gördüm**." (Əbu Davud, Salət, 137- 141; Nəsai, İftitah, 128; Tirmizi Salət, 84-199.) Əbu Hüreyrə (r.a.) rəvayət edir: "Rəsulullah (s.ə.s) buyurdu ki: "**Biriniz səcdə edəndə, dəvənin çöküşü kimi yerə çökməsin, yəni əllərini dizlərindən əvvəl yerə qoymasın.**" (Əbu Davud, Salət 141; Tirmizi, Salət 200; Nəsai, İftitah 128.)

8) Ubey bin Kaab (r.a)dan rəvayət edildi ki: "**Həzrət Peyğəmbər əleyhissalam vitr namazını üç rükət qılar, rükudan əvvəl qunut oxuyardı.**" (Əbu Davud, Salət, 340; Müsnəd,, 5/123; Daraqutni, 2/31.)

9) Hz. Safiyyədən gələn rəvayətdə deyilir ki: "Rəsulullah (s.ə.s.) otağıma gəldi. Qabağımda 4000 toxum vardı. Onlarla təsbih (zikr) edirdim. Rəsulullah mənə: "**Sən bunlarla təsbih etdin? Ancaq bundan daha çox sayılacaq bir təsbihi sənə öyrədimmi**?" deyə soruşdu. Mən də, "bəli" dedim. Sonra belə buyurdu: "De ki, **Sübhanəllahi adədə xalqihi**" (Tirmizi, Dua 103/113; Əbu Davud, Vitr 24; Əhməd İbn Hənbəl, Müsnəd, I/252-258.)

Nəticə olaraq **din** Allah tərəfindən Həzrət Peyğəmbər əleyhissalama bildirilən vəhyin özüdür, ilahi qaydalardır. Ancaq **din anlayışı** isə bu ilahi qaydaların və vəhyin insan tərəfindən sahib olduğu düşüncə və içində olduğu şərtlərə uyğun anlayıb yorumlama şəklidir. Ona görə də dini mətnlərin və qaynaqların anlaşılmasındakı fərqliliklər tarix boyu fərqli anlayışların, müxtəlif məzhəblərin meydana gəlməsinə səbəb olmuşdur. Elə isə buradan belə bir nəticəyə gəlmək olar ki;

a) Din, vəhyə istinad edir, dini anlayış isə, insanların düşüncəsinə və yorumlarına, yəni ağla və ictihada dayanır. b) Din, bütün insanlara müraciət etdiyi üçün cahanşümuldur, din anlayışı (ictihad) isə fərdidir. c) Din tək və vahid ikən, din anlayışları fərqli və müxtəlifdir. d) Din sabit olduğu halda, din anlayışı şəxslərə və zamana görə dəyişə bilər.

Özünün şəxsi anlayışını (məzhəbini) din yerinə qoyub, ona bağlanmağı fərz bilən və digər üləmaya bağlanmağı haram bilənlər onu da bilsinlər ki, din içində din meydana gətirərək qütbləşməyə səbəb olurlar.

Fuad QULİYEV
fuadguliyev@hotmail.com

BİR AYƏ

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ

وَلِلَّهِ يَسْجُدُ مَن فِي السَّمَاوَاتِ وَالْأَرْضِ طَوْعًا وَكَرْهًا وَظِلَالُهُم بِالْغُدُوِّ وَالْآصَالِ

“Göylərdə və yerdə kim varsa, (özləri də), kölgələri də səhər-axşam istər-istəməz Allaha səcdə edər!
Rad, 13/15

Bu mübarək ayələr bütün kainatın Allah-Təalaya qulluq səcdəsi etdiyini bildirməklə yanaşı kainatın yaradıcısı ilə məxluqatı arasındakı böyük fərqliliklərə diqqət çəkərək bütün bəşəriyyəti, o Uca Yaradıcını təsdiq etməyə və onun “bir”liyini qəbul etməyə dəvət edir. Belə ki, bütün yaradılış əsərləri Allahın təkliyinə şahidlik edir. “Göylərdə və yerdə” mələk, insan, cin və s. adına kim varsa onlardan kölgəsi olanların da hər zaman “axşam və sabah” istər istəməz yəni bir qismi tam itaətlə öz istəyi ilə, bəziləri də istəməyərək məcburiyyət səbəbilə Yaradıcıya səcdə edər, onun üçün qulluq səcdəsinə qapanar, üzünü yerlərə sürtər. Bir mənada Yaradıcısına qarşı ehtiramla acizliyini etiraf edər. Həmçinin bütün mələklər və inanan, ibadət əhli olan insanlar da Haqq-Təalaya itaət içərisində səcdə edər, Onun ilahlığını daim zikr və dua ilə xatırlayaraq təzim edər. Ancaq inanmayan kafirlər və münafiqlər isə Allahın birliyini, ona səcdənin lüzumunu istəyərək təsdiq etməsələr belə bir məcburiyyət və yaxud göstəriş üçün və yaxud başlarına gələn bir müsibətdən xilas olmaq ümidiylə Allaha yalvararaq səcdəyə qapanarlar. Səmimiyyətdən uzaq və istəməyərək, qəlbən yaşamayaraq edilən ibadət və səcdələrin isə heç bir dəyər və mahiyyəti yoxdur Allah nəzdində. Əsl səcdə isə məhz onun qüdrətini idrak edərək, varlığına zərrə qədər də olsun şübhə gətirməyərək səmimiyyətlə daim qəlbində hiss edərək ediləndir. Kölgələrin səcdələri isə günəş şüalarının yansıması ilə meydana gələrək Yaradıcının qüdrət əlaməti kimi təzahür edir. Onlar da bir mənada özünə məxsus şəkildə Allaha səcdə halında bir görüntü meydana gətirərlər. Kölgə sahiblərinin səcdəyə qapanmaları, kölgələrin də bir səcdə vəziyyəti aldığını göstərir.

Zaman ifadəsi olaraq ayədə keçən “ğuduvv” kəlməsi günün erkən saatı olan səhər vaxtından günortaya qədər olan zaman kəsiyidir. “Asal” isə ikindi vaxtı ilə günəşin qürubu arasındakı vaxtı ifadə edir. Hər iki vaxtdan məqsəd günün tamamıdır.

* Bu ayə Qurani-Kərimdəki mövcud on dörd səcdə ayəsindən biridir. Oxunduğu və eşidildiyi zaman tilavət səcdəsi edilir (hənəfilərə görə vacib, digər məzhəblərdə isə sünnədir). Tilavət səcdəsi bu şəkildə edilir: Tilavət səcdəsinə niyyət edilərək əllər qaldırılmadan “Allahu Əkbər” deyilərək səcdəyə gedilir, “sübhanə rəbbiyəl-ə`la” üç dəfə deyildikdən sonra qalxaraq “səmi`na və əta`na rabbənə və ileykəl-masir” deyilir.

Səfa MURADOV
sefamuradov@gmail.com

BİR HƏDİS

عَنْ جَابِرِ ابْنِ عَبْدِ اللهِ، قَالَ: قَالَ رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: {مَثَلُ الصَّلَوَاتِ الْخَمْسِ كَمَثَلِ نَهْرٍ جَارٍ، غَمْرٍ عَلَى بَابِ أَحَدِكُمْ، يَغْتَسِلُ مِنْهُ كُلَّ يَوْمٍ خَمْسَ مَرَّاتٍ}

Cabir ibn Abdullahdan rəvayət olunduğuna görə, Rəsulullah (s.ə.s) belə buyurmuşdur: "***Beş vaxt namaz qapınızın önündən axıb gedən və insanın hər gün içində beş dəfə yuyunduğu gur sulu bir çay kimidir.***" (Buxari, Salət, 6; Müslim, Məsacid, 51)

Namaz insana günahlardan təmizlənmə və qorunmaq imkanı verərək həyatın müxtəlif sıxıntılarından qoruyur. Namaz insana ciddiyyət və iradə verir. Dan yeri qızarandan qalxıb həyatını təmin etmək üçün məişət qayğılarına dalan insan, küçədə, bazarda, iş yerində və. s həyatın minbir halları ilə qarşılaşır. Nəfs və şeytan da onu daim təqib edərək Allahın yasaq etdiklərinə və günaha yönəldir. İnsan iradəcə çox zəifdir. Harama, günaha, Allahın yasaq etdiklərinə tez yönəlir. Çalıb-çapmaq, döyüb-öldürmək, qəlb sındırmaq, pis söz söyləmək, haram qazanc dalınca qaçmaq və bu kimi pisliklərdən insanı namaz qoruyur. Sabah namazında Allahın hüzurunda duran insan imanını təzələmiş olur. Görəcəyi işlərdə qüsura yol verməyəcəyinə dair Allaha söz verərək evdən çıxır, gün ərzində gördüyü işlərdə Allahına verdiyi sözü xatırlayaraq günaha batmaqdan özünü qoruyur. Nəfsin və şeytanın təsiri qarşısında iradə gücü zəifləyəndə imdadına günorta namazı yetişir və ona Allahın qulu olduğunu xatırladaraq Allahın hüzuruna çağırır. Beləliklə Allah ilə bəndə arasında yenə bir iman əlaqəsi qurulmuş olur. Mömin yeni bir iradə gücü ilə nəfsinə və şeytana qarşı durur. Bu minvalla namaz mömini günahlardan qorumuş olur. Allah Təala Qurani-kərimdə belə buyurur: **"Ya Rəsulum! Qurandan sənə vəhy olunanı oxu və namaz qıl. Həqiqətən namaz insanı çirkin və pis əməllərdən qoruyur."** (Ənkəbut 29/45)

Namaz mənəvi təmizliyin əsası olmaqla yanaşı eyni zamanda maddi təmizliyində ən gözəl vasitəsidir. Çünki namaz qılan mömin daima bədənini təmiz saxlamalı və gündə beş dəfə dəstəmaz almaqla yanaşı eyni zamanda paltarını və namaz qılacağı yeri də təmiz saxlamalıdır ki, bu da insanın hər gün beş dəfə bədən təmizliyinə riayət etməsinə səbəb olur. Bundan əlavə namazın günün müxtəlif vaxtlarında qılınması iki namaz arasında işlənmiş xəta və günah çirklərindən təmizlənməyə və günahların əfv edilməsinə vasitədir. Bütün bunlara görədir ki, Rəsulullah (s.ə.s) beş vaxt namazı qapının ağzından axan çaya, namaz qılmağı isə bu çayda beş dəfə çimməyə bənzətmişdir.

Namaz qılaraq həm maddi, həm də mənəvi cəhətdən özünü inkişaf etdirən hər bir fərd, Rəbbinə doğru yüksəlmiş olar. Bu baxımdan Rəsulullahın; "***gözümün nuru***" deyərək tərif etdiyi namaz, elə gözün bəbəyi kimi qorunmalıdır ki, gələcək nurlu və aydınlıq olsun.

HAQQ DOSTLARINDAN HİKMƏTLƏR
CƏFƏRİ-SADİQ (Q.S)
-4-

Cəfəri-Sadiq həzrətləri buyurur:

"Kim ruzisində çətinlik çəkirsə, istiğfarı artırsın!"[1]

[Bir gün Haqq dostlarından **Həsən Bəsri həzrətləri**nin yanına dörd nəfər gələrək, biri **quraqlıqdan**, biri **kasıbçılıqdan**, biri **tarlasının məhsuldar olmamasından**, digəri isə **övladının olmadığından**[2] söz açaraq ondan yardım istədilər. O böyük vəli gələnlərin hər birinə **"istiğfar"**la məşğul olmağı tövsiyə edir.

Yanındakılar təəccüblə belə deyirlər:

"- Əfəndim, bunların hər birinin dərdi və müşkülü başqa-başqadır, amma siz hamısına eyni tövsiyəni etdiniz!".

Həsən Bəsri həzrətləri onlara bu ayeyi-kərimə ilə cavab verir:

"(Tövbə edib) Rəbbinizdən bağışlanmağınızı diləyin. Çünki O, (tövbə edən bəndəsinin günahlarını) çox bağışlayandır! O sizə göydən bol yağış göndərər; O sizə mal-dövlət, oğul-uşaq əta edər. O sizin üçün bağlar-bağçalar yaradır və çaylar axıdar!". (Nuh, 10-12)[3]

Deməli, Allah-Təala tövbə və istiğfar edən bəndələrin bir çox müşküldən qurtarıb, onlara lütf edər. Haqqın rəhmətini cəlb edib, qəzəbini söndürəcək ən əsas vasitə bəndənin ixlasla Rəbbinə yönələrək Ondan xəta və günahlarının əfvini istəməsidir.

Necə ki, başqa bir ayədədə belə buyurulur:

"...(Tövbə edib) bağışlanmalarını diləyərkən də Allah onlara əzab verməz!" (əl-Ənfal, 33)]

Cəfəri-Sadiq həzrətləri buyurur:

"Qəzəb bütün şərlərin açarıdır".[4]

[Mömin xeyrə açar, şərə kilid olmalıdır. İkiuclu bıçağa bənzəyən qəzəb isə imandan doğarsa xeyrin, nəfsdən doğarsa şərin açarı olar. Çünki nəfsani qəzəblər ağlı başdan çıxardan çılğınlıq halıdır və çox vaxt aqibəti fəlakətlə nəticələnir. Əgər mömin qəzəblənəcəksə, Allah rizası üçün, İslam düşmənlərinə və günaha qəzəblənməlidir. Nəfsindən doğan qəzəb hissini isə daim cilovlamağa çalışmalıdır.

Həzrət Əli -ın Allah yolunda vuruşarkən bir kafiri öldürməsi ərəfəsində üzünə tüpürməsi nəticəsində onu öldürməkdən vaz keçməsi hadisəsi bu xüsusda ən gözəl misallardan biridir. İmanın qazandırdığı həssaslıqdan məhrum olan İslam düşməni Həzrət Əlinin bu qeyri-adi hərəkətinə məəttəl qalaraq heyrətlə soruşur:

"- Ey Əli, tam da məni öldürmək üzrə idin, nə üçün əl saxladın? Şiddətli qəzəbin

necə oldu ki, bir anda sükunətlə əvəz oldu? Bu ani dəyişikliyin hikməti nədir?”.

Həzrət Əli bu cavabı verir:

“- Mən yalnız Allah yolunda cihad edirəm. Allaha düşmən olanların boynunu Onun rizası üçün vururam və əsla nəfsimi buna şərik etmirəm… Sən üzümə tüpürərək məni təhqir etmək, qəzəbləndirmək və bununla da nəfsimi hərəkətə gətirmək istədin. Əgər mən həmin anda hiddətlənsəydim, səni nəfsimə ram olmaq kimi mənasız bir səbəblə öldürmüş olacaqdım. Halbuki mən qürurumu təmin etmək üçün yox, Allah rizası üçün vuruşuram”.

Məhz bu fəzilətli hərəkət qarşısında həmin düşmən iman ilə şərəflənir.

Allah-Təala ilahi mükafatlarla müjdələdiyi təqva sahibi olan bəndələrinin vəsflərini belə zikr edir:

“O müttəqilər ki, bolluqda da, qıtlıqda da (mallarını yoxsullara) xərcləyər, qəzəblərini udar, insanların günahlarından keçərlər. Allah yaxşılıq edənləri sevər” (Ali-İmran, 134)

Bu ayeyi-kərimənin həyata tətbiq olunmasına dair yaşanmış fəzilət nümunələrindən biri belədir:

Cəfəri-Sadiq həzrətlərinin bir köləsi vardı. Bir gün o su tökür, həzrət isə əllərini yuyurdu. Birdən su paltarına sıçradı. Cəfəri-Sadiq həzrətləri hirslə köləyə baxdı. Bu zaman kölə:

“- Əfəndim, Qurani-Kərimdə

«وَالْكَاظِمِينَ الْغَيْظَ / **Qəzəblərini udanlar**»,[5] Allahın məğfirəti və Cənnətlə müjdələnirlər”,- dedi.

Cəfəri-Sadiq həzrətləri:

“- Elə isə qəzəbimi uddum!”,- dedi.

Kölə ayənin davamını oxudu:

“وَالْعَافِينَ عَنِ النَّاسِ: **İnsanları əfv edənlər”.**

Cəfəri-Sadiq həzrətləri:

“- Haydı, səni əfv etdim”,- dedi.

Kölə ayəni oxumağa davam etdi:

“وَاللَّهُ يُحِبُّ الْمُحْسِنِينَ: **Allah yaxşılıq edənləri sevər!”.**

Bunun üzərinə Cəfəri-Sadiq həzrətləri:

“– Gedə bilərsən, sən Allah-Təalanın

Mömin xeyrə açar, şərə kilid olmalıdır. İkiuclu bıçağa bənzəyən qəzəb isə imandan doğarsa xeyrin, nəfsdən doğarsa şərin açarı olar. Çünki nəfsani qəzəblər ağlı başdan çıxardan çılğınlıq halıdır və çox vaxt aqibəti fəlakətlə nəticələnir. Əgər mömin qəzəblənəcəksə, Allah rizası üçün, İslam düşmənlərinə və günaha qəzəblənməlidir. Nəfsindən doğan qəzəb hissini isə daim cilovlamağa çalışmalıdır.



İlahi qüdrətin insanlıqda təcəlli edən şahəsəri Həzrət Peyğəmbər kimi ideal və nümunəvi bir insanı da nalayiq sözlərlə anan Əbu Cəhl xarakterli qafil və cahil insanların hər əsrdə yaşaması bu cür ittihamlardan və dedi-qodulardan heç kimin uzaq qalmayacağının açıq-aydın ifadəsidir.

rizası üçün artıq azadsan. Bu min dinar da sənin olsun!",- buyurdu.[6]

İnsanın şəxsinə qarşı xəta və günah işləndiyi zaman Allah rizası üçün qəzəb hisslərini boğmaq böyük bir fəzilətdir. Necə ki, hədisi-şərifdə buyurulur:

"İgid güləşdə rəqibinə qalib gələn deyil. Əsil igid qəzəbləndiyi vaxt qəzəbinə qalib gələndir". (Buxari, Ədəb, 76; Müslim, Birr, 107, 108)

Allah Rəsulu şəxsi məsələlərdə hirsi boğa bilməyin yolunu da belə bəyan etmişdir:

"Diqqət edin! Qəzəb Adəm oğlunun qəlbindəki bir alovdur. Hirslənən adamın gözlərinin qızardığını, boyun damarlarının şişdiyini görmürsünüzmü? Kim hirslənməyə başladığını hiss edərsə, dərhal otursun, yaxud da yatsın!". (Tirmizi, Fitən, 26/2191; İbn Macə, Fitən, 18)

"Sizdən biri hirsləndikdə ayaq üstədirsə, otursun, hirsi soyuyarsa, lap yaxşı, əks təqdirdə uzansın". (Əbu Davud, Ədəb, 3/4782; Əhməd, V, 152)

Əbu Vail belə deyir:

"Bir gün **Urvə bin Muhammədin** yanına getmişdik. Bir nəfərin naxoş sözlər söyləyərək Urvəni hirsləndirdiyini gördük. Bu zaman Urvə ayağa qalxdı, dəstəmaz alıb yanımıza gəldi vəə **Rəsulullah** -in belə buyurduğunu nəql etdi:

"Hirs şeytandandır. Şeytan isə oddan yaradılmışdır. Od su ilə söndürülür. Elə isə sizdən biri hirsləndiyi zaman dəstəmaz alsın!". (Əbu Davud, Ədəb, 3/4784; Əhməd, IV, 226)

Ancaq onu da qeyd etmək lazımdır ki, hirsi boğa bilmək mühüm olduğu kimi, lazım gəldikdə Allah rizası üçün qəzəblənmək də son dərəcə əhəmiyyətlidir. Necə ki, **Rəsulullah** öz nəfsi üçün hirslənməz və heç kimlə mübahisəyə girməzdi. Lakin başqasına və ya cəmiyyətə aid bir haqq tapdandığı zaman, xüsusilə də bu halın davam etdiyini gördükdə hirslənər, hətta mübarək alnındakı damar qabarar, yalnız haqq və ədalət öz yerini tapandan sonra sakitləşərdi.]

Cəfəri-Sadiq həzrətləri buyurur:

"(Din) qardaşından sənin haqqında xoşuna gəlməyən bir söz çatanda kədərlənmə! Əgər işin əsli onun dediyi kimidirsə, bu söz axirətdə çəkəcəyin bir cəzaya kəffarə olar. Yəni həmin cəza hələ bu dünyada ikən sənə verilmiş olar. Elə deyilsə də heç nə etmədən bu söz səbəbilə bir savab qazanmış olarsan".[7]

[Cəfəri-Sadiq həzrətlərinin bu nəsihəti xüsusilə haqsız və əsassız ittihamlara məruz qalan möminlər üçün necə də gözəl təsəllidir. Qəlbin hüzur və müvazinətini qorumaq üçün bu nəsihəti qulaqda sırğa etmək lazımdır.

Bu bir həqiqətdir ki, bir mömin nə qədər yaxşı adam olsa da, mütləq onun da əleyhinə danışanlar olacaq. Heç kim bunun qarşısını ala bilməz.

İlahi qüdrətin insanlıqda təcəlli edən şahəsəri **Həzrət Peyğəmbər** kimi ideal və nümunəvi bir insanı da nalayiq sözlərlə anan Əbu Cəhl xarakterli qafil və cahil insanların hər əsrdə yaşaması bu cür ittihamlardan və dedi-qodulardan heç kimin uzaq qalmayacağının açıq-aydın ifadəsidir.

Yenə Cəfəri-Sadiq hzərətlərinin nəql etdiyinə görə, **Həzrət Musa** bir gün dua edərkən Allah-Təalaya belə yalvarır:

"– Ya Rəbbi! Hər kəsin məni xeyirlə yad etməsini istəyirəm".

Haqq-Təala isə:

"- Bu necə ola bilər, özüm də daxil, heç kimə belə bir şey etmədim",- buyurur.[8]

Yəni insan nə qədər yaxşı da olsa, mütləq onu gözü götürməyənlər, qınayanlar, bəyənməyənlər və dedi-qodusunu edənlər olacaqdır.

Arif möminlərin ali vəsflərindən biri də insanların onlar haqda bu kimi mənfi dedi-qodusundan inciməməkdir. Çünki edilən bu ittihamlar əgər doğrudursa, **qeybət**dir, yox, tamamən haqsız isə, o zaman **iftira**dır. Bu kimi naxoş rəftara məruz qalan mömin üçün hər iki hal ya günahlarının bağışlanmasına, ya da dərəcəsinin yüksəlməsinə vəsilədir.

İnsanlar dəhşətli qiyamət günündə özləri də çox ehtiyac hiss etsələr də, savablarını dünyada ikən qeybət və dedi-qodusunu etdikləri kəslərə vermək məcburiyyətində qalacaqlar. Əgər borclarını ödəyəcək qədər savabları qalmazsa, dedi-qodusunu etdikləri adamların günah yüklərini öz üzərlərinə alacaqlar.[9]

Qeyd edəcəyimiz hadisə bu hqiqətləri nə gözəl ifadə edir:

Qeybət günahına vərdiş edən bir nəfər ətrafında olan bir Haqq dostunun da qeybətini etməkdən geri qalmırdı. Ona görə də həmin qeybətçini heç kim sevmirdi. Lakin könül təbibi olan Haqq dostu nə vaxt qeybətini edən adam yanına gəlsə, onu təbəssümlə qarşılayar, "Gəl görüm, mənim əziz şərikim",- deyərək iltifat edirdi. Bu gözəl rəftar nəhayət, onu insafa gətirdi və:

"Mən orda-burda bu adamın əleyhinə danışıram, o isə həmişə mənə iltifat edir. Daha bundan sonra əleyhinə danışmayacağam",- dedi.

Artıq həmin Allah dostunun qeybətini etmirdi. Lakin hüzuruna gəldikdə əvvəllər olduğu kimi iltifat görmürdü. Bir gün bunun səbəbini soruşdu:

"Əfəndi həzrətləri, artıq mənə əvvəllər olduğu kimi iltifat etmirsiniz. Əvvəlki sevginizi göstərməməyinizə səbəb nədir?".

Ona və onun kimi qeybət xəstəliyinə tutulanlara xəbərdarlıq etmək üçün əlinə yaxşı fürsət düşən Haqq dostu təbəssümlə:

"- Əvvəllər sənlə ticarət şərikliyimiz vardı. Artıq həmin şərikliyimiz sona çatdı



və ona görə də iltifat da qalmadı",- dedi. O isə təəccüblə soruşdu:

"- Nə şərikliyi? Mənim elə bir şəriklikdən xəbərim yoxdur". Böyük vəli belə izah etdi:

"- Sən orda-burda mənim əleyhimə danışırdın. Mən də qeybətinə qeybətlə cavab vermir və səbir edirdim. Bu səbrimin əvəzində mənim günahlarım sənin dəftərinə, sənin savabların da mənim dəftərimə yazılırdı. Sənlə belə bir ticarət şərikliyimiz vardı. İndi isə sən artıq qeybətimi etmirsən, ona görə şərikliyimiz də sona çatmış sayılır".

Eşitdikləri qarşısında məəttəl qalan adam:

"- Doğrudan, qeybətçinin vəziyyəti belədir?",- deyə soruşduqda o mübarək zat bu misalla sözünə davam etdi:

"- **İmam Şarani** deyir ki, "Əgər mütləq kiminsə qeybətini etməli olsaydım, əvvəlcə ata-anamın qeybətini edərdim. Çünki qeybət edən insan əvvəlcə öz savablarını qeybətini etdiyi adama bağışlamış, vermək üçün savabı qalmamışsa da, onun günahlarını öz üzərinə yükləmiş olar".

Bu sözlərdən sonra dərin düşüncələrə dalan qeybətçinin ağlı başına gəldi və bu hadisədən sonra heç kimin qeybətini etməməyə söz verdi.

Qeybətin nə qədər böyük və çirkin günah olduğu ayeyi-kərimədə belə bildirilir:

“Ey iman gətirənlər! Çox zənnə-gümana qapılmaqdan çəkinin. Şübhəsiz ki, zənnin bəzisi (heç bir əsası olmayan zənn) günahdır. (Bir-birinizin eybini, sirrini) arayıb axtarmayın, bir-birinizin qeybətini qırmayın! Sizdən biriniz ölmüş qardaşının ətini yeməyə razı olarmı?! Bu sizdə ikrah hissi oyadar (qeybət də belədir). Allahdan qorxun. Həqiqətən, Allah tövbələri qəbul edəndir, rəhmlidir!” (əl-Hucurat, 12)

Ölmüş bir adam necə ki, şərəf və ləyaqətini zədələyəcək pis sözləri eşitməyib, özünü müdafiə etmək iqtidarında deyilsə, qeybəti olunan adam da qiyabında baş verən günahlara cavab verəcək halda deyil. Ona görə də qeybət günahı ayeyi-kərimədə ölmüş qardaşının ətini yemək kimi dəhşətli dərəcədə iyrənc əməl kimi göstərilir.]

Cəfəri-Sadiq həzrətləri buyurur:

“Əməlsiz dəvətçi yay olmadan ox atmağa çalışan adama bənzəyir”.[10]

[Boş bardaqla ikram olmayacağı kimi söylədikləri ilə yaşadıqları arasında təzad olan, əməli dediklərinə uymayanların verdiyi nəsihət, tövsiyə və təlqinlər də xitab etdikləri kəslərə təsir etməz. Çünki sözün təsir bərəkəti söyləyənin ixlas və təqva duyğuları ilə həqiqəti yaşaması nisbətindədir.

Elə ona görə də **Mövlana həzrətləri** belə buyurur:

“Əməli olmayan hikmətli söz borc alınmış bəzəkli patlar kimidir…”

Yenə Mövlana həzrətləri:

“Hal ilə nəsihət edən qal ilə (sözlə) nəsihət verəndən daha xeyirlidir”,- buyuraraq hal və davranışların çox vaxt sözdən daha təsirli olduğunu ifadə etmişdir.

Səhabələrin əksəriyyəti Quran əxlaqını canlı olaraq təmsil edən Rəsulullah ﷺ –in gözəl davranışlaırna heyran qalaraq hidayətlə şərəflənmişdir. Çünki insan daima şəxsiyyət və xarakterə heyrandır.

Ona görə də təbliğ və irşad fəaliyyəti ilə məşğul olanlar əvvəlcə özləri ilahi əmr və qadağalara dəqiqliklə riayət etməlidirlər. Əks təqdirdə ilahi qəzəbə düçar olmaları qaçınılmazdır.

Allah-Təala Qurani-Kərimdə İsrail oğullarının alimlərini misal göstərərək belə buyurur:

“Siz insanlara yaxşı işlər görmələrini əmr etdiyiniz halda, özünüzü unudursunuz? Halbuki özünüz kitab (Tövrat) oxuyursunuz. Məgər (çirkin əməllərinizi) başa düşmürsünüz?” (əl-Bəqərə, 44)

“Tövrata əməl etməyə mükəlləf olduqdan sonra ona əməl etməyənlər belində çoxlu kitab daşıyan (lakin onların içində nə yazıldığını bilməyən, onlardan faydalanmağı bacarmayan) ulağa bənzərlər…” (əl-Cumuə, 5)

Rəsulullah də belə buyurmuşdur:

“İsra (Merac) gecəsi dodaqları alovlu qayçılarla kəsilib doğranan bəzi insanların yanından keçdim.

“- Ya Cəbrayıl, onlar kimlərdir?”,- deyə soruşdum.

“- Onlar ümmətindən olan bir qism xətiblərdir. Allahın kitabını oxuduqları halda insanlara yaxşılığı əmr edərkən, özlərini unudardılar (yəni söylədikləri ilə özləri əməl etməzdilər). Heç düşünməzdilərmi?!”,- cavabını verdi.” (Əhməd, III, 231, 120, 180, 239; Beyhəqi, *Şuab*, II, 283)[11]

Bəlkə də bu və buna bənzər həqiqətlərin təsiriylə qəlbi titrəyən səhabələrdən **Ənəs** رضي الله عنه belə nəql edir:

“- Ey Allahın Rəsulu, özümüz əməl etmədiyimiz müddətcə yaxşılığı əmr etməyəkmi, həmçinin özümüz uzaqlaşmadıq-

ca da pislikdən çəkindirməyəkmi?",- deyə soruşduq.

Rəsulullah (buna kamil mənada müvəffəq ola bilməyin imkansızlığı səbəbiylə) belə buyurdu:

"- Tamamilə əməl etməsəniz də, yaxşılığı əmr edin, tamamilə uzaq durmasanız da, pis əməllərdən çəkindirin!" (Heysəmi, VII, 277).

Yaxşılığı tövsiyə edib, pisliklərdən uzaqlaşdırmağa ilk növbədə özümüzdən və ailəmizdən başlamalıyıq. Bu mənada ilk vəzifəmiz xüsusilə uşaqlarımızı İslami şüurda yetişdirmək olmalıdır. Əks təqdirdə göz bəbəyimiz olan övladlarımız qiyamət günü bizdən şikayətçi olacaqlar. Allah-Təala Qurani-Kərimdə:

"Ey iman gətirənlər! Özünüzü və əhli-əyalınızı elə bir oddan qoruyun ki, onun yanacağı insanlar və daşlardır!.." (ət-Təhrim, 6) buyuraraq, əmri bil-məruf və nəhy anil-münkər vəzifəmizə ilk növbədə ən yaxınlarımızdan başlamamıza işarə edir.

Övladlarımızı islami şüurda və dinimizin tələb etdiyi ədəb çərçivəsində yetişdirmək isə onları bir yaz tətilində qələbəlik bir məscidə göndərməklə təmin ediləcək qədər asan deyil. Həmçinin dini təhsili bu qədər bəsit görmək qəlbdəki islami şüurun zəif olduğuna dəlalət edər. Bununla kifayətlənərək vəzifəmizi yerinə yetirdiyimizi zənn etmək yalnız özümüzü aldatmaqdır. Övladlarımızın dünyadakı gələcəyinin yaxşı olması düşüncəsiylə, guya, səviyyəli bir kollecdə oxuda bilmək üçün böyük əmək və sərvət sərf edərkən, universitetə qəbul imtahanlarında ata-analar uşaqlarından daha böyük tələş və əndişəylə məktəb qapılarında gözləyərkən, əcəba, bu həssasiyyətin neçə faizi onların əbədi gələcəyi olan axirət üçün göstərilir?.. Unutmayaq ki, övladlarımızı bu fani dünyadakı ilahi imtahanlara yaxşı hazırlaşdıra bilmək hər birimizin ən mühüm imtahanıdır.

Bu gün ən böyük məsuliyyətimiz övladlarımıza qarşıdır… Çünki bu gün liberal sistemin "qoy etsin, qoy getsin" prinsipi ilə hərəkət edib mənəviyyata zəhər saçan və nəfsaniyyəti qabardan televizorların mənfi təbliğatları, internetin yanlış ünvanları, modaların çılğın təhrikləri və reklamların aldadıcı təlqinləri uşaqlarımızın şəxsiyyətini formalaşdırır. Onların könül dünyasını pərişan edərək, dininə, mədəniyyətinə, tarixinə, hətta ailəsinə qarşı yadlaşdırır.

Özümüzü, övladlarımızı, ailəmizi, qohumlarımızı və cəmiyyətimizi bu həzin aqibətdən qorumaq üçün lazımi tədbirləri almalıyıq.]

Allah-Təala hər birimizə uca dinimizi doğru anlayıb gözəl yaşamağı, bütün hal və hərəkətlərimizlə İslamın nəzakət, zərafət və gülər üzünü sərgiləyə bilməyi nəsib etsin.

Amin!..

---

1. Abdülmecid Hani, *el-Hadaikul-Verdiyye*, sf, 161, Rehber Yayıncılık, İstanbul 1986.
2. Yeri gəlmişkən qeyd edək ki, bəzən səbəblərə təvəssül edilərək dua ilə Allaha təvəkkül edilsə də, insan istədiyinə nail olmaya bilər. Məsələn, bəzi ailələrin çox istəməsinə baxmayaraq övladı olmaz. Bunun bir çox hikməti var. Zira Allahdan başqa heç kim qeybi bilməz. Haqqımızda nəyin xeyir, nəyin şər olduğunu Rəbbimiz bizdən daha yaxşı bilir. Onun haqqımızdakı təqdiri şübhəsiz ki, bizim istədiklərimizdən daha xeyirlidir. Həmçinin Allahın qulundan bəzi nemətləri əsirgəməsi o qullarını sevmədiyi mənasına da gəlməz. Necə ki, Həzrət Peyğəmbərin xanımı, ümmətin anası Həzrət Aişə anamızın da uşağı olmamışdı. Allahın bəzi nemətləri qullarından əsirgəməsi onların səbir edib ilahi təqdirə riza göstərərək Haqq qatındakı dərəcələrinin daha da yüksəlməsi və o nemətlərdən daha xeyirli və əbədi olan axirət mükafatlarına nail olmaları üçündür. Ona görə də daim ilahi qədərə səbir, şükür, həmd, riza və təslimiyyət halımızı qorumalıyıq.
3. İbn Həcər, *Fəthul-Bari*, XI, 98; Ayni, *Umdətul-Qari*, Beyrut ts. XXII, 277-278.
4. Qəzali, *Ehya*, III, 166.
5. Ali-İmran, 134.
6. İbnül-Cövzi, *Bəhrud-Dümu'*, s. 142.
7. Əbu Nuaym, *Hilyə*, III, 198.
8. Abdülmecid Hani, *el-Hadaikul-Verdiyye*, sf, 161-162, Rehber Yayıncılık, İstanbul 1986.
9. Bax. Buxari, Məzalim 10, Riqaq 48; Müslim, Birr 59; Tirmizi, Qiyamət 2; Əhməd, II, 303, 324, 372.
10. Əbu Nuaym, Hilyə, III, 194-195; Mizzi, Təhzibul-Kamal, V, 89.
11. Həmçinin bax. Buxari, Bədul-Xalq 10, Fitən 17; Müslim, Zöhd 51.

Mübariz ƏLİOĞLU

HƏR ŞEY QƏLBDƏN BAŞLAYIR

Uca Allah Qurani-Kərimdə belə buyurur:

"(Ya Peyğəmbər!) Nəfsini özünə tanrı edən və Allahın bilərəkdən (onu hələ yaratmamışdan gələcəkdə kafir olacağını bildiyi üçün) yoldan çıxartdığı, qulağını və qəlbini möhürlədiyi, gözünə də pərdə çəkdiyi kimsəni gördünmü? Allahdan başqa kim onu doğru yola sala bilər?! Məgər düşünüb ibrət almırsınız? (Haqqı bildiyi halda küfr edənin cəzası, haqqı bilmədən, cahilliyi üzündən küfr edənin cəzasından daha ağırdır. Çünki alimlə cahilin məsuliyyəti eyni ola bilməz!)" (əl-Casiyə, 23)

Bizləri xəlq edən Uca Allaha şükürlər və həmd-sənalar, göndərdiyi Rəsulu Muhammədə (s.ə.s) salətu-salam olsun.

Yaşadığımız böyük imtahan yurdu olan dünya həyatında maraqlı hadisələrə şahid olan insan övladı bu yurdun həqiqətini anlama yarışında ya haqqı təbliğ edən xilaskarlara, ya da batili həqiqət kimi təqdim edən əbədi fəlakət baiskarlarına yönəlməkdədir. "Kim Rəsula itaət edərsə Allaha itaət etmiş olur", (ən-Nisa, 80) və "Şübhəsiz sən doğru yola, Allahın yoluna götürməkdəsən" (əş-Şura, 52-53) deyə buyuran Allah-Təalanın özünə itaəti göndərdiyi Rəsuluna sözsüz bağlılıqla əlaqələndirməsi, Rəsulun hər bir hal və hərəkətinin insanlıq üçün bir qurtuluş mənbəyi olduğunu göstərir. Mübarək hədisində bu məqamı incə bir üslubla təqdim edən Allah Rəsulu belə buyurur: *"İstəməyənlər xaric, ümmətimin tamamı Cənnətə girər,- buyurur. Bunun üzərinə - Ey Allahın Rəsulu! Cənnətə girməyi kim istəməz ki?- deyə soruşan səhabə toplumuna və ümumən də Adəm övladlarına bunları söyləyir: Mənə itaət edənlər Cənnətə girər. Mənə qarşı gələnlər isə Cənnəti istəməyənlərdir"*. (Buxari, İtisan 2)

Digər tərəfdən də: **"Allahı unutduqları üçün Allahın da onları özlərinə unutdurduğu (xeyirlərini başa düşməyən) kimsələrə bənzəməyin! Onlar (Allahın itaətindən çıxmış) fasiqlərdir!"** (əl-Həşr, 19) – deyə buyuran Rəbbimizin bizi bir daha fəlakət dəllallarından uzaq durmağa səsləməsi, heç bir alış-verişin, heç bir dostluğun, heç bir şəfaətin olmayacağı o hesab gününə hazırlaşma istiqamətində qəfləti və durğunluğu tərk etməyə yönələn ciddi bir çağırışdır. Böyük İslam alimi Elmalılı Həmdi Yazır Əfəndi bu ayənin təfsirində belə deyir: *"Allahı (c.c) unudanlar Allahdan qorxmayan, hüququnu tanımayan və Onun sonsuz qorumasından da yardım diləməyənlərdir. Allah da onlara özlərini unutdurmuşdur. Onlar insan nəfsinin, bəşər hüququnun qiymətini anlamaz, adi şeylərə taparaq insanlığı zəlil edərlər. Ayrıca özlərini qurtaracaq xeyir işləri düşünməzlər. Əzabdan qoruyacaq əməllərə baş vurmayan bu zümrə hesab üçün də heç nə hazırlamaz"*.

Məhz bu dünyagörüşü öz mənliklərinə ölçüb-biçən qəflət dəllalları hər an olduğu kimi zəmanəmizdə də öz atlarını dördnala çaparaq qəflət mehini əsdirməyə davam edirlər. Keçən əsrin əvvəllərindən etibarən dünyanın az qala yarıdan çoxunda hakim mövqeyə gələn kommunizm ideologiyasının banisi Karl Marks öz əsərlərində belə yazırdı: "Hesab edirəm ki, insanın maddi-

mənəvi səviyyəsini müəyyən edəcək meyar onun malik olduğu məişətidir". Yəni insan maddi olaraq nəyə malikdirsə və ya ona təqdim edilən nemətlər hansı ölçü və keyfiyyətdədirsə, onun mənəviyyatı da həmin ölçü və keyfiyyət çərçivəsində olmalıdır. Qəlbdən doğan mənəvi məsuliyyət hissinin tamamən heçə endirilməsinə yönələn bu ideoloji taktikanın əsas məqsədi cansız robotlardan seçilməyən və yalnız ona təqdim edilən maddiyyatla nəfəs alan insan cəmiyyətinin ərsəyə gəlməsidir. Bu tip cəmiyyətlərin insan taleyində oynamış olduğu acınacaqlı rolunu isə yaxın dünya tarixinin qanlı səhifələrindən izləmək mümkündür. İnsanı insan edən qəlb aləminin öldürülməsinə yönələn, özlərinə xeyir vermək bir yana dursun, milyonlarla insanın əbədi taleyi ilə oynayan oyunbazların bütləşmiş mənəviyyat tablosu Qurani-Kərimdə belə təsvir edilir:

"Allahı qoyub qiyamətədək özünə cavab verə bilməyən bütlərə ibadət edən kimsədən daha çox (haqq yoldan) azmış kim ola bilər?! Halbuki bunlar (bu bütlər) onların (bütpərəstlərin) ibadətindən xəbərsizdirlər!" (əl-Əhqaf, 5)

Təbiidir ki, qəlbi möhürlənmiş olanlardan hər cür natamamlıq gözləmək mümkündür. Elə dünya şöhrətli fizioloq olan akademik Pavlovun qəlb haqqında söylədiyi fikirləri dövründə ört-basdır edənlər bütün cəhdlərə baxmayaraq alimi susdura bilməmişdilər. Pavlov deyirdi: "Mən söylədiklərimlə sübut edirəm ki, insan ürəyi nəinki qanı damarlara vuran mühərrikdir, o eyni zamanda ən mühüm hissiyyat orqanıdır. Ürəyə baxarkən siz onun olduqca çoxsaylı və mürəkkəb formada sinir telləri ilə əhatələndiyinin şahidi olacaqsınız. O, sinir sisteminin möhtəşəmliklə hörülmüş telləri ilə beyin və onurğa beyni ilə əlaqəyə malikdir. Başqa hissiyyat orqanlarının heç biri ürəkdəki kimi xarici qıcıqlandırıcıları hiss edəcək çoxşaxəli qəbuledici mexanizmə malik deyil". Pavlov qətiyyətlə təkrar edirdi: "Ürəyin anatomik-fizioloji təyinatı bizi bu bəyana məcbur edir: **Ürək insanın əsas hissiyyat orqanıdır**".

"Ən gözəl aqibət təqva sahiblərinindir" (əl-Qəsəs, 83)- deyə buyuran Rəbbimizin haqq Rəsulunun sinəsinə işarə edərək *"Təqva buradadır"*,- söyləməsi hər şeyin Allaha təslim olmuş qəlbdən, özü də diri bir qəlbdən başladığını göstərən şanlı dəlillərdir. Bu dəlillərdən ən heyrətvericisi də *"Məni nə yerim aldı, nə də səmam. Lakin bir mömin qulumun qəlbi Məni alır"* qüdsi hədisidir.

Qeyd etmək lazımdır ki, son dərəcə mürəkkəb dünya imtahanının şərtləri ilə üz-üzə olan insna övladı yalnız dərin bir anlayış iqlimi çərçivəsində ilahi qəzəbə səbəb olacaq məqamların həqiqətinə varmaqla bu rəzillikdən qurtula bilər. Ümmətinin əbədi səadəti üçün həyatı və ölümü belə sönməyən çırağa çevrilən Allah Rəsulu qəlb haqqında söylədiyi kəlamları ilə Adəm övladlarını diqqətli bir davranış mədəniyyətinə dəvət edir: *"Adəm oğlunun cəsədində bir ət parçası vardır. O xeyrə qovuşduğu təqdirdə bütün cəsəd xeyrə qovuşar. O fəsada uğradığı təqdirdə isə bütün cəsəd fəsada uğrayar. Diqqət edin, o ət parçası qəlbdir"*. Demək, Allaha qul olma bəxtəvərliyi, şərəfi, şanı Ona təslim olmuş qəlbdən başlayır. O qəlbdən ki, Rəbbimiz qulunu sevincə onun eşidən qulağı, görən gözü, tutan əli, yeriyən ayağı, danışan dili və idrak edən qəlbi olur. (Buxari, Riqaq 38) Bu mənaları təfəkkür aləminin baştacı edən Mahmud Sami Əfəndinin etirafları Adəm övladlarını qəlbdən başlayan qulluğa səsləyən əmsalsız bir irşad nümunəsidir: "Qəlbin yaradılış səbəbi mərifət və tövhidlə məşğul olmaqdır. Dilin vəzifəsi isə şəhadət və Quran tilavəti ilə məşğul olmaq, insanların eyiblərini danışmamaq, insanlara yumşaq və könülalıcı bir üslubla xitab etməkdir. Hər bir əzanı yaradılış məqsədinə görə istifadə etmək xüsusunda Allaha verdiyi sözü tutmayan adam Onun qəzəbinə uğrayar".

Doğrudan da: *"Allah sizin üzlərinizə və mallarınıza deyil, qəlblərinizə və əməllərinizə baxar"*. (Müslim, Birr 34)

Saleh ŞİRİNOV
salehsirin@hotmail.com

İLAHİ DƏVƏT
AZAN



Qulluğun əsası Allaha hörmət etməkdir. Hörmət halı nə qədər qüsursuz olarsa, ibadət də o qədər kamil olar. Allahın yer üzündə bəzi nişanələri vardır ki, onlara hörmət və məhəbbət bəsləmək, Allahı sevib Ona təzim etmək mənasına gəlir. O əlamətlərə hörmətsizlik isə, Allah-Təalaya hörmətsizlik mənasını daşıyır. Bunlar Qurani-Kərim, Kəbə, peyğəmbər, azan, namaz, qurban, Səfa və Mərvə kimi Allaha yaxınlıq hissi oyadan əlamət və işarələrdir.

İslamın mühüm əlamətlərindən biri də **azan**dır. Azan vasitəsilə İslamın əsasları gündə beş dəfə yüksək səslə elan edilərək imansızlar imana, müsəlmanlar da camaatla ibadətə və birliyə dəvət edilir.

Bir yerdə azan oxunanda, əslində orada müsəlmanların varlığı və həmin bölgənin İslam torpağı olduğu elan edilir.

Azan peyğəmbərlik vəzifəsinin davamıdır. Çünki o, dinin ən böyük rüknü və bütün ibadətlərin əsası olan namaza çağırışdır. Allah-Təala azanla bəndələrini hüzuruna dəvət edir. Buna görə də azan Allahın bəndələrinə verdiyi dəyəri göstərir.

Doğulanda qulağına azan oxunan uşaqlar, mənəvi tərbiyənin ilk əsasını bu ilahi dəvətdən alırlar. Bir sözlə, azan müsəlmanların hörmət etdiyi vacib nişanələrdən biridir. Azan namaza edilən dəvətdir.

Lüğət mənası eşitdirmək, bildirmək, elan etmək deməkdir. Termin mənası isə, fərz namazların vaxtlarını bildirən, xüsusi sözlərdən ibarət elan deməkdir. Azan oxuyana "müəzzin" deyilir.

Azan məşru qılınmamışdan əvvəl (hicrətin birinci ilində) səhabələr müntəzəm şəkildə məscidə toplaşaraq camaatla namaz qılardılar. Yaxud namaz vaxtları girəndə bir nəfər küçələrdə sürətlə gəzişər və: "Əssaləh, əssaləh / namaza (buyurun) namaza!" deyərək möminləri namaza çağırardı. Gün keçdikcə möminlərin sayları çoxalıb yaşayış yerlərinin

genişlənməsi, namazın elan edilməsini çətinləşdirdi. Hz. Peyğəmbər (s.ə.s) əshabla bu məsələni müzakirə etdi. Əshabın bu xüsusda gördüyü yuxuları Peyğəmbərimizin də təsdiqləməsi ilə azan bugünkü şəkli ilə qəbul edilərək oxundu və qiyamətə qədər də davam edəcəkdir inşallah.

Azan səsinin çatdığı yerlərdə cin, insan, mələk, daş və ağac – hər şey qiyamət günü müəzzinin lehinə şahid olacaqdır (Buxari). Müəzzinlər Rəbbimizin ismini xalqa elan edib, onları ibadətə çağırdıqları üçün, qiyamət günü Allah-Təala da onları ucaldacaqdır. Bir hədisi-şərifdə belə buyurulur: *"Müəzzinlər qiyamət günü insanların ən uzun boylu(olacaq)dır."*

Azanın bir çox faydaları vardır. Bunların ən başda gələni, azan oxunan yerdə müsəlmanların varlığının elan edilmiş olmasıdır. Həmçinin ibadət vaxtının girdiyi müsəlmanlara azanla xəbər verilir. Azan müsəlmanları camaat olmağa və bir yerə yığışmağa, vəhdət olmağa səsləyir. İslamın əsas hökmləri bütün insanlara gündə beş dəfə azan sayəsində açıq şəkildə eşitdirilir.

Qurani-Kərimdə azana bu ayələrlə işarə edilir: **"Siz (bir-birinizi) namaza çağırdığınız zaman onlar onu oyun-oyuncaq sayarlar. Bu, onların anlamaz bir tayfa olmalarındandır."** (Maidə 58).

Buna görə də azana hörmətsizlik insanı hər zaman pis aqibətə düçar edər.

Azana göstəriləcək hörmətin ilk təzahürü onu dəstəmazlı olaraq oxumaqdır (Tirmizi). Başqa bir dəyəri də, müəzzinlə birlikdə azanı təkrar etməkdir. Belə edən möminlər müəzzinin aldığı qədər savab qazanar və Allahdan bir şey istəyərsə, dualarına cavab verilər. Yəni ki, oxunan azanı eşidən bir müsəlman, laqeyd qalmamalıdır. Azan oxunarkən bizim vəzifəmizi Əziz Peyğəmbərimiz (s.ə.s): *"Azanı eşitdiyiniz vaxt Allahın dəvətçisinə icabət edin"* (Təbərani) əmri ilə açıqlamaqdadır.

Oxunan azana icabət iki cürdür; Feili və qövli (sözlə). **Feili icabət** dəstəmaz alıb məscidə tələsməkdir. Allah-Təala bəndələrini hüzuruna çağırarkən, mən müsəlmanam deyən bir bəndə, necə bu ilahi dəvətə laqeyd, hərəkətsiz və hissiz qala bilər ki?! Belə anda müsəlmanam deyən hər kəsin borcu dəvət edilən məscidə getməkdir. **Sözlə icabət** müəzzinin söylədiklərini təkrarlamaqla olur. Oxunan azanın sözlərini müəzzinin ardından təkrar etməkdir. Lakin "hayyə aləs-saləh və həyyə alel-fələh" deyilərkən, "lə havlə və lə quvvətə illə billəhil-aliyyil azim" , səhər namazında "əssalətu xayrun-minən-nəvm" deyilərkən "sadəqtə və bərartə" deyib, digərlərini eynilə təkrar etmək lazımdır. Peyğəmbərimiz (s.ə.s) bu xususda buyurur ki: *"Kim müəzzini dinləyər və onun söylədiyi kəlamın eynisini söyləyərsə (təkrarlayarsa), ona cənnət vardır."* (Təbrani).

Azan peyğəmbərlik vəzifəsinin davamıdır. Çünki o, dinin ən böyük rüknü və bütün ibadətlərin əsası olan namaza çağırışdır. Allah-Təala azanla bəndələrini hüzuruna dəvət edir. Buna görə də azan Allahın bəndələrinə verdiyi dəyəri göstərir.

Azan oxunduqdan sonra Peyğəmbərimizə salavat gətirilir və hədislərimizdə öyrədilən dualar oxunur.

Dinin əlaməti olan azanı bu bu şəkildə təkrar edib duaları oxuyan insan İslama daxil olub Allaha boyun əydiyini və Ona itaət etdiyini göstərir. Bütün qəlbilə ilahi dəvəti qəbul edir və ona tabe olur.

Azana göstərilən başqa bir hörmət nümunəsi isə azan oxunarkən başqa bir şeylə (müəzzinin sözlərini təkrar etmək xaric) məşğul olmamağa çalışmaqdır. Bu, həmin anda daha fəzilətli bir əməldir. Bir neçə məsciddə azan oxunduqda, sadəcə bir məscidin azanına icabət edilməsi yetərlidir.

Azanın fəzilətinə dair Peyğəmbərimizin (s.ə.s) hədisi ilə mövzunu yekunlaşdıraq: *"İnsanlar azan oxumağın və namazı birinci səfdə qılmağın nə qədər fəzilətli olduğunu bilsəydilər və sonra da püşk atmaqdan başqa çarə tapa bilməsəydilər, şübhəsiz, öz aralarında püşk atardılar."* (Buxari, Müslim).

Prof. Dr. Nevzat Tarhan:
DİGƏR CANLILARA ZÜLMÜN TƏMƏLİNDƏ İNSANIN MÜQƏDDƏSLƏŞDİRİLMƏSİ DÜŞÜNCƏSİ YATIR

Aprelin 13-də ölkəmizdə səfərdə olan Prof. Dr. Nevzat Tarhan redaksiyamızı ziyarət etmişdir. Görüş çərçivəsində müsahibə alma fürsətimiz oldu.

Nevzat Tarhan kimdir?

Prof. Dr. Nevzat Tarhan 1952-ci ildə Merzifonda dünyaya gəlib. 1969-cu ildə Kuleli Askeri Lisesindən, 1975-ci ildə isə İstanbul Universiteti Cərrahpaşa Tibb Fakültəsindən məzun oldu. GATA (Gülhane Askeri Tıp Akademisi) stajı, Kipr ve Bursa kıta xidmətlərindən sonra 1982-ci ildə GATAda psixologiya mütəxəssisi oldu. Ərzincan və Çorluda xəstəxanada həkim kimi fəaliyyət göstərdikdən sonra GATA Heydərpaşada yardımcı dossent (1988) və dossent (1990) oldu. Klinikada direktor olaraq çalışdı. Polkovnik (1993) və professor (1996) rütbəsi almışdır. 1996-1999-cu illərdə Yüzüncü Yıl Universitetində akademik fəaliyyətləri ilə məşğul oldu və Ədli Tibb Qurumunda ekspert olaraq çalışdı. Könüllü olaraq təqaüdə ayrıldı və 1998-ci ildə Memory Center of America'nın Türkiyə təmsilçiliyini aldı.

Hal-hazırda Türkiyənin ilk nevropsixoloji xəstəxanası olan NPİSTANBUL Nöropsikiyatri Hastanesinin idarə heyətinə rəhbərlik edir. Eyni zamanda ÜSKÜDAR UNİVERSİTETİnin təsisçi rektorudur.

Onlarla kitabın və yüzdən artıq məqalənin müəllifidir. İngilis və alman dillərini bilir. Evlidir, iki övladı var.

İrfan: ***Müasir dövrdə insanlarda eqoizmin həddən artıq çoxaldığını, ənaniyyət dərəcəmizin getdikcə artdığını görürük. Sizcə bunun səbəbi nədir?***

Prof. Dr. Nevzat Tarhan: Zəmanə insanında xüsusilə iki xəstəlik müşahidə olunur. Birincisi eqoizm, ikincisi konformizm. Bu gün elə insanlar yetişir ki, təəssüf ki, bu insanların həyatlarında ən böyük dəyərləri / hədəfləri eqoistlik olur. Bu zəmanə ənaniyyət zəmanəsidir, eqoizm zəmanəsidir... Bunun səbəbi fərdiləşmənin eqoizm kimi qəbul edilməsidir.

Bildiyiniz kimi Avropada intibah dövründən sonra humanist cərəyanlar baş qaldırdı. "İnsanın mənfəəti ən müqəddəs mənfəətdir. İnsan təbiətə hakim olmalıdır.

Təbiətə hakim olmaq üçün də hər şey edə bilərik"- deyə yola çıxan insan "digər insanlara da hakim ola bilərik" anlayışını əsas götürməyə başladı. Bu düşüncə bir çox insan tərəfindən öz irqlərinin mənfəətləri üçün istifadə edilmişdir. Keçən əsrimizin Hitler faşizmi də bu anlayışa dayanırdı.

Humanizm insanı müqəddəsləşdirməkdədir. Bunun müsbət yönü olaraq azadlıq və fərdiləşmə hərəkətlərini təşəbbüs və özünə inama səbəb olduğunu söyləyə bilərik. Mənfi yönü isə ondan ibarətdir ki, insanı müqəddəşləşdirdiyi üçün digər canlılara, heyvanlara və digər məxluqlara qarşı dəyər verməməyə və bu anlayışa sahib olan insanlar öz mənfəəti üçün başqalarına zərər verə bilməyi təbii qəbul etməyə başlamış, öz haqqını ucaldan bir anlayış ortaya çıxmışdır. Başqalarının haqqını kiçik görən, öz haqqını üstün tutan bir fərdiləşmə anlayışı bizi eqoizmə götürmüşdür.

Mənlik insanda başqalarına rəğbəti yox etdi və sosial duyğulara zərbə vurdu. Fərdiləşmə asanlıqla mənliyə çevrildi. Əslində fərdiləşmənin də bir sərhədi olmalıdır... Azadıq, amma məsuliyyət daşıyırıq.

Dünyadakı azadlıq hərəkatının başlaması, liberal cərəyanların sürətlənməsi fərdiləşmə ilə birbaşa əlaqəlidir, amma bunlara bir sərhəd qoymağı bacarmadığımız üçün eqoist, özünü bəyənmiş insanların fərdiləşən dövlətlərindən meydana gələn qurplar ortaya çıxdı. İnsan oğlu eqoistliyin cəzasını yalnızlıq və bədbinliklə ödəyir bu gün.

- Elə isə mənliyimizi necə tərbiyə edə bilərik?

- Psixologiyada mənliyi tərbiyə etmək üçün "özünü idarəetmə" adı verilən bir metod var. Öncə şüur, daha sonra özünü idarəetmə... Şüur; deyilən sözün fərqində olmaqdır. Burada önəmli olan təkhakimiyyətlilikdir. İnsan öz mühakimələrinə qarşı bağlı qalmamalıdır.

Avropada intibah dövründən sonra humanist cərəyanlar baş qaldırdı. "İnsanın mənfəəti ən müqəddəs mənfəətdir. İnsan təbiətə hakim olmalıdır. Təbiətə hakim olmaq üçün də hər şey edə bilərik"- deyə yola çıxan insan "digər insanlara da hakim ola bilərik" anlayışını əsas götürməyə başladı. Bu düşüncə bir çox insan tərəfindən öz irqlərinin mənfəətləri üçün istifadə edilmişdir. Keçən əsrimizin Hitler faşizmi də bu anlayışa dayanırdı.

Fərdi inkişaf metodlarının yanlışlarından biri də insanı xudpəsənd dünyagörüşünə yönləndirməsi, eqoistləşdirməsidir. "Sən yaxşı insansan, gözəl insansan, hər şeyə layiqsən" fəlsəfəsinin hakim olduğu fərdi inkişaf kursuna gedən bir insan "gör, mən nəyəm" hissi ilə özünü başqa, mötəbər və üstün görməyə başlayır. Belə olanda da hər kəsə təbəssüm edir, gözəl söz deyir, amma özünü tərbiyə etmir, hər kəslə gözəl rəftar etsə də, əslində bunu rola girdiyi üçün edir, inanmadan edir. Özündə heç bir mənfi xüsusiyyətlərin olmadığnı hesab edir, yalanlarının, acgözlülüyünün, qısqanclığının olmadığına qərar verir. İnsan müsbət və mənfi hisslərin vəhdətindən meydana gələn bir varlıqdır. Mənfi hisslərinizin olmadığını düşünürsünüzsə, bu hisslər başqa şəkildə sizin davranışlarınıza təsir edər.

Eqoist insanda ruhi korluq vardır, reallıq korluğu vardır və öz xətalarını göməz. Bilirsiniz bu nəyə bənzəyir? Bir komandir

müharibəyə gedir, ancaq öz ordusunun zəif cəhətini bilmir. Qarşı tərəfdəki komandir onun zəif cəhətini bilirsə, zəif tərəfinə hücum edib ona qalib gəlir. İdeal komandir düşməninin zəif cəhətləri ilə yanaşı kimi, özünün də zəif cəhətlərini və güclü cəhətlərini bilir. Davranışını ona görə tənzimləyir.

- Son dövrlərdə qadınların da çalışması ilə ailələrdə "mənim pulum, mənim avtomobilim, mənim evim..." kimi məfhumlarla tez-tez rastlaşırıq. Bu mənlik düşüncəsindən sıyrılıb necə "biz" olacağıq? Sizə görə, evlənəcək cütlüklərin "biz" duyğusunu əldə etmək üçün mənliyindən uzaqlaşmaları lazımdırmı?

- Evlənmədən əvvəl bəşəri münasibətlərini təkbaşına həyata keçirən adam evləndikdən sonra artıq iki nəfərlik düşünmək məcburiyyətindədir. Yəni iki gözlə deyil, dörd gözlə, dörd qulaqla hərəkət etmək məcburiyyətindədir. Bir insan "Həm evli olacağam, həm də azad olacağam" deyirsə, bu, evliliyin təbiətinə ziddir.

İnsan evlənəndə azadlığını fəda etməlidir. Hətta bunun üçün H2O misalını veririk. Hidrogen və oksigen təbiətdə sərbəst, azad olduğu halda bir araya gələndə azadlıqları sona çatır, ancaq su olurlar, fərqli bir həyat mənbəyinə çevrilirlər, yeni bir xoşbəxtlik ortaya çıxır və yeni bir nizam meydana gətirirlər. Evlillikdə də insanın bunu düşünməsi lazımdır.

"Evləndikdən sonra həm istədiyim kimi yaşayaram, həm də istədiyimi edərəm. Bu mənim həyatımdır, heç kim qarışa bilməz!" deyirsinizsə, həmişə qarşı tərəf fədakarlıq edər. Bizim adət-ənənəmizdə kişi evləndikdən sonra qadına əli altındakı malı kimi baxmağa başlayır, daha sonra "Artıq istədiyim kimi istifadə edərəm" tərzində hərəkət edir və istədiyi kimi hərəkət edəcəyini düşünür. Bu gün qadının azadlığa qovuşduğu dövrdə yaşıyırıq. XX əsrin ikinci yarısı və XXI əsr qadının azadlıq hərəkatının vüsət aldığı bir dövrdür. Belə vəziyyətdə kişi qadının istəklərini başa düşməzsə, mübahisə baş verir və ailədaxili məişət zorakılığı ortaya çıxır.

- Əfəndim, qadın azadlığından söz düşmüşkən, çılpaqlığın artması, azadlıq adı altında qadının özünü istədiyi kimi nümayiş etdirməsi, medianın qadını cinsi əmtəə kimi təqdim etməsi və qadını "analıq" yerinə "şəhvət" məqamına qoyması nə dərəcədə doğrudur?

-Təəssüf qadının azadlıq hərəkatı qadının küçəyə çıxma hərəkatı olaraq qəbul edildi. Əslində qadının azadlıq hərəkatı deyəndə qadının analıqdan vaz keçməsi, analıq vəzifələrinə laqeyd yanaşması nəzərdə tutulmurdu. Yəni qadın həm yaxşı bir ana ola bilər, həm də işləməsi zəruridirsə, yaxşı bir həyat yoldaşı da ola bilər, yaxşı bir iş qadını da ola bilər. Bunları etmək əhəmiyyətlidir, ancaq qadının azadlıq hərəkatı qadının dişiliyini sərgiləmə hərəkatı deyil.

Kişi fiziologiyası ilə qadın fiziologiyası fərqlidir. Kişi fiziologiyasının əks cinsə qarşı düşünmə mərkəzində erotizm üstünlük təşkil edir. Qadın beyni isə erotizmi deyil, romantizmi daha çox düşünür. Yəni qadın-kişi əlaqələrində romantizm hissləri daha çox ön plana çıxar. Kişi fiziologiyasında isə şəhvət duyğuları ön plana çıxır. Bir təcrübədə qadın və kişinin əlinə xüsusi cihaz verilir. "Cinsi istək ağlınıza gələndə dərhal düyməyə basın"- deyilir. Günün sonunda psixoloji tələblər təcrübə nəticəsində araşdırılır və alınan nəticəyə görə kişilərin ağlına beş dəfə daha çox cinsi istək gəldiyi məlum olur. Yəni kişi beyni şəhvəti daha çox qəbul edən bir beyindir. Ona gördə

qadınlar bu haqda məlumat sahibi olmalı və yanlış anlaşılmaya səbəbiyyət verən davranışlardan çəkinməlidirlər. Əks halda cinsi təcavüzün artması kimi bir hal ortaya çıxır. Bu düstur heç vaxt unudulmamalıdır:

"Qadın sosial həyatda qadınlığına görə deyil, şəxsiyyətinə görə var olmalıdır".

- Sizcə mütləq azadlıq düşüncəsi ailə həyatının qurulmasına necə təsir edir? Yəni insan "Mən azad olmaq istəyirəm!" deyərək evlənməyi təxirə salır və ailə məsuliyyətindən boyun qaçırır. Bu mənada azadlıq və evlilik eyni damın altında ola bilərmi? Evlilik niyə əsarət kimi qəbul edilir?

- Evlilik qanununda həyat yoldaşına hesab vermə duyğusu vardır, iki tərəf üçün də bu keçərlidir. Bu, birlikdə olmağın tələbidir. Evlilik həyatında xanıma və uşaqlara qarşı məsuliyyət duyğusu vardır. Əgər insan bu məsuliyyəti daşımırsa, "Bu mənim həyatımdır, sən qarışma!"- deyirsə, deməli, xanımına kölə kimi baxır. Bu, qarşı cinsi kölələşdirməkdir. Qadın üçün də, kişi üçün də keçərlidir. "Mən ürəyimin istədiyini edəcəyəm!" deyən evlənməsin. Çünki belə bir vəziyyətdə zərbə uşaqlara dəyir, bu uşaqlar cəmiyyətə faydasız vətəndaşlar olur, dağılmış ailələr ortaya çıxır, qarşılıqlı mübahisələrin olduğu ailələr ortaya çıxır, uşaq sağlam yetişmir. Evlilikdə azadlıq və məsuliyyətin tənzimlənməsi önəmlidir, evlilik rolu bunu tələb edir, çünki bu, fərqli bir xoşbəxlik meydana gətirir.

"Evliliyə inanmıram!" deyən bir nəfər vardı, böyük danışdı, daha sonra evləndi, amma arvadının psixoloji ethtiyaclarını qulaqardı edirdi. Mənə gəlib "Niyə evlənməliyəm?"- deyə soruşmuşdu, mən də "Həyatının sonunu qocalar evində keçirmək istəmirsənsə, evlən"- demişdim. Təbii ki, gülmüşdü.

Bir insan "Həm evli olacağam, həm də azad olacağam" deyirsə, bu, evliliyin təbiətinə ziddir. İnsan evlənəndə azadlığını fəda etməlidir. Hətta bunun üçün H2O misalını veririk. Hidrogen və oksigen təbiətdə sərbəst, azad olduğu halda bir araya gələndə azadlıqları sona çatır, ancaq su olurlar, fərqli bir həyat mənbəyinə çevrilirlər, yeni bir xoşbəxtlik ortaya çıxır və yeni bir nizam meydana gətirirlər. Evlillikdə də insanın bunu düşünməsi lazımdır.

İnsanlara, xüsusilə də kişilərə; əgər pul, güc də varsa, həyat həmişə belə olacaqmış kimi gəlir. Amma xəstəliklər var, müsibətlər var, bədbəxt hadisələr var. Böyük şəklə baxanda xoşbəxtlik, o ankı xoşbəxtlik deyil. O həyatın sonuna gəldiyi zaman ümumi xoşbəxliyinə baxanda evlilikdə olan xoşbəxtlik daha üstün bir həyatdır. Bunun üçün də səy göstərmək lazımdır. Evliliyi əsarət olaraq görməyəcəksən. Evlilik sadəcə insanın daha intizamlı yaşamasını təmin edir. Düzdür, bu qayda-qanunun bir çətinliyi var, amma intizamlı yaşamağın da gözəl nəticələri var. Məsələn, insanın övladının böyüməsini gözləri ilə görməsi nə qədər gözəl hissdir. Unutmamaq lazımdır ki, bütün xoşbəxtlikləri bir anda yaşamaq fikri gözəl bir fikirdir, ancaq bu həqiqət də deyil, mümkün də deyil.

- Dəyərli vaxtınızı bizə ayırdığınız üçün bütün oxucularımız adından təşəkkür edirik.

- Mən də öz növbəmdə sizə təşəkkür edirəm.

Eldar KƏRİMOV
eldarkerimli@gmail.com

Qırmızı işıqlar

O yuxudan ayılanda artıq gec idi. Əl-üzünü tez yuyub səhər yeməyi yemədən özünü tələsik maşınına çatdırdı. İşdəki önəmli toplantının başlamasına bir neçə dəqiqə qalmışdı. Hər gün öz maşınıyla bağcaya apardığı balaca qızı Zəhranı da anası servislə yola salmışdı. Bazar ertəsi, şəhərin hər yerində izdiham yaşanırdı. Küçələrdə maşın əlindən tərpənmək olmurdu. Nə qədər tez sürüb getmək istəsə də alınmırdı. O maşının əyləcinə basıb, işıqforun qırmızı işığında dayandı. Arxadan gələn maşınlar da ardarda bir-birini izləyirdilər. Maşını aldığı gündən onu bütün yol hərəkəti qaydalarına riayət edərək idarə edirdi. Amma bu gün artıq hövsələdən çıxmışdı. Əlacı olsaydı heç bir qaydaya riayət etmədən hərəkətə davam edərdi. Yaşıl işığın yanmasını gözləmədən sarı işıq yanar-yanmaz hərəkətə davam etdi. Çox həyəcanlı idi. İşə gecikməsi onun karyerasına həddindən artıq çox mənfi təsir göstərəcəkdi. Buna görə də növbəti işıqforun qırmızı işığında dayanmadan keçmək qərarına gəlmişdi. Elə bu düşüncəylə maşının sürətini bir az da artırdı.

Uzaqdan yaşıl işıqda keçə bilməyəcəyini anlamışdı. İlk dəfə yolu qırmızı işıqda keçəcəkdi. Yolun boş olacağını düşünürdü. Məsafə yaxınlaşır, sürət çoxalırdı. O sadəcə özü haqqında düşünürdü. Birdən maşının qarşısında peyda olan avtobus onun ağlını başından almışdı. Hər şey bir anda baş vermişdi. Svetoforun qırmızı işığında yüksək sürətlə keçib, yaşıl işıqda öz yoluyla gedən avtobusa çırpılmışdı. Başında şiddətli ağrılar hiss edirdi. Qana bulanmış təhlükəsizlik yastığından başını qaldırıb ətrada nəyin baş verdiyini anlamağa çalışırdı. Hamı o yan-bu yana qaçışırdı. İnsanların qışqırıq səsləri bir birinə qarışmışdı. Bədəninə yapışmış sükandan çətinliklə aralanıb, özünü maşından çölə atdı. Bütün işlər bir-birinə qarışmışdı. Artıq işə tələsmirdi. Bütün bu

hadisələr sadəcə onun səhvi ucbatından baş vermişdi. Yavaş-yavaş özünü toplayıb insanların qışqıraraq qaçdığı avtobusa tərəf getdi. Hər kəs qucağında bir körpə uşağı xilas etməyə çalışırdı. O hələ heç nə düşünə bilmirdi. Amma cavan oğlanın qucağında məsum yanaqlarından qan süzülən körpə, qızı Zəhraya oxşayırdı. Oğlana yaxınlaşdıqca fikri qətiləşirdi. Həqiqətən bu Zəhra idi. O öz maşınıyla bağça uşaqlarını daşıyan servis avtobusuna çırpılmışdı. Hər yer qan gölünə çevrilmişdi. Ətrafı günahsız körpələrin bədənləri ilə dolu idi. Qızını son dəfə alırdı qucağına. Ağlamaq, qışqırmaq istəyirdi, amma gözündən yaş, boğazından səs çıxmırdı. Öz körpə balasının qatili özü idi. Heç kim ona baxmırdı. Nə səsini eşidən, nə də köməyinə çatan var idi. Qucağındakı uşağın soyuq bədəni qollarına dəydikcə tirtrəməyə başlamışdı. Artıq dözə bilmirdi.

Öz qışqırığından qorxub yuxudan dəli kimi oyandı. O dəqiqə gözləri yanındakı kiçik çarpayıda mışıl-mışıl yatan Zəhraya zilləndi. Dərindən nəfəs alıb saata baxdı. Səhər namazının vaxtının girməsinə iyirmi dəqiqə qalmışdı. Bir ay idi ki, səhər namazlarına qalxa bilmirdi. Bu gün qalxmalı idi. Çünki hər şey hər an yuxuda gördüyü kimi ola bilərdi. Həyatında Allahın qarşısına qoyduğu qırmızı işıqlardan dəfələrlə keçmişdi. Bunun müsibətlərinə heç əhəmiyyət belə vermirdi. Necə ola bilərdi ki, insan bu dünyada svetoforun bir qırmızı işığında keçməklə başına gələcək müsibət haqqında düşünür, amma Allahın qoyduğu qadağaları keçdiyi zaman başına heç bir bəlanın gələcəyinə inanmırdı. "Yollarımızda qoyulan yol hərəkəti qaydaları nizamlı hərəkətin formalaşmasına xidmət etdiyi kimi, Allahın qoyduğu əmr və qadağalar da iki dünya həyatımızın da gözəlləşməsinə xidmət edir. Heç bir iş, ən önəmli hadisə belə Allahın əmrlərinə qarşı gəlməyə əsas vermir. Onun bizə bildirdiyi haramlar bir növ qırmızı, halallar isə yaşıl işıqlardır. Yalnız vaxtı bizə verənə vaxt ayırmaqla həyatımızı gözəlləşdirə bilərik." deyə özözüylə danışırdı. Bütün bunlardan sonra gözünə yuxu gedə bilməzdi. Zəhranın çarpayısına yaxınlaşdı və alnından öpdü. Dəstəmaz alıb, Allahın qarşısında səcdəyə qapandı.

Unutmayaq ki, bir gün qırmızı işıqda keçə bilərik və bu zaman heç bir qəza da olmaya bilər. Amma təhlükəsizlik kameralarına bu hərəkətimiz tuş gəlibsə, cəriməmiz unvanımıza gələləcəkdir. Elə mənəvi dünyamız da ondan çox fərqlənmir. Belə ki, biz Allahın bizə qadağa buyurduğu hər hansı bir işi ediriksə və başımıza hər hansı bir müsibət gəlmirsə, bu o demək deyil ki, biz artıq qurtulduq. Əsla!

Bəli, bu dünyada heç nə əbəs yerə baş vermir. Hər şeyin öz rolu, hər kəsin öz həyatı var. Ən əsası da bu həyata nizam verən, taleyimizi yaxşıya doğru dəyişdirən Allahın müqəddəs kitabı Qurani-Kərimdə bizlərə bildirdiyi əmrlər və qadağalardır. Bir gün peşman olmadan elə bu gündən başlamalıyıq onlara riayət etməyə. Unutmayaq ki, bir gün qırmızı işıqda keçə bilərik və bu zaman heç bir qəza da olmaya bilər. Amma təhlükəsizlik kameralarına bu hərəkətimiz tuş gəlibsə, cəriməmiz unvanımıza gələləcəkdir. Elə mənəvi dünyamız da ondan çox fərqlənmir. Belə ki, biz Allahın bizə qadağa buyurduğu hər hansı bir işi ediriksə və başımıza hər hansı bir müsibət gəlmirsə bu o demək deyil ki, biz artıq qurtulduq. Əsla! Çiyinlərimiz üzərində hər an etdiklərimizi qeyd edən mələkləri unutmayaq. Cəriməsi sonradan gəlmədən, qaydaları pozmamağa çalışaq!

Aqil ƏLİYEV
aaqil77@mail.ru

Milli və Mənəvi Sərvətimiz

30 may – M. Ə. Sabirin vəfatının ildönümünə

Azərbaycan ədəbiyyatı tarixində şərəfli yerə sahib olan böyük simalardan biri Mirzə Ələkbər Sabirdir (1862-1911). Bu görkəmli şairimizin əhatə və təsir dairəsi çox geniş olmuşdur. Tədqiqatlar göstərir ki, o əsrimizin əvvəllərində yalnız Azərbaycanda deyil, Yaxın və Orta Şərqin bir sıra ölkələrində xalq azadlığı hərəkatına, ictimai satiranın inkişafına təsir göstərmiş bir çox satirik şairlər üçün nümunə olmuşdur. Hələ dahi şairin sağlığında onun əsərləri yerli mətbuatla yanaşı, Tiflis, Peterburq, Həştərxan, Səmərqənd, İstanbul kimi şəhərlərdə çıxan yerli qəzet və jurnallarda dərc olunmuş və böyük şöhrət qazanmışdır.

Belə bir məşhur şair haqqında yazmaq, onun əsərlərindəki ictimai və dini məsələləri təhlil etmək təbii ki, ağır işdir. Ancaq bu böyük şairə olan sevgi, onun əsərlərindəki bu günümüzlə də sıx bağlı olan tənqidi və eyni zamanda ibrətli sətirlərlə tanışlığım, şairi ürəkdən sevən bir dostumuzun da istəyi, məni bu haqda yazmağa vadar etdi.

Sabir öz sələflərinin, ilk növbədə, Xaqanı, Nizami, Füzulidən Seyid Əzim Şirvaniyə qədərki doğma Azərbaycan poeziyasının və habelə, Firdovsi və Xəyyamdan başlamış XX əsrin tərəqqipərvər şairlərə qədərki klassik Şərq ədəbiyyatının ən yaxşı mütərəqqi ənənələri əsasında yetişmişdi. İlk mətbu şeiri 1903-cü ildə "Şərq – Rus" qəzetində çıxmış, daha sonra isə "Molla Nəsrəddin" jurnalı ilə geniş vüsət almışdır. Şairin qələm dostu Abbas Səhhət bu haqda belə deyirdi: *"Molla Nəsrəddin meydana çıxınca artıq hər sahibi-zövq Sabir əfəndinin ondakı nümuneyi-əşarına məftun olmaqdan kəndini alamadı. O gözəl şerləri oxuyub da anlayanlar, o gözəlliklərin* zövqünə, fərqinə varanlar onları hifz etməyə həvəs etdilər. Şairlərimiz, yaxud mütəşairlərimiz o şiveyi-müstəhsəndə yazmağa, təqlidə başladılar. Daha bilmərrə köhnə üslub tərk olundu... Sabir əfəndi müqəllid deyil, bəlkə öylə mücəddid ki, köhnə şerlər ilə yeni şerlər arasında bir əsrlik uçurum açdı ki, bir daha geri dönüb də o uçurumu atlamağa kimsədə cürət qalmadı."

Sabirin mövzu dairəsi geniş, tiplər silsiləsi zəngin, təsvir və səciyyələndirmə üsulları orjinal və rəngarəngdir. Dərin müşahidə qabiliyyətinə malik olan, təsvir etdiyi hadisələrin mahiyyətinə ecazkar şəkildə nüfuz edən böyük şairin satiralarında dövrün mühüm problemləri öz əksini tapmışdır. Şeirə ilk dəfə, fəhlə həyatı və onların acınacaqlı vəziyyətini, Azərbaycan kəndlisinin ağır həyat şəraitini, millətin dəhşətli zülm və istismarını, çarizmin və mülkədar qruluşunun ifşası, dini mövhumat, xurafat və cəhalətin,

qadın əsarətinin tənqidi, gənc nəslin təlim və tərbiyəsi, ana dili və ictimai-mədəni tərəqqi ilə mübarizəni Sabir gətirmişdir. Elə bu məsələlərin bəziləri bu gün də problem olaraq qaldığı üçün, şairin əsərləri öz təravətini və təzələiyini qorumaqdadır.

Bir bölük boşboğazıq, heyvərəlik adətimiz,
Doludur lənət ilə, qeybət ilə söhbətimiz,
Oxumaqdan payımız yox, yazıdan qismətimiz,
Bu avamlıqla belə hər sözü təfsir edəriz,
Yeri gəldikdə müsəlmanları təkfir edəriz.

Bəziləri elə zənn edirlər ki, Sabir dinə qarşı olub. Əslində bu belə deyildir. Sabir klassik mollaxana təhsilindən bir fayda almayınca, sonralar İslam dininin əsil həqiqətlərini öyrənərək, heç də bu dinin əvvəllər ona öyrədilən xurafatla əlaqəsi olmadığını görmüşdü. Bu işdə ona müəllimi Seyid Əzim Şirvani də yol göstərənlərdən biri olmuşdur. Sabir İslamı bu dinin tələb etdiyi kimi elm və hikmətlə öyrənməyə və həyatında tətbiq etməyə başladı. SSRİ dövrünün tədqiqatçılarının Sabiri bəzən dini tənqid edən şair kimi təqdim etməsi, şairin öz əsərləri ilə təkzib edilir. O, ömrünün sonuna qədər dindar olub. "Dini don" adı altında insanları aldadanlara qarşı həcvlər yazdığı üçün bolşevik və atesit ideoloqları bu cür şeirlərdən sui-istifadə edərək, onsuz da İslam dini haqqında az məlumatlı olan oxuculara Sabirin din əleyhdarı kimi təqdim olunmasına «əsas vermişdir». Onun hədəf obyektinə tuş gələn dövrünün saxta dindarlarına və onların müasirlərinə baxsaq, xələflərinin də onlardan çox az fərqləndiklərinin şahidi olarıq. Sabir, "Molla Nəsrəddinin 10-cu nömrəsində «Qızdırmalı» imzası ilə yazılan şeirlərə cavab – şeirində belə yazır:

Madam ki, hamiyani zülmət,
Xoşlar ki, davam edə cəhalət:
Heyhat bilirmi onda millət;
Tövhid nədir və ya ***nübüvvət***?!

Bu misralarda Sabir göstərir ki, millətin İslam dininin iki əsası olan *tovhidin* (Allahın rəbb olaraq, ilah olaraq və isim və sifətlərində təkliyinin) və *nübuvvətin* (Allahın nəbisi olan Muhəmmədin iman və əxlaq üzrə yolunun - sünnəsinin mahiyyəti) nə demək olduğunu bilməməsi cəhalətin davam etməsini istəyən mövhumatçı və xurafatçıların, həmçinin atesit və materialistlərin əsas məqsədidir.

Başqa bir şerində isə din donuna bürünmüş saxtakarları və bunlara uyan avamları belə ifşa edir:

*"Ol gün ki sənə **Xaliq** edər lütf bir övlad,*
Olsun ürəyin şad!
Təyin elə cindarı ki, etsin ona imdad, ta dəyməyə həmzad;
Sağdan sola, soldan sağa sal boynuna heykəl, Qoy cinni məəttəl;
Gər dəysə soyuq, sancılanıb olsa da bimar, hökm et gələ cindar,"

Sabir "Analar bəzəyi" şeirində isə:

"Elmə çağırır bütün əvamı,
Əl-elmü fəridatun kəlamı"

-deyirdi. Bu misralardakı "Əl-elmü fəridatun" ("Elm öyrənmək fərzdir") ifadəsinin Muhammməd Peyğəmbərin (s.ə.s) səhih hədisləri əsasında gələn **"Taləbul elm faridatun alə kulli muslimin"** (Elm tələb etmək bütün müsəlmanlara fərzdir) fətvalarından götürüldüyü şübhə doğurmur. Bununla o, elmi tələb etməyin vacibliyini yuxuda huri axtaran qafil dindarlara və avam insanlara (avamunnəs) bildirir.

Sabir, dövrünün müsəlmanlarını kafir adlandıran yalançı "din adamlarına" yazdığı bir şeirdə "onların dili ilə danışıb" deyir:

Bir bölük boşboğazıq, heyvərəlik adətimiz,
Doludur lənət ilə, qeybət ilə söhbətimiz,
Oxumaqdan payımız yox, yazıdan qismətimiz,
Bu avamlıqla belə hər sözü təfsir edəriz,
Yeri gəldikdə müsəlmanları təkfir edəriz.

Alpay AZƏR

DİV ATA

acı bir hekayə

Səhrada tüğyan edən küləyin qaldırdığı qum atayla qızına rahat yeriməyə imkan vermirdi. Külək lap şiddətlənəndə hər ikisi üzlərini əks tərəfə çevirib bir müddət hərəkətsiz dayanırdılar. Beş yaşlı Sevda elə hey deyinirdi: "Ee, ay ata, bu qum məni bezdirdi. Nə vaxt mağaraya çatacağıq, mən yoruldum axı".

– Darıxma, az qalıb, çatırıq.

Qum Sevdanın dodaqlarının arasına, burnuna dolurdu deyə tez-tez yaylığı ağzından aralayıb yerə tüpürürdü, fınxırırdı.

– Axı sən ağzını, burnunu bağlamısan, bu qum necə burnuna dolur, başa düşə bilmirəm,- atası donquldandı, sonra diqqətlə baxıb gördü ki, Sevdanın ağzını örtdüyü yaylıq boşalıb, bərkitdi.

– Boğuldum, ay ata.

Atası yaylığı bir az boşaltdı və onlar bir xeyli yol gedəndən sonra ağac tapıb altında oturdular. Atası boxçanı açıb oradan çörək, pendir çıxardıb qumun üstünə sərdiyi yaylığın üzərinə qoydu. Hər ikisi həvəslə pendir-çörək yeməyə başladı.

– Ata, mağaraya hələ çox var?

– ...

– O dediyin div neçə gün yatacaq?

Evdən çıxmamışdan əvvəl atası Sevdaya demişdi ki, mağarada yatan divə baxmağa gedirlər.

– Yaxşı, ay ata, bax, sən evdə demişdin ki, divin üzünə su töksəm də oyanmaz, şillə vursam da, təpik vursam da. Bəs... bəs... yerdən yekə daş götürüb başına vursam, onda necə...?

– Onda da oyanmaz, – atası soyuqqanlıqla cavab verdi.

– Uy daa! – Sevda heyrətlə dedi.

– Yaxşı, sən yerdən yekə daş götürüb bərkdən divin başına....

– Yenə oyanmaz.

– Bəs kim öldürə bilər o divi?,- qız gözlərində qorxu soruşdu.

– Başqa div,- sakitcə dedi.

– O başqa div harda yaşayır? Başqa mağarada?

– Düzdü, başqa mağarada.

– O da çoxlu yatır?

– O da çoxlu yatır.

– Onda... Onda o yaxşı div yuxudan oyananda gedərik yanına, deyərik ki, gedib pis divi öldürsün, göstərərik yolu ona?

– Hə gedərik, Sevda, gedərik.

– ...Bəs ay ata, bəs, sən istəsən, div ola bilərsən?

– Mən?,- sualdan çaşan ata, – Mən niyə div olum ki?

– Nə bilim, istiyirəm bir günlüyə div

olasan, o pis divi yatan yerdə öldürəsən.

– Axı mən sənə bayaq dedim, o pis divi ancaq yaxşı div öldürə bilər. Başqa mağarada yaşayan div.

– Axı, sən dedin, o biri div yatır. Birdən yaxşı divi oyada bilməsək, onda necə. Ona görə mən istəyirəm, sən birgünlük div olasan, yaxşı div, gedib o pis divi öldürəsən.

– Yaxşı, birgünlük div olaram,- deyib ata susdu.

– Onda məni də özünnən apararsan ha?

– Yaxşı, apararam.

Pendir-çörəkdən sonra xurmayla su içib ata-bala yola düşdülər. Sonra atası boxçasından bel çıxardıb yeri qazmağa başladı. Külək artıq dayanmışdı deyə kişi rahatca öz işini görürdü. Dizə qədər qazana yaxın xeyli tərləmişdi. Sevda başından açdığı yaylıqla tez-tez atasının üzünün, boynunun tərini silirdi, balaca, arıq əlləriylə atasının saqqalını qumdan təmizləyirdi.

– Hələ çox qalıb su tapmağımıza? – Sevda soruşdu.

– Hələ var, hələ qazmalıyam.

– Çoox?

– Yox, çox qalmayıb. Sən mənə baxma, get o yanda gəlinciyinlə oyna, bir azdan gələrsən.

Sevda atasından aralanıb taxtadan düzəltdiyi gəlinciklə oynamağa başladı. Atası arada su içə-içə, tərini silə-silə işinə davam elədi. Sonra içindəki suyu içib qurtardığı bardağı yerə atdı. Qurşağa qədər qazıb qurtaranda çaladan çıxdı.

– Su tapdın?,– üstünə balaca parça sərib gəlinciyini "yatızdıran" qız çönüb atasından soruşdu.

– Tapdım,- atası cavab verdi.

– Nə yaxşı,- tez yerindən durub qumun üstündəki boş bardağı götürüb atasına tərəf gəldi. – Məni quyuya sal, sənə su götürüm.

Atası qızının qolundan tutub ehmalca çalaya saldı. Sevda əlində bardaq əyildi ki, suyun çıxdığı yeri görsün, atası əlindəki belin dəmir olan hissəsiylə var-gücüylə onun boynuna, başına bir neçə zərbə vurdu. Sevda bircə dəfə qışqırdı. İlk zərbədən üzü üstə yıxılmışdı. Gördü ki, qızı tərpənmir, arxası üstə çevirdi, – üzü al-qan içindəydi, əlləri açılsa da, su bardağının qulpu hələ də əlindəydi, göyə baxan balaca gözlərində isə heyrət dolu "Niyə?" sualı vardı. Əlini ürəyi olan yerə qoyub yoxladı, döyünmürdü. Bardağı götürüb var-gücüylə uzağa tolazladı. Sonra çalanın qırağında oturub bir müddət qızına baxdı. Sevdanın gözlərindəki "Niyə" sualını oxuyan atanın gündən qızarmış gözləri bərələ qalmışdı...

Sevda evin ən çirkin qızıydı, anası da atası kimi əmin idi ki, beş yaşlı qız böyüyüb ərlik vaxtına çatanda da indiki kimi çirkin qalacaq deyə onu alan olmayacaq və buna görə onlar el içində rüsvay olacaqlar. "Tərslikdən" varlı da deyildilər ki, kimsə qayınatanın varına-puluna tamah salıb on beş-on altı yaşına çatacaq Sevda üçün elçi göndərə. Üstəlik, doqquz, on dörd yaşlı o biri iki qızı ərə vermək dərdi meydana çıxmışdı. "Yaxşı ki, bunlar Sevda kimi çirkin olmayıblar",- buna da sevinirdi qızların ata-anası.

Kiçik qızından "qurtulub" yorğun addımlarla evə çatmaqdaydı: başqa atalar kimi ağzına qum dola-dola, qışqırda-qışqırda qızını qazdıqları quyuda boğub öldürməmişdi. O da elə Sevdanın sayəsində, – "Divin başına yekə daşla vursam, ölər?" – sualı atanı bu cür yerli ənənədən uzaq qətl üsulu seçməyinə səbəb olmuşdu. Çalanı qumla doldurandan sonra evə qayıtmışdı. Evdə isə arvadına yalandan demişdi ki, qızımızı diri-diri basdırdım.

...Cahiliyyə dövründə azyaşlı qızların diri-diri basdırıldığı, müqəddəs Kəbənin yaxınlığındakı Şübeykə qəbiristanlığına indi tez-tez ağ göyərçinlərin endiyini görmək olur.

Ramazan QORADAYEV

DUAMIZ OLMASA

Dua Allah ilə bəndə arasındakı dialoqun adıdır. Başqa sözlə dua, sonu ölüm olan və aciz varlıq sayılan insanla Sonsuz Qüdrət Sahibi arasındakı rabitədir. Hər cəhətdən möhtac, aciz, gücsüz olan bəndənin vəzifəsi gücsüzlüyünü dərk edərək Allaha dua etməkdir. Bu səbəblə «Allahın adı» ilə başlayan və «insan»la sona çatan Quran mükəmməl dua kitabı hesab edilə bilər. Başqalarının bizə öyrətdiyi dualardansa əllərimizi Quranla Rəbbimizə qaldırmağımız daha məqsədə uyğundur.

«Əgər ibadətiniz olmasa, Rəbbimizin yanında nə qədir-qiymətiniz olar?»

Dua bir ibadətdir, ibadətlərin özüdür. Bir ibadət olaraq duanın ən diqqətə çarpan xüsusiyyəti təvazödür. Ancaq qürurdan təmizlənmiş insanlar dua etmək istəyərlər. Onun qatında malın-mülkün, bəşəri dəyərlərin bir qiyməti yoxdur. Bizi Onun qatında qiymətli edən və rizasına yaxınlaşdıran tək dəyər duadır.

Dua, yaradılışın qayəsi sayılan ibadətin ən əhəmiyyətli ünsürlərindən biridir. **«Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım!»** deyərək yaradılış məqsədimizi bəyan edən Rəbbimiz şübhəsiz ki, bizə ən doğru hədəfi göstərmişdir.

Dua, qəlbin maddi aləmin çirklərindən xilas olaraq mənəvi aləmlərə doğru yelkən açması, ruhun qüsursuz bir kamal, sonsuz bir qüdrət və mərhəmət, bənzərsiz bir gözəllik sahibi olan Allaha doğru yüksəlişə keçməsidir.

Dua sözlə məhdudlaşdırılacaq, kəlmələrlə ifadə olunacaq qədər kiçik və dəyərsiz deyil. O, həyat tərzidir. Dua bir davranış modeli, həyatın özüdür. Buna görə də insan həyatını dua ilə əhatə etməli, onunla mənalandırmalıdır. Bir mənada qəlbimiz hər an dua ilə döyünməlidir.

Dua, modernizmin yox etdiyi xislətləri yenidən bərpa edəcək yeganə dəyərdir və şeytanlaşmış insanların çıxardığı içi boş dəyərlərdən uzaqlaşdıran şəfa qaynağıdır.

Dua, Allaha səmimiyyətlə yönəlmək və Onun icazəsi olmadığı heç bir şeyin kainatda reallaşmayacağı düşüncəsinə çatmaqdır.

Dua ibadətin özü, Allaha qulluğun bir ifadəsidir. Yoxsa ehtiyaclarımızı qarşılamaqla vəzifəli məmura təqdim edilən ərizə deyildir. Bir təvəkkül vasitəsi olaraq işlərimizin başını və sonunu anlamlandıran bir münacatdır. Və dua bütün problemlərimizin ancaq kainatın sahibi olan Allahın iradəsi ilə həll ediləcəyi şüuruna çatmaqdır.

Dua, zəifliyimizi, acizliyimizi, yoxsulluğumuzu bir-bir dilə gətirərək şahidlik etmək, sonsuz yaratma qüdrətini təsbeh edərək Uca Rəbbimizi buna şahid tutmaqdır.

Dua, yalnız ehtiyac bildirmək deyil, ilahi nemətlərə qarşı duyulan heyranlıq hissini dilə gətirməkdir.

Dua eqoizmdən, stresdən, psixoloji problemlərin mənfi təsirlərindən Allaha sığınmaqdır.

Dua, mənliyimizin sahib olduğu uca duyğuları qorumaq, müsbət insani fəzilətlərə talib olmaqdır. Qəlbin zəkası, ağlın cilasıdır dua.

Dua, təqvaya bürünərək təqvanı bəxş edənə müraciət etməkdir. Bir müqavimət şəklidir dua-İblisin şeytani tələlərinə, şeytani güclərin günaha çağıran əxlaqsız təkliflərinə, nəfsin bitib-tükənməyən arzu və istəklərinə qarşı.

Dua, Yaradıcının ucalığının, möminin dili ilə təqdir edilməsidir.

Dua, Rəbbimizin bitməz tükənməz xəzinələrinə bizi aparan sirrli bir açar kimidir.

Dua, həm verilən nemətlərdən məmnuniyəti, həm də ilahi əzabdan qorxduğumuzu, işlədiyimiz günahlardan duyduğumuz peşmanlığı səmimi bir şəkildə dilə gətirməyin ən etibarlı (asan) yoludur.

Dua varlı-yoxsul bütün insanların ümidi, sığınacağıdır.

Dua, kainatın içində meydana gələn saysız nemətlərin içindəki ən mənalı səs, ən mənalı məltəm əsintisidir.

Dini şüuru hərəkətə keçirəcək, Uca Qüdrətə təslimiyyəti doğuracak ayələrlə dolu olan kainatda iradəli bir ibadət olan dua, insanın Yaradıcıya təqdim edə biləcəyi yeganə həqiqətdir.

Dua insanın Allahın hüzurunda acizliyini dərk edib Ona yönəlməsi və arzu-istəyini Ona ərz etməsidir. Elə ibadət də müəyyən bir varlığa boyun əymək, Onun qarşısında diz çökmək, Ona itaət etmək mənalarını ehtiva edir

Duanın həqiqəti bəndənin Allahdan kömək istəməsidir. Üz tutulan yer həmişə üz tutandan, istəyəndən üstün olur. Qul istəyən olduğu üçün acizliyini, yoxsulluğunu və pərişanlığını Allaha ərz etməli və dua edərkən məqamını unutmamalıdır. Möhtac olduğunu sevgi və sayğı ilə Allaha bildirməlidir.

İnsan hansı məqamda, hansı mövqedə olursa-olsun, hər an duaya möhtacdır. Bu, hər cəhətdən zəif bir varlıq olmağımızın səbəbidir. Lakin hər kəsin dua və istəyi eyni deyil. Bizə eləgələ bilər ki, kasıb və yoxsullar zəngin insanlardan daha çox duaya ehtiyac duyur və ya əksinə, tənha, kimsəsiz insanlar digər insanlardan çox duaya möhtacdırlar. Əgər belə düşünürüksə, deməli, duanın həqiqətini anlamamışıq.

Dua möminlər üçün bir ibadətdir. Allahı Rəbb bilib Onun qarşısında səcdəyə gedənlər ehtiyaclarını Ona açır və Ondan kömək diləyirlər.

Duada əsas məqam qulun Allaha möhtac olduğunu, Ondan başqa çarə olmadığını bilməsi, dərk etməsidir. Məhz qəbula ən yaxın olan dualar da bu düşüncə, bu anlayışla edilən dualardır.

Başqa bir ifadə ilə dua: "Qulun qarşılaşdığı çətinliklərin, hadisələrin təsiri ilə bir şey üçün və ya Allah üçün Allaha yönəlməsidir". İnsan çətin vəziyyətdən qurtulmaq, pis hallarla qarşılaşmamaq üçün Allahı yad edir, aciz, gücsüz olduğunu və nöqsanlarını səmimi etiraf edərək Ondan kömək istəyir. Çətin vəziyyətdən qurtulmaq istəyi insanı günahlardan peşman olmağa və qəlbini, ruhunu təmizləməyə, Allahı mədh etməyə, əfv diləməyə sövq edir. İnsan bəzən də çətinlikdən qurtulduğu, rahatlıq tapdığı üçün məmnunluğunu dilə gətirir. Dua bəzən təbiətdəki müvazinət, gözəllik və mükəmməlliyi dərk edən, həqiqəti sezən insanın heyrətinə tərcüman olur.

Duanı vəsf etməkdən kəlmələr acizdir və dua haqqında nə desək azdır. Dua yaşamaq istər, sonsuza qədər yaşadılmaq... Duamız olmasa necə ilahi rizaya və sonsuzluq yurdu olan cənnətə çatarıq?

Kamran MƏMMƏDOV
kamran_mz@mail.ru

İNŞİRAH (ŞƏRH) SURƏSİ

İnşirah surəsi Məkkədə enmiş və 8 ayədir. Bu surə Hz. Peyğəmbərin (s.ə.s) Allah qatındakı uca məqam və mövqeyindən bəhs edir. Allahın qulu və rəsulu Muhammədə (s.ə.s) verdiyi bir çox neməti dilə gətirir. Bunlar qəlbini iman ilə rahatlatması, hikmət və bilik ilə işıqlandırması və günahlardan təmiz tutması ilə olmuşdur. Bütün bunlar kafirlərdən görmüş olduğu əziyyətlərə qarşı Peyğəmbəri (s.ə.s) təsəlli etmək və Allahın lütf etdiyi nurlarla mübarək könlünü xoş tutmaq məqsədilə zikr olunmuşdur: **"(Ya Peyğəmbər!) Məgər Biz (haqqı bilmək, elm və hikmət dəryası etmək üçün) sənin köksünü (qəlbini) açıb genişlətmədikmi?! (Allahın öz lütfü ilə köksünü açıb genişlətdiyi kimsənin qəlbinə Şeytan vəsvəsə sala bilməz. O, qüdsiyyət kəsb edər, vəhy qəbul etməyə layiq olar!) Ağır yükünü səndən götürmədikmi?! (Sənin peyğəmbərlik yükünü yüngülləşdirmədikmi?!) (Elə bir yük ki) sənin belini bükürdü".** (1-3)

Hz.Ənəsdən (r.a) rəvayət edildiyinə görə, Hz. Peyğəmbər (s.ə.s) uşaqlarla oynayarkən Cəbrayıl (ə.s) gəlmiş və onu yerə uzatmışdı. Sonra sinəsini yarıb, ürəyini çıxartmış, ondan bir ət parçası çıxartmış və: Bu, şeytanın səndəki payıdır. Sonra qəlbini, qızıl bir ləyən içində Zəmzəm suyu ilə yumuşdu. Daha sonra onu yenidən yerinə qoymuşdu. Uşaqlar qaçaraq süd anasının yanına getdilər və Muhammədin öldürüldüyünü dedilər. Sonra azyaşlı Muhammməd rəngi saralmış halda evə gəldi. (Müslim, Kitabul-İman, 261). Ənəs (r.a): "Mən Rəsululahın (s.ə.s) sinəsində tikiş izini görürdüm",- demişdir.

Surədə Peyğəmbərin (s.ə.s) dünya və axirətdəki mövqeyinin yüksəldildiyi, mövqeyinin ucaldıldığı və adının Allahın adıyla birlikdə zikr edildiyindən bəhs edilir: **"Sənin ad-sanını (şan-şöhrətini) ucaltmadıqmı?! (Yerdə, göydə səndən söhbət gedər; xütbələrdə adın çəkilər!)** (4) Hədisdə belə buyurulmuşdur: Cəbrayıl (ə.s) gəlib mənə dedi ki: Ey Muhammməd! Rəbbin deyir ki: "Bilirsənmi, sənin zikrini necə ucaltdım?" Mən də: "Allah daha yaxşı bilir" dedim. Allah buyurdu ki: "Mən zikr edildikdə sən də mənimlə birlikdə zikr edilirsən" (Müxtəsəri-İbn Kəsir, 3/652) Uca Allah Peyğəmbərin (s.ə.s) adını kəlmeyi-şəhadətdə, azanda, iqamədə, təşəhhüddə, xütbələrdə və Quranda bir çox yerdə öz adıyla birlikdə zikr etdi. Peyğəmbərlər və ümmətlərindən ona iman etmələrini istədi.

Allah (c.c) bu surə vasitəsilə Məkkədə yalanlayıcı kafirlərdən gələn əziyyət və çətinliklərə möminlərlə birlikdə dözən Hz. Peyğəmbərə (s.ə.s) təsəlli verir. Əminamanlığın və düşmənə qarşı zəfərin yaxın olduğunu bildirərək Peyğəmbəri təskinləşdirir: **"Şübhəsiz ki, hər çətinlikdən sonra bir asanlıq gələr! (Asanlıq yalnız çətinliklə hasil olar!) Həqiqətən, hər çətinlikdən sonra bir asanlıq gələr! (Buna görə də çətinliklərə səbrlə dözmək lazımdır!)"** (5-6)

Surə Hz. Peyğəmbərə (s.ə.s) peyğəmbərlik vəzifəsini təbliğ edib bitirdikdən sonra özünü Allaha ibadətə vermə vəzifəsini xatırladaraq sona çatır. Özünü Allah üçün ibadətə verməsi Allahın ona lütf etdiyi o uca nemətlərin müqabilində şükür etməsi üçündür: **"(Ya Peyğəmbər!) Elə ki (risaləti təbliğ etməkdən və ya dünya işlərindən) azad oldun, qalx (dua et)! (Axirət üçün çalış-vuruş!) Və ancaq Rəbbinə yalvar! (Üzünü Allaha çevirib yalnız Onun köməyinə bel bağla, Ona tərəf yönəl")**

Məleykə ABDULLAYEVA

Əbru Suda açan çiçək

İlk əvvəl "əbru nədir?" sualına cavab axtarsaq, əbru həyatın təməlini təşkil edən iki ana maddə sayılan su və torpaqdan əmələ gələn bir sənət növüdür. Bu sənət Orta Asiyadan ipək yoluyla İrana və oradan Türkiyəyə keçmişdir. Əbru sözünün kökü cağatayca "damarlı" mənasına gələn "əbrə", farsca "buluda bənzər" mənasını verən "əbri" və ya "su sözü" mənasına gələn "ab-ru" adıyla tanınmışdır. Əbru İslam incəsənətləri içərisində ən cazibədarıdır. Kağız bəzəmə sənəti olan əbru usta-şagird yolu ilə nəsildən-nəslə ötürülür. Əbruçu olmaq üçün öncə bu sənətə aşiq olmalısan. Sevgi və səbir də olarsa, əbru zamanla öz sirlərini sizə açar. Əbruda vacib olan əsas amil materialı hiss etməkdir. Əmək istəyən bir sənət olan əbru 3-4 dəqiqəyə başa gəlirsə, ön hazırlığa 1-2 ay tələb olunur.

Toz halında olan torpaq boya sulandırılaraq 3-4 saat ərzində əzilir və şüşə qaba qoyulur. Lazımi qədər su və öd (mal ödü) əlavə edilir. Boyanın öddə həll olması ən azı 40-60 gün çəkir. Öd boyanı incəldir və istifadə etdikdə onu suyun üzərində saxlayır. Öd boyaları suyun üzərində biri-birinə qarışmağa qoymur. Bu sənətdə mühüm olan bütün materialın təbii olmasıdır. İstifadə edilən fırçalar at quyruğu və gül budağından hazırlanır. Kitrə suya qatılıq vermək üçün istifadə edilir. Kitrə kimi dəniz kadayıfı, səhləb kökü, heyva tumu və s. istifadə etmək olar.

Kitrə suyla qarışdırılıb təknəyə süzülür. Təknə kağızın ölçülərinə uyğun hündürlüyü 5-6 sm olan paxlava qabına bənzər qabdır. Fırça hazır boyaya batırılaraq təknədəki suya çilənir. Suya düşən damlalar dairələr şəklində su üzünə yayılır. İkinci atılan boya birincini sıxışdırıb özünə yer açır və boyalar bir- birinə qarışmadan əsrarəngiz rəsmlər ortaya çıxarır. Kağızı suyun üzünə yatıraraq əbru kağıza əks etdirilir. Bu da səbrin sonu. Rəsmə diqqətlə baxdıqda ortaya çıxan görüntü mikroskop və ya teleskopla baxdığımız zaman ortaya çıxan rəsmləri xatırladır. Boyanı suya atdığımız zaman ortaya çıxan rəsmlər qan hüceyrələrinə, gah da yerin kosmosdan görüntüsünə, buludla dolu səmaya, gah suya həsrət qalmış səhraya, hərdən coşan dəniz dalğalarına, bəzən də ağac kötüyünün halqalarına və s. bənzəyir.

Fırçanı tutan təkcə əl deyil, həm də ürəkdir. İşin içinə ruhumuzu da qatsaq, meydana çıxan rəsmlər əsrarəngiz olar. Bir əbru bir dəfə hazırlanır. İkinci dəfə bunun eynisini almaq mümkün deyil. Əbru təkcə kağız deyil, parçaya, şüşəyə, taxtaya və s. materiallara çıxarıla bılər. Əbru hüsn-xətdə fon kimi işlənib xəttin gözəlliyinə gözəllik qatır. Əbru təbiətdə danları əks etdirir. Bunların bir qismini adi gözlə görərkən, bir qismini görə bilmirik. Əbruya baxan biri, mən bunu görmüşəm deyə fikirləşə bilər. Həyatın təməlini təşkil edən su və torpaq bir araya gəlib həyatın içindəki olub-bitənləri bizə xatırladır.

Həmd olsun suyu və torpağı yaradana. Əbru sənəti bir zamanlar unudulma təhlükəsi yaşasa da, son zamanlar bu sənətə diqqət artıb. Qədimdə kitablara bəzək məqsədiylə istifadə edilən əbru, insana pozitiv düşüncə verdiyi üçün çərçivələnib divarlara asılmağa başladı. Əbrulu naxışlar hər yerdə var. Göyün üzündə, mərmərdə, kəpənək qanadında, üstündə gəzdiyimiz torpaqda, daşlarda, bitkilərdə və s.

Yaşarkən hər hansı bir sənətin ucundan tutun könlünüzə bir qapı açın. Özünüzü kəşf edin. Onda ruhunuz dincələr, səbri taparsınız. Streslərlə dolu həyat sizi üzməz. Hər şeyə gözəl gözlə baxarsınız.

“Kəşfül-Həqayiq” əsərinin yeni nəşri

Qafqaz Müsəlmanları İdarəsi tərəfindən din xadimlərinin, dindarların və ümumilikdə cəmiyyətin dini sahədə maarifləndirilməsi məqsədilə həyata keçirilən silsilə tədbirlərin davamı olaraq, Mirməhəmməd Kərim Bakuvinin **“Kəşfül-Həqayiq”** əsərinin yeni nəşri həyata keçirilmişdir.Qurani-Şərifin Azərbaycan dilində təfsiri olan bu əsər üç cilddə müasir üslubda nəfis şəkildə çap edilmişdir. Nəşrin baş məsləhətçisi QMİ sədri Şeyxülislam Allahşükür Paşazadə, redaktorları Hacı Salman Musayev, Hacı Fuad Nurullah, Əhməd Niyazov və Siracəddin Hacıdır. Kitab ərəb qrafikasından latın qrafikasına Əli Fərhadov tərəfindən transliterasiya edilmiş və Abbas Qurbanov tərəfindən nəşrə hazırlanmışdır.

“*Kəşfül-Həqayiq an Nukətil-Ayəti vəd-Dəqayiq*” (Ayələr və keyfiyyətlərinin incəlikləri haqqında həqiqətlərin kəşfi) adlanan əsər ilk dəfə 1904-cü ildə Hacı Zeynəlabidin Tağıyevin maddi vəsaiti ilə Tiflisdə “Kaspi” qəzetinin Buxariyyə mətbəəsində çap olumuşdur. İlk dəfə Azərbaycan türkcəsində nəşr olunan təfsir İslam aləmində böyük əks-səda yaratmış və müəllifə böyük şöhrət qazandırmışdı.

Kitabın Təqdimat hissəsində müəllif Mirməhəmməd Kərim Bakuvinin şəxsiyyəti, dünyagörüşü və islami fikirlərini yüksək qiymətləndirən Şeyxülislam A. Paşazadə əsərin tarixi və milli-mənəvi dəyərlər baxımından diqqətə layiq olması səbəbindən onun müasir əlifba ilə yenidən nəşr edilərək cəmiyyətə təqdim edilməsinin əhəmiyyətini vurğulamışdır.

Kitabda Mirməhəmməd Kərim Bakuvinin həyatı, elmi və ictimai fəaliyyəti haqqında da məlumat verilmiş, müəllifin əsərin yazılması zamanı tətbiq etdiyi təfsir metodları, istifadə etdiyi hədis qaynaqları və əsərin digər klassik təfsirlərdən fərqli cəhətlərindən bəhs olunmuşdur.

Üç cildlik kitaba əlavə olunan CD-də əsərin orijinal səhifələri olduğu kimi verilmişdir. Maraqlananlar bu vəsilə ilə kitabı orijinalından oxuya bilərlər.

“İrfan” jurnalı “Mübarək Doğum Həftəsi”nə həsr olunmuş tədbir keçirib

Hər il olduğu kimi bu il də ölkəmizdə və bütün dünyada Həzrət Peyğəmbərin dünyanı şərəfləndirməsinin ildönümünə həsr olunmuş silsilə tədbirlər keçirildi. O cümlədən “İrfan” ictimai fikir jurnalı da bu ənənəyə sadiq qalaraq 19.04.2014-cü il tarixində “Din Səmimiyyətdir” adlı tədbir həyata keçirib. Ölkəmizdə səfərdə olan Türkiyə Cümhuriyyəti Diyanət İşləri başqan yardımçısı Dr. Ekrem Keleş və Konya bölgə müftüsü Şükrü Özbuğday da tədbirdə iştirak etdilər.

Tədbirin açılışında Qurani-Kərimdən ayələr oxundu. Jurnalın baş redaktoru Nurlan Məmmədzadə iştirakçıları salamladıqdan sonra çıxış üçün söz Türkiyə Cümhuriyyətinin Azərbaycandakı Diyanət İşləri müşaviri Dr. Sadık Eraslana verildi. O öz çıxışında bu kimi tədbirlərin böyük əhəmiyyət kəsb etdiyini və bəşəriyyətin xüsusilə bu gün Allah Rəsulunun nümunəvi şəxsiyyətinə böyük ehtiyacının olduğunu bildirdi. Sonra iştirakçılar Diyanət İşləri Başqanlığının builki Mübarək Doğum Həftəsi tədbirləri üçün hazırladığı “Din Səmimiyyətdir” adlı slayda baxdılar. Çıxış üçün söz alan Dr. Ekrem Keleş tarixən müsəlmanların Həzrət Peyğəmbərə olan sevgi və ehtiramından danışdı. Ədəbiyyatımızda Peyğəmbərə yazılan nəti-şəriflərdən misallar gətirərək Füzulidən, Nabidən, Mövlanadan misralar oxudu. Şükrü Özbuğday isə öz çıxışında ilk növbədə Bakı ilə qardaş şəhər olan Konyadan salamlar söylədi. Daha sonra dində səmimiyyətdən, müsəlmanlar arasında birlik-bərabərlik və qardaşlıq duyğularının möhkəmlənməsinin zərurətindən danışdı. Duyğulu anların yaşandığı tədbirin sonunda xatirə şəkilləri çəkildi. Sonra qonaqlar “İrfan”ın redaksiyasını ziyarət etdilər.

Türkiyə Cümhuriyyəti Diyanət İşləri başqan yardımçısı Dr. Ekrem Keleş və Konya bölgə müftüsü Şükrü Özbuğday bir gün sonra Diyanət İşləri Başqanlığının Bakı Müşavirliyi tərəfindən ParkİNN otelində keçirilən “Mübarək Doğum Həftəsi”nə həsr olunmuş proqramda iştirak etdilər.

Aləmlərə Rəhmət Hz. Muhammməd – Əbədi Möcüzə Qurani-Kərim

Osman Nuri Topbaş

İlahi sifətlərin bu aləmdə üç təcəlləgahı var: Quran, Kainat və İnsan.

Quran ilahi sifətlərin kəlamdakı, kainat isə feildəki təzahürüdür. Başqa cür desək, Qurani-Kərim kəlam surətinə bürünmüş bir kainatdır. İnsan isə kainatın özəyi və xülasəsidir.

Qurani-Kərim insan oğlunun qiyamətə qədər yüksələ biləcəyi kamillik səviyyəsini, həqiqətləri, sirr və hikmətləri özündə cəm edir. O, ilahi kəlamın təcəlli etdiyi ən böyük möcüzədir.

Hz. Peyğəmbər cahil və oxuyub-yazmaqdan məhrum bir cəmiyyət içində dünyaya gəldi. Lakin ilahi tərbiyə altında yetişib Qurani-Kərimin canlı nümunəsinə çevrildi. Onun nümunəvi həyatından örnək götürənlər bu sayədə əsri-səadət cəmiyyəti formalaşdırdılar...

"İpəkyolu Nəşriyyatı" tərəfindən dilimizə uyğunlaşdırılaraq işıq üzü görən bu əsər bütün Quransevərlərin və Peyğəmbər aşiqlərinin sevimli kitabı olacaqdır.

Ailə Səadəti

Sadiq Danə

Ailə hər kəsin isti ocağı, ən məhrəm duyğularının və hisslərinin məskənidir. İşdən evə yorğun gələn ailə rəisləri yalnız sevgi dolu ailədə rahatlqı tapa bilər. Dünyanın zərif məxluqu qadınlar yalnız öz həyat yoldaşlarının yanında özlərini güvəndə hiss edərlər. Ailədəki uşaqların da ən xoşbəxt anı ata-anaları ilə keçirdikləri gözəl zamanlardır.

Sadiq Danənin qələminin məhsulu olan "Ailə Səadəti" adlı bu kitab xüsusilə ailədaxili problemlərin yaşandığı zamanımızda bütün ailələrin götürəcəyi nümunələrlə doludur. Ailə səadətinin sirləri, xoşbəxt yuvaya sahib olmağın düsturlarının yer aldığı kitabda Allah Rəsulunun həyatından və xanımları ilə münasibətindən nümunələr verilmişdir. Heç şübhəsiz ki, ən xöşbəxt ailə Onun ailəsi idi. Hər bir müsəlman ailəsi Onun ailəsinin kiçik modelinə çevrilə bildiyi nisbətdə səadət və xoşbəxtliyi dadacaqdır.

"İpəkyolu Nəşriyyatı" tərəfindən dilimizə uyğunlaşdırılan bu kitab ailə səadəti axtarışında olanlar üçün gözəl töhfədir.

Həzrət Mövlananın Könül Dəryasında SİRR və HİKMƏT İNCİLƏRİ

Mövlana Cəlaləddin Rumi həzrətləri...

Sinəsi eşq və məhəbbətlə dolu ariflərin tərcümanı...

O, ney kimi inlədi, Hüsaməddin Çələbi dinlədi və yazdı. Həmin misralar yeddi əsrdən bəri bütün dünyaya neçə-neçə sirri, hikməti dilə gətirdi.

Haqq dostlarının söylədiyi sözlər bambaşqa. Çünki onları dilə gətirən ilahi eşqin ilhamlarıdır.

Varlıq məhəbbətlə var oldu. O məhəbbətlə xurma kötüyü inildədi, Uhud titrədi, daşlar dilə gəldi, ağaclar yeridi, ay ikiyə bölündü. O məhəbbətlə cahiliyyə dövrü əsri-səadətə çevrildi. Elm və irfan yayıldı. O məhəbbətlə gözdən pərdələr qalxdı, bəsirət nuru parıldadı, könüllər ixlasla cilalandı, qəlbi-səlim əldə edildi.

Möhtərəm Osman Nuri Topbaşın qələmindən çıxan və hər ay **"Yüzakı"** dərgisində yayınlanan yazılardan toplanaraq ərsəyə gətirilən və yenicə işıq üzü görən möhtəşəm bir əsər: **Həzrət Mövlananın Könül Dəryasında Sirr və Hikmət İnciləri**. "Yüzakı" dərgisini nailiyyətlərindən dolayı təbrik edirik. Belə bir gözəl əsərin Azərbaycan türkcəsinə də uyğunlaşdırılaraq oxucularımıza təqdim etməyi təmənna edirik.

SƏYLƏRİ BOŞA ÇIXAN ADAMLAR

Hz. Ömər (r.a) bir gün yoldaşları ilə gedərkən bir monastıra rast gəldi. Hz. Ömər monastırın yanında durub: "Ey rahib, ey rahib" –deyə çağırdı.

Rahib yuxarıdan başını uzatdı. Onu görən Hz. Ömər ağlamağa başladı. Həm rahibə baxır, həm də ağalayırdı. Yanındakılar soruşdu:

-Ey möminlərin əmiri bu rahibə görə sizi ağladan nədir?

-Allah-Təalanın "zəhmət çəkib yorulacaq yanar oda girəcəkdir" (əl-Ğaşiyə 3-4) ayələrini xatırladım. Bax məni ağladan da budur.

(İbnül-Cevzi, Mənaqib s.210)

XOŞBƏXTLİK ÖZ ƏLİMİZDƏDİR

Əbu Müslim Həvlani bir qrup insanın danışdıqlarına qulaq asar. Hamısının xanımından şikayətçi olduğunu görür. Ancaq Əbu Müslim heç şikayət etməz. Ona: "Qismətinə övliya kimi bir xanım düşdü hər halda, səsin çıxmır." dedilər. Çiyinlərini çəkərək cavab verir:

"Bizimkilər vəli deyil, sözün əsl mənasında dəlidir, dəli." Sonra sözünə belə davam etdi:

"Mən üsulunu bildiyimçün dava-dalaşsız yaşayırıq." Hər kəs təəccüblə:

"dəli kimi bir insana davasız-dalaşsız necə yola getmək mümkündür?" –deyə soruşur. Əbu Müslim belə izah edər:

"Allah-Təala Adəmi yaratdığı zaman öncə başına ağıl qoydu. Sonra qəzəbi yaratdı və ona Adəmin bədəninə girməyi əmr etdi. Qəzəb:

"Mən Adəmin bədəninə girə bilmərəm. Çünki orada ağıl var. Ağılla biz ikimiz bir yerdə ola bilmərik" dedi. Rəbbimiz buyurdu:

"Ey qəzəb, sən Adəmin bədəninə gir. Ağıl sənin gəldiyini gördükdən dərhal çıxıb gedər, öz yerini sənə qoyar. Beləcə sən də Adəmi dəli edərsən." –buyurdu."

Burada Əbu Müslim belə əlavə edər:

"Biz bu məsələdə xanımla anlaşdıq. Dedik ki, madam insana qəzəb gəldikdə ağıl gedir, deməli, insan dəlinin biridir. Dəliyə qarşı isə bir vəli lazımdır. Mən hirsləndikdə sən vəlilik edəcək, səbirlə qarşılayıb, sərt cavab verməyəcəksən. Sən qəzəblənib dəli olduqda da mən vəli roluna girəcəyəm."

Hər zövqə uyğun model
Hər kəsə uyğun qiymət

İndi bizdən cehiz almaq daha asan və daha sərfəli

Sədərək T.M. ELİT (1 mərtəbə) Sıra 3, Mağaza No: 8
Tel : (+994 55) 209 23 19
(+994 70) 562 70 50
E-mail: info@prestige-galleryhome.com
www.prestige-galleryhome.com

İrfan oxucularına 40% ENDİRİM